# Xalq qəzeti

Xalqın qəzeti!

№ 124 (30240) 13 iyun 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi.**

# Türkiyə–Azərbaycan: iki bədəndə bir can!

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfəri

### *Ali qonağın şərəfinə dövlət ziyafəti*



**İyunun 12-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Azərbaycan Prezidentinin dəvəti ilə ölkəmizdə dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və birinci xanım Əminə Ərdoğanın şərəfinə dövlət ziyafəti verilib.**

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və birinci xanım Əminə Ərdoğanı qarşıladılar.

Ziyafət konsert proqramı ilə davam edib.

Konsert proqramında ölkəmizin tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin ifasında Azərbaycanın və Türkiyənin xalq mahnılarından və klassik musiqilərindən nümunələr səsləndirilib.

**AZƏRTAC**



## Rusiya Federasiyasının Prezidenti Zati-aliləri cənab Vladimir Putinə

**Hörmətli Vladimir Vladimiroviç!**

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və Sizin simanızda bütün rusiyalıları dövlət bayramı – Rusiya Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycanı və Rusiyanı xalqlarımız arasındakı çoxəsrlik dostluq, mehriban qonşuluq və qarşılıqlı dəstək ənənələri bağlayır. Bu gün bizim dövlətlərarası əlaqələrimiz, gündən-günə yeni sahələri əhatə edən sıx və etibarlı tərəfdaşlıq münasibətlərimiz bu möhkəm təməl üzərində uğurla inkişaf edir.

Böyük məmnuniyyətlə Azərbaycan–Rusiya əlaqələrinin ruhunu və xarakterini əks etdirən, gələcək illər üçün çoxplanlı qarşılıqlı fəaliyyəti müəyyənləşdirən Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannaməni qeyd etmək istərdim.

Əminəm ki, biz birgə səylərimizlə bundan sonra da gələcək əlaqələrimizin möhkəmlənməsinə, ticari-iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişlənməsinə xalqlarımızın və ölkələrimizin tərəqqisi naminə fəal kömək edəcəyik.

Hörmətli Vladimir Vladimiroviç, bu əlamətdar gündə Sizə möhkəm can-sağlığı və uğurlar, dost Rusiya xalqına isə səadət və rifah arzulayıram.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı, 9 iyun 2023-cü il**

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə iyunun 12-də ölkəmizə dövlət səfərinə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

**AZƏRTAC**

## Dehlinin axına qarşı üzməsinin səbəbləri



Səhifə ⇨ 4

## Ermənilərin Qarabağdan axını, saxta sorğular və "blef" imzatoplama kampaniyası



Səhifə ⇨ 4

## QHT layihələri: məqsəd bəlli, vəzifə bəlli, bəs işin həlli?

Səhifə ⇨ 6



## Azərbaycan–Türkiyə: ortaq hədəflərin yüksəliş yolu

Səhifə ⇨ 7




## Ölkəmizin enerji layihələri Astana Beynəlxalq Forumunda böyük maraq doğurub

Səhifə ⇨ 7

## Turan birliyinin Bakı körpüsü – ədəbiyyat və kitab bayramı

Səhifə ⇨ 10

## "Holland pendiri" və Ermənistandakı "donuz ferması"

Səhifə ⇨ 3

## Arazqırağının "Qayıdış" təməlləri



Səhifə ⇨ 8

Səhifə ⇨ 9

## Rusiya – Ukrayna müharibəsi: mümkün ssenarilər və gözləntilər



# Azərbaycanda müsbət investisiya şəraiti mövcuddur



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də dünyanın aparıcı investisiya şirkətlərindən biri olan alternativ investisiyaların idarə edilməsi üzrə "Starwood Capital Group" şirkətinin təsisçisi və icraçı direktoru Berri Sternlixi qəbul edib.**

Azərbaycanda bütün sahələrdə gedən inkişaf proseslərini və qısa zaman ərzində əldə olunan uğurları qeyd edən Berri Sternlix ölkəmizin regionda böyük rola malik olduğunu dedi. Qonaq vurğuladı ki, Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə çoxillik və möhkəm əməkdaşlıq rəhbərlik etdiyi şirkət üçün böyük önəm daşıyır və onlar gələcəkdə bu əməkdaşlığın daha da dərinləşdirilməsində maraqlıdırlar.

Prezident İlham Əliyev dünyanın nəhəng və qabaqcıl maliyyə təsisatları ilə əməkdaşlıq edən Azərbaycan Respublikası Dövlət Neft Fondunun "Starwood Capital Group" şirkəti ilə sıx əlaqələrinin olmasını müsbət qiymətləndirdi və mövcud tərəfdaşlığın daha da gücləndirilməsi üçün səylərin davam etdirilməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev qeyri-sabit maliyyə bazarları dövründə də Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərinin artmasının müsbət hal olduğunu dedi.

Görüşdə Azərbaycanda münbit investisiya şəraitinin mövcudluğu qeyd edildi, energetika sahəsi, xüsusilə alternativ enerji, logistika, turizm sahələrinə əlverişli investisiya qoyuluşu üçün yaxşı imkanların olduğu vurğulandı və bununla bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, alternativ investisiyaların idarə edilməsi üzrə dünyanın aparıcı investisiya şirkətlərindən biri olan "Starwood Capital Group" 1991-ci ildə təsis edilib. Şirkətin daşınmaz əmlak, kredit və enerji infrastruktur strategiyaları üzrə idarə etdiyi vəsaitlərin ümumi dəyəri hazırda 120 milyard ABŞ dolları təşkil edir. Şirkətin baş ofisi Amerika Birləşmiş Ştatlarında yerləşir və 35-dən artıq ölkəyə investisiya həyata keçirib. Hazırda portfel şirkətlərində 5 mindən artıq əməkdaş çalışır.

**AZƏRTAC**

# Görkəmli rejissorun sənətinə yüksək qiymət



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də görkəmli kinorejissor, ssenarist, Xalq artisti Oqtay Mirqasımova "İstiqlal" ordenini təqdim edib.**

**Xalq artistini təbrik edən Prezident İlham Əliyev dedi:**

– Hörmətli Oqtay müəllim, bu gün sizin yubileyinizdir. Bu yubiley münasibətilə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram.

Siz uzun illərdir kino sənətinin inkişafında çox fəal işləyirsiniz. Son illər ərzində Azərbaycanda gördüyünüz işlər hamımızı çox sevindirir. Siz həm görkəmli rejissor kimi, həm pedaqoq kimi böyük şöhrət qazanmısınız. Azərbaycan kinosunun inkişafında sizin çox böyük rolunuz vardır.

**Oqtay Mirqasımov:** Minnətdaram.

**Prezident İlham Əliyev:** Eyni zamanda, ictimai həyatda da fəalsınız, həmişə öz vətəndaşlıq mövqeyinizi bəyan etmisiniz. Cəmiyyəti narahat edən məsələlərlə bağlı sizin dəyərli fikirləriniz çox böyük önəm daşıyır.

Sizin fəaliyyətiniz Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilib. Siz 2003-cü ildə "Şöhrət", 2018-ci ildə "Şərəf" ordeni ilə təltif olunmusunuz. Bu gün – yubileyiniz olan gündə siz Azərbaycan dövlətinin yüksək ordeni olan "İstiqlal" ordeni ilə təltif edilirsiniz. Mən sizi ürəkdən təbrik etmək və bu ordeni sizə təqdim etmək istəyirəm.

***

Dövlətimizin başçısı "İstiqlal" ordenini Oqtay Mirqasımova təqdim etdi.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Oqtay Mirqasımov:** Siz həm gözəl sərkərdə, gözəl siyasətçi, sözündən dönməyən kişisiniz. Bu keyfiyyətlər bizim üçün önəmlidir. Biz uşaqlıqdan belə böyümüşük – həmişə əsgər, qəhrəman bizim üçün kumir olub. Allah razı olsun. Siz böyük Heydər Əliyevin – atanızın oğlusunuz. Bu, çox böyük bir işdir və adama nə qədər ruh verir. Bunu hər kəs bilir.

**Prezident İlham Əliyev:** Çox sağ olun, təşəkkür edirəm. Xoş sözlərə görə minnətdaram.

***AZƏRTAC***

# Azərbaycan–Rusiya ikitərəfli münasibətləri uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Rusiya Federasiyası Prezidentinin köməkçisi İqor Levitini qəbul edib.**

Prezident İlham Əliyev 12 İyun – Rusiya Günü münasibətilə təbriklərini çatdırdı.

İqor Levitin təbriklərə görə təşəkkür etdi. O, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Vladimir Putinə çatdırmağı xahiş etdi.

İqor Levitin ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək, ulu öndərin 100 illiyinin Rusiyada geniş şəkildə qeyd olunduğunu məmnunluqla vurğuladı.

Görüşdə Azərbaycan ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən, iqtisadi sahədə uğurla inkişaf etdiyi qeyd olundu.

Söhbət zamanı Şimal–Cənub nəqliyyat dəhlizinin inkişafı üzrə qarşılıqlı səylərin davam etdirilməsi, yük həcmlərinin artırılması, Azərbaycan ərazisində müvafiq infrastrukturdan istifadə imkanları, müasir nəqliyyat habına çevrilən ölkəmizin ərazisindən Bakı–Tbilisi–Qars və Şimal–Cənub nəqliyyat dəhlizləri vasitəsilə daşımalar barədə fikir mübadiləsi aparıldı.

Gələcəkdə Zəngəzur dəhlizinin potensialından Rusiyanın istifadə imkanlarının araşdırılması ilə əlaqədar məsələlər müzakirə olundu. Azərbaycanda müasir gəmiqayırma sahəsinin imkanlarından istifadə edilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# O.M.Mirqasımovun "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Oqtay Mirəsədulla oğlu Mirqasımov "İstiqlal" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 iyun 2023-cü il**

# Qazaxıstan Respublikasının Prezidenti Zati-aliləri cənab Kasım-Jomart Tokayevə

**Hörmətli Kasım-Jomart Kemeleviç,**

Abay bölgəsində baş vermiş güclü meşə yanğınlarının çox sayda insan tələfatına səbəb olması və ağır fəsadlar doğurması xəbəri bizi son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Qazaxıstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 iyun 2023-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri.**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Syerra-Leone Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizi və Sizin simanızda Azərbaycan hökumətini və xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gün münasibətilə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan hökumətinə və xalqına isə firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Culius Maada BİO,***
***Syerra-Leone Respublikasının Prezidenti***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Şadam ki, Sizin simanızda Rusiyanın etibarlı müttəfiqi vardır. Ölkələrimiz bərabərhüquqlu, etimada əsaslanan, qarşılıqlı faydalı şəraitdə strateji tərəfdaşlıq münasibətlərini inkişaf etdirir və möhkəmləndirir.

Siz Azərbaycan xalqının əsl lideri, müdrik dövlət xadimi, ölkənizin milli maraqlarının beynəlxalq arenada qətiyyətli müdafiəçisisiniz.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, uzun ömür, uğurlar və firavanlıq, həmçinin Vətəniniz Azərbaycana sülh və tərəqqi diləyirəm.

***Aleksey JURAVLYOV,***
***Rusiya Federasiyası Dövlət Dumasının deputatı***

# Hikmət Hacıyevin "Yüksəliş" müsabiqəsi qalibləri ilə görüşü



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev ikinci "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşüb.**

Görüşdə Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin İşçi qrupunun rəhbəri Fərhad Hacıyev də iştirak ediblər.

Prezidentin köməkçisi Hikmət Hacıyev ikinci "Yüksəliş" müsabiqəsinin qaliblərini müsabiqədə əldə etdikləri nailiyyət münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Hikmət Hacıyev hazırda müxtəlif sahələrdə mövcud olan məsələlərin araşdırılmasında və onların həlli yollarına dair təkliflər hazırlanmasında vətəndaş cəmiyyəti təsisatlarının fəal iştirakının əhəmiyyətindən söz açıb, bu istiqamətdə qaliblərin suallarını cavablandırıb. Bundan əlavə, düzgün kommunikasiyanın qurulması və kommunikasiyanın idarəetmədəki mühüm rolu barədə fikir mübadiləsi aparılıb.

"Yüksəliş" müsabiqəsinin İşçi qrupunun rəhbəri Fərhad Hacıyev Hikmət Hacıyevə iştirak üçün təşəkkürünü bildirərək gələcəkdə belə görüşlərin mütəmadi təşkil ediləcəyini deyib.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsinin 20 qalibini bir il ərzində idarəçi rəhbərlərdən – iri şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı, kadr ehtiyatı bankına daxil edilmə və 20 min manat dəyərində pul mükafatı gözləyir.

Qeyd edək ki, "Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il iyulun 26-da imzaladığı Sərəncamla təsis olunub. Müsabiqə 5 mərhələdən ibarətdir. Müsabiqə qalibləri idarəçi rəhbərlər tərəfindən birillik fərdi inkişaf planı və hər biri 20 min manat məbləğində özünüinkişaf qrantı əldə edirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci il dekabrın 20-də üçüncü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Sərəncam imzalayıb.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# Tehranda Azərbaycan səfirliyinin təhlükəsiz fəaliyyətinə zəmanət verilməlidir

**Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə İranın Xarici İşlər Nazirliyinin mətbuat katibi Nasir Kənaninin səfirliyin bərpa oluna biləcəyi ilə bağlı açıqlamasına münasibət bildirib.**

Ayxan Hacızadə son zamanlar Azərbaycanla İran arasında bir sıra təmasların həyata keçirildiyini bildirib. O əlavə edib ki, xarici işlər nazirləri arasında baş tutmuş danışıqlar zamanı ölkələrimiz arasında yaranmış məlum vəziyyətə dair ətraflı fikir mübadiləsi aparılıb.

"Cari ilin yanvar ayında terror hücumu nəticəsində fəaliyyətini dayandırmış səfirliyimizin işinin bərpa olunması məsələsinə gəldikdə qeyd edək ki, Azərbaycan terror hücumu ilə bağlı istintaqın başa çatdırılacağını gözləyir. Terror aktını törədənlər və sifarişçilər məsuliyyətə cəlb olunmalı, ən sərt şəkildə cəzalandırılmalıdır. Azərbaycan tərəfi əmin olmalıdır ki, səfirliyin təhlükəsiz fəaliyyəti üçün şərait mövcuddur və bununla bağlı tam zəmanət verilməlidir", – deyə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi vurğulayıb.

Qeyd edək ki, iyunun 12-də İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat katibi Nasir Kənani Azərbaycanla münasibətlərə toxunarkən bildirib: "Diplomatik tədbirlər nəticəsində gərginliyin nəzarət altına alınması ilə bağlı müsbət nəticə əldə edildiyinə inanırıq. Hazırda gərginlik mərhələsindən yeni mərhələyə keçid və Azərbaycanın Tehrandakı səfirliyinin rəsmi fəaliyyətini bərpa etmək üçün danışıqlar mərhələsindəyik. Yeni praktik addımlar atmaq üçün dialoqa və fikir mübadiləsinə ehtiyacımız var".

***"Xalq qəzeti"***

# Türkiyə Prezidentinin andiçmədən sonra Bakıya ilk səfəri

**Azəri türklərinin qardaş ölkədən aylardan bəri maraq, həvəs və həyəcanla gözlədiyi prezident seçkiləri artıq geridə qaldı. Xalqımız məhz həmin şövqlə cənab Prezident Rəcəb Tayyib Ərdoğanın Bakı səfərini gözləyirdi. Dünən isə artıq həmin səfər də reallaşdı. Xatırladaq ki, son otuz ildə Türkiyə prezidentləri andiçmədən sonra ilk olaraq Bakıya səfər edirlər, Azərbaycan prezidentləri isə Ankaraya. Daha maraqlı və ənənə şəklini almış başqa bir fakt da var ki, Türkiyə prezidentləri Bakıdan əvvəl Şimali Kipr Türk Cümhuriyyətinə baş çəkirlər.**

*Biz "Can Azərbaycan" sözünü boş-boşuna demirik, oradakılar bizim canımızdır.*

**Rəcəb Tayyib ƏRDOĞAN,**
**Türkiyə Cümhuriyyətinin Prezidenti**



Bəri başdan qeyd edək ki, rəsmi Ankara Anadolu türklərinin "yavru Vətən" adlandırdığı Şimali Kipr Türk Cümuriyyəti də daxil olmaqla, bütün türkdilli ölkələrlə sıx və bərabərhüquqlu dostluq, tərəfdaşlıq, müttəfiqlik münasibətlərinə malikdir. Üstəlik, Ankaranın hamı ilə özünəməxsus hərbi-texniki əməkdaşlıq prinsipləri də mövcuddur ki, bu münasibətlərin də mükəmməl hüquqi bazası var. Yəni, Türkiyə dövlətinin türk dünyasında kiminləsə nisbətən az, kiminləsə daha çox siyasi-iqtisadi əməkdaşlıq etmək istəyi olmayıb və indi də yoxdur.

Ancaq faktı daha səmimi şəkildə ifadə etsək, deməliyik ki, rəsmi Ankara Bakı ilə münasibətlərə xüsusi önəm verir. Bu isə ilk növbədə, ekspertlərin fikrincə, Azərbaycanın yerləşdiyi coğrafi mövqe ilə bağlıdır. Belə ki, ölkəmizin geosiyasi imkanları Türkiyənin həm Orta Asiya ölkələri ilə əməkdaşlığının təmin olunmasına kömək edir, həm də bəzi beynəlxalq əhəmiyyətli iqtisadi layihələrin icrası Azərbaycansız mümkün deyil. Bundan başqa, bir çox tarixi-mənəvi dəyərlər də vardır ki, onları da həm Bakıda, həm də Ankarada hamı daim uca tutur.

... Qardaş ölkədə keçirilmiş rəsmi dövlət tədbirlərindən birində Prezident İlham Əliyevin və Azərbaycan nümayəndə heyətinin olduqca möhtəşəm şəkildə qarşılanması və həmin münasibətin hamı tərəfindən alqışlanması barədə hazırladığım qəzet materialında belə bir cümlə var idi: "Ankarada Bakının öz yeri var". Yazı qəzetdə və təbii ki, həm də elektron saytımızda veriləndən sonra istanbullu həmkarımız Əli Ağbulud sosial şəbəkə vasitəsiylə soruşdu ki, bəs Bakıda Ankaranın məxsusi yeri olduğunu nə üçün yazmırsınız? Nə üçün İlham Əliyevin "Ərdoğan Azərbaycana gələ bilmir, mən Türkiyəyə gedərəm" və ya "Burada Türkiyə yoxdur, mən varam!" – qətiyyətlərini yada salmırsınız?

Həmin tarixi faktları xatırlatdığına görə dəyərli həmkarımıza təşəkkür edir və bildirirəm ki, o məsələlər haqqında şəxsən mən dəfələrlə söz açmışam. Təbii ki, bunlar əsla unudulmayacaq. Ancaq indi söhbət Türkiyə rəhbərliyinin Azərbaycan dövlətinə, xalqımıza, xüsusən Ali Baş Komandanımıza göstərdiyi xüsusi ehtiramdan gedir. Cənab Rəcəb Tayyib Ərdoğan dəfələrlə deyib ki, Azərbaycanın sevinci, bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir: "Azərbaycan kədərlənərsə, biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik".

Biz qardaş ölkə liderinin bu qətiyyətinin təsdiqini 44 günlük İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə də gördük, işğaldan azad edilmiş ərazilərimizin bərpa prosesində də. Dövlət başçımızın bu il aprelin 29-da İstanbulda keçirilmiş "TEKNOFEST" festivalındakı çıxışında dediyi kimi, İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi: "Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi".

Prezident Rəcəb Tayyib Ərdoğan isə həmin faktı, yəni rəsmi Ankaranın torpaqlarımızın işğaldan azad edilməsi prosesindəki siyasi-mənəvi iştirakını qardaş ölkədə keçirilmiş son seçkilərin ikinci turundan əvvəlki görüşlərindən birində belə xatırlatmışdır: " CHP sədri indi də milliyyətçilik oyunu oynayır. Milliyyətçilik Azərbaycanla çiyin-çiyinə verib Qarabağı 30 illik işğaldan azad etməkdir. CHP Azərbaycanla bağlı fikirlərini elə qardaş ölkədə səfir olmuş birinin sözləri ilə nümayiş etdirib. İndi həmin adamın Azərbaycana girişi qadağandır. Bu cür xaini ölkələrinə buraxarlar? Əlbəttə ki, yox. Bundan sonra da azərbaycanlı qardaşlarımızın yanında olacağıq. Türkiyənin şərəfinə xələl gəlməsinə əsla icazə verməric".

O ki qaldı, türkiyəli həmkarımızın fəxrlə xatırlatdığı məqamlara, biz Azərbaycan Ordusunun işğalçı dövlət üzərindəki şanlı Qələbəsindən sonra Azadlıq meydanında keçirilmiş Zəfər Paradında Türkiyənin ölkəmizdəki məxsusi yerini çox yaxşı görmüş və qiymətləndirmişdik. Elə Qələbədən yeddi ay sonra imzalanmış "Şuşa Bəyannaməsi"ndə də, Füzuli və Zəngilan Beynəlxalq hava limanlarının açılış mərasimlərində də gördük. Dostlarımız bundan sevinmiş, bədxahlarımız isə növbəti əzabı çəkmişdilər.

Bu ilin fevralında Türkiyədə baş vermiş sarsıdıcı təbii fəlakətdən – zəlzələdən dərhal sonra qardaş ölkənin rəsmiləri də, sakinləri də qardaşlığımızın nə qədər mühüm və əhəmiyyətli olduğunun fərqinə varmışdılar.

Fikrimizi Prezident İlham Əliyevin işğalçı Ermənistan dövləti üzərindəki Qələbənin ilk ildönümü günlərində Türkiyənin "A Haber" televiziya kanalına verdiyi müsahibəsindəki bəzi fikirlərlə yekunlaşdırmaq istəyirik. Dövlət başçımızın bildirdiyinə görə, əgər toqquşmaların ilk saatlarında Türkiyədən dəqiq mesajlar gəlməsəydi, bəlkə də bu işlərə başqaları qarışa bilərdi: "Türkiyənin bu mesajları hər kəsə "dur" dedi. Azərbaycan tək deyil. Türkiyə işin sonuna qədər Azərbaycanın yanındadır. Əlbəttə ki, bu gün Azərbaycan–Türkiyə birliyi artıq çox ciddi geosiyasi amilə çevrilibdir və bu, müsbət amildir. Bizim birliyimiz hər hansı bir ölkənin maraqlarına qarşı deyil. Biz, sadəcə olaraq, öz maraqlarımızı müdafiə edirik, öz yolumuzu davam etdiririk. Heç kim bizim işimizə qarışmasın... Sadəcə, biz deyirik ki, bizə də dəyməyin, kənarda durun. Dost olaq, tərəfdaş olaq, işbirliyi edək. Amma sizinki sizdə, bizimki bizdə. Biz bunu istəyirik və buna haqqımız çatır".

Gətirdiyimiz bu iqtibas da sübut edir ki, həqiqətən, Ankarada Bakının öz yeri var. Necə ki, Bakıda Ankara məxsusi yerə malikdir və bunu hamı görür.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# "Holland pendiri" və Ermənistandakı "donuz ferması"

## Yaxud Qarabağda beynəlxalq sülhməramlılar təşəbbüsünə sözardı

**Müstəqillik dövrü Azərbaycan kino sənətinin şah əsərlərindən sayılan "Bəxt üzüyü" filmində baş qəhrəman Moşunun dilindən məxsusi formada sələnmiş, onun qorxmadığını ifadə edən və artıq ölkəmizdə zərb-məsələ çevrilmiş bir ifadə var: "Ayə, qoymuyun, ayə, a millət, üstümə İrasim gəler".**



Azərbaycan–Ermənistan münasibətlərinin tənzimlənməsi və sülh prosesində meydana çıxan müxtəlif əndərəbadi məqamları nəzərə alaraq, hazırda bir çoxlarına Moşunun dili ilə müraciət etmək mümkündür. Bu kateqoriyadan olanlar sırasına Hollandiyanın sabiq deputatları da qoşuldular.

Əslində sabiqlərin nə dediklərinə ciddi yanaşmaq, bəlkə bir o qədər yerinə düşmür. Hərçənd, nəzərə alaq ki, hər şey beləcə, təxminən bir dəlinin quyuya daş atması ilə başlayır. Deməli, məsələyə önəm vermək lazımdır. İndiki məqamda daşı quyudan çıxarmağa ehtiyac yoxdur. Sadəcə, daşı atana yerini bildirmək şərtdir.

***

Bəli, hollandiyalı sabiq deputatların söylədiklərinə diqqətlə yanaşmaq zəruridir və görək dedikləri nədir. Əlqərəz, eks parlamentarilərin bir qrupu bəyanat verərək, ölkə hökumətini, o cümlədən, beynəlxalq strukturları Qarabağa sülhməramlı missiya göndərməyə çağırıb. Ancaq sənəddə vurğulanan yalnız bu deyil...

Mövcud xüsusdakı üzərində dayanılmalı ilk məqam erməni mediasının "sabiqlərin" bəyanatını geniş yaymasıdır. Məlum olduğu kimi, Azərbaycan–Ermənistan münasibətləri baxımından sülh gündəliyi aktual olsa da, hazırda hay cəmiyyətinin bu ab-havadan uzaqlığı görünməkdədir. Hər halda, sülh istəməyənlərin səslərinin daha çox çıxdığına dair oturuşmuş qənaət var və onlar ən müxtəlif məsələləri ortaya atırlar ki, baş nazir Nikol Paşinyanın Azərbaycanın Qarabağ da daxil olmaqla, 86,6 min kvadratkilometr ərazidə suveren hüquqularını tanıması ilə bağlı dedikləri əhəmiyyətini itirsin, nəticədə nizamlama prosesi yeni reallıqlar qazansın. Bu, daim spekulyativ mövqe tutan Ermənistan hakimiyyətinin ürəyincədir. Nəhayət, erməni iqtidarının da Qarabağ mövzusundakı müxtəlif məsələlər, o cümlədən ərazidə yaşayan erməni əhalinin hüquq və təhlükəsizliyi müstəvisində manipulyasiyalara baş vurduğu aşkardır.

***

İkincisi. Qarabağda rus hərbçiləri var. Azərbaycan və Ermənistan sülh müqaviləsi bağlayacağı təqdirdə, onların orada qalmaları mənasız şəkil alacaq. Nəzərə alaq ki, hazırda Rusiyadakı bəzi qüvvələr Qarabağın erməni əhalisinin rusmeyilli olmasına dair rəy formalaşdırırlar. Onlar bu xüsusda həmin sülhməramlı rus hərbi kontingentinin mövcudluğunun uzadılmasına, bir növ, qanunauyğunluq libası geyindirirlər. Bu işə ölkənin ekspert cameəsi də kifayət qədər böyük əzmlə girişir. Belə təəssürat yaranır ki, Qarabağı ayrıca Rusiya məntəqəsi kimi görürlər. Yəni, Moskvada kimlərsə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması, ölkələrin bir-birilərinin ərazi bütövlüklərini qarşılıqlı şəkildə tanımaları belə, rus qoşunlarının bölgəni tərk etmələri üçün əsas saymırlar. Bəs, demək mümkündürmü ki, bu meyil erməni avantürizmi üçün xeyirlidir? Sual ritorikdir, çünki cavabı məlumdur.

Ermənistan hakimiyyəti məsələyə iki aspektdən yanaşır. Birincisi, əgər Qarabağ Ermənistanın olmayacaqsa, heç Azərbaycanın da olmasın və mövcud istiqamətdə Rusiyanı da ön planda dayanması vacibdir. Digər tərəfdən, Qarabağdakı rus sülhməramlıları Cənubi Qafqazda rus hərbi faktorudur ki, bunu da Qərb daiərələri heç cür məqbul saymırlar. Unutmaq olmaz ki, həmin dairələrin hazırkı erməni iqtidarına təsirləri böyükdür. Nəticəyə gəlirik ki, Hollandiyanın eks deputatlarının dövriyyəyə buraxdıqları məsələ – Qarabağa beynəlxalq sülhməramlı missiya göndərilməsi, şübhəsiz ki, anti-Moskva ovqatının da siyasi məhsuludur. Deməli, holland ekslər, belə demək mümkünsə, "xodlayanlar" xaricdəki erməni lobbisi və diasporudur. Qarabağda beynəlxalq sülhməramlı qüvvələrin olması bölgəni qeyri-müəyyən şəkildə saxlamaq xətti götürmüş baş nazir Nikol Paşinyanın administrasiyasına sərfəlidir. Yəni, erməni iqtidarı rus sülhməramlılarındansa, xarici qüvvələri üstün tutur. Hərçənd, əvvəllər Paşinyan Qarabağdakı Rusiya sülhməramlılarının yalnız 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla müəyyənləşmiş və qeyri-müəyyən xarakter daşıyan mandatının 10, hətta 20 il uzadılmasından dəm vururdu. Tutar qatıq, tutmaz ayran. Burada İrəvan üçün beynəlxalq sülhməramlı missiya qatıqdır, rus sülhməramlıları isə ayran. Bir sözlə, necə olursa-olsun, Azərbaycanın Qarabağda tam nəzarəti olmasın.

***

Üçüncü məqama keçid alaq. Hollandiyalı keçmiş deputatlar Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanımasına dair bəyanatına fokuslanaraq bildirirlər ki, belə olan təqdirdə Qarabağda erməni əhalinin təhlükəsizliyi məsələsi önəmlidir. Əlbəttə, onlara Azərbaycanın təhlükəsizlik təminatları kifayət sayılmır. Beynəlxalq sülhməramlılar da məhz buna görə və deməli, Ermənistanın spekulyativ yanaşmasının davamalılığı nöqteyi-nəzərdən lazımdır.

Həm də ona görə lazımdır ki, Avropa üçün Rusiya sülhməramlılarının fəaliyyəti Qarabağ ermənilərinin təhlükəsizliyi baxımından yetərli hesab edilmir. Yada salaq ki, rəsmi İrəvan son zamanlar təhlükəsizlik məsələsini qaldıran zaman rus sülhməramlıları faktorunu görməzdən gəlir, bir qayda olaraq, hansısa beynəlxalq təminat mexanizmindən söhbət açır. Buyurun, holland eks deputatlar həmin təminatı ictimailəşdirməyə girişiblər.

Əlbəttə, hollandiyalı sabiqlərin bəyanatının aşkar ermənipərəst mövqe nümayişinə hesablandığı gün kimi ortadadır. Onlar üçün Qarabağ keçmişdə olduğu kimi, muxtar ərazidir, üstəlik həm də "Dağlıq Qarabağ" adlı ayrıca vahiddir. Bəyanatda bu baxışı təsdiqləyən "Artsax", "Laçın yolunun açılması" kimi ifadələr var. Azərbaycanın Laçın–Xankəndi yolundakı sərhəddə qurduğu nəzarət-buraxılış məntəqəsindən rahat şəkildə keçib Ermənistana gedənlərin olduğu halda, sənəddə bunun nəzərə alınmaması və yolun bağlı qaldığının vurğulanması kimi sarsaq motiv də diqqət çəkməkdədir. Görünür, erməni təbliğat maşını köhnə tezisi saqqız kimi çeynəməkdədir, halbuki saqqız çoxdan çürüyüb.

***

Gələk, hollandiyalı keçmiş parlamentarilərin bəyanatındakı ən vacib məqama. Onlar Qarabağa beynəlxalq sülhməramlıların yeridilməsinin vacibliyini əsaslandırarkən, vurğulayırlar ki, demokrat Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdıqda, sən demə, nəinki riskə gedib, həm də sülh yolunda mühüm addım atıb. "Avropa İttifaqının, ATƏT-in, ABŞ-ın və Rusiyanın BMT-nin köməyi ilə sülhə gedən bu müqəddiməni dəstəkləmək, müəyyənləşdirmək və həyata keçirmək üçün vaxt yetişib. Bu, "Artsax" nümayəndələrinin müzakirədə faktiki iştirakı olmadan mümkün deyil. Hamımız başa düşürük ki, bu çətin sualdır, lakin çox böyük əhəmiyyət kəsb edir. Beynəlxalq iştiraksız sülh prosesinin uğursuzluğa məhkum olduğu faktı ilə üzləşməkdəyik", – deyən hollandların bəyanatının, loru dildə desək, mustafası odur ki, guya Azərbaycan qeyri-demokratik ölkədir, buna görə onun Qarabağ erməniləri ilə bağlı hüquq təminatı etibarsızdır. Deməli, necə deyərlər, xoruzun quyruğu göründü. Məlum oldu ki, dünyanın ənənəvi anti-Azərbaycan stereotipləri Azərbaycan–Ermənistan münasibətləri və sülh gündəliyi zəminində də dövriyyəyə soxulur. Daha doğrusu, soxuşdurulur.

Bəyanatda bildirilir ki, guya Azərbaycan İnsan Azadlığı İndeksində çox aşağı yer tutur. Belə indekslərin, reytinqlərin hansı "parametrlər" üzrə müəyyənləşdiyi heç kəsə sirr deyil. Qeyd edək ki, bu günlərdə Beynəlxalq Əmək Təşkilatı, "Walk Free" Fondu və Beynəlxalq Miqrasiya təşkilatı da birgə "Qlobal köləlik indeksi" adlı hesabat hazırlayaraq, Ermənistanı Azərbaycandan daha azad ölkə kimi göstərmişdi ki, heç şübhəsiz, belə bir rəyə gəlinməsi ölkəmizə qarşı qərəzin növbəti nümunəsidir. İndi hollandların da fikrincə, Ermənistan tam hüquqlu demokratik ölkədir və Aİ ilə tərəfdaşlıq edir. Ancaq: "Baxmayaraq ki, Azərbaycanın xüsusən enerji sektorunda qurumla iqtisadi əlaqələri var, bu, onu etibarlı tərəfdaşa çevirmir".

Əlbəttə, hollandiyalı sabiq parlamentarilərin Azərbaycanın Aİ üçün nə qədər ciddi önəm daşıdığını bilməmələri mümkündür. Onların çoxu pensionerdir, müəyyən hissəsi geydir, başları qarışıb sevgililərinə. Bəlkə də belə sarsaq bəyanatın mətnindən xəbərləri heç yoxdur. Erməni lobbisi hansı sənədi qondarıbsa, nəyinsə müqabilində gəlib altına imza atıb gediblər. Əsil məsələ bəyanatdakı ənənəvi "stereotiplərdir". O stereotiplər ki, onları Ermənistanın baş naziri Nikol Paşinyan mütəmadi şəkildə gündəmə gətirir.

Nikol, xüsusən, xaricdəki çıxışlarında ölkəsini Cənubi Qafqazda demokratiya qalası kimi təqdim edir və Azərbaycanla münasibətlər kontekstində ortaya qoyduğu destrutiv mövqenin demokratiyanın müdafiəsinin vacibliyi kimi pərdələməyə çalışır. Yeri gəlmişkən, vurğulayaq ki, Paşinyan vaxtilə "Qarabağ Ermənistandır nöqtə" bəyanatı verəndə də, "yeni ərazilər uğrunda yeni müharibə" ideyasını uyduranda da elə düşünmüşdü ki, beynəlxalq ictimaiyyəti bu sayaq avantüraları Ermənistan demokratiyasını dəstəkləmək məntiqi ilə müdafiə edəcəkdir. Onun başlatdığı 44 günlük müharibə isə "demokratiya qladiatorunun" ağır və rüsvayçı məğlubiyyəti ilə sona çatdı.

***

Belə nəticəyə gəlirik ki, belə demək mümkünsə, "hollandski pendir", eyni zamanda, Ermənistandakı "donuz fermasında" istehsal olunur. Axı, ölkə hakimiyyətinin xaricdəki erməni lobbi və diaspor təşkilatları ilə əlbirliyi, kifayət qədər ehkamçı mahiyyət daşımaqdadır. İkincilərin birincini təhqir səviyyəsinə çatacaq dərəcədə tənqid etməsi reallığı olsa da, ümumi ambisiyalar onlara gey və pensioner EKSlərin Hollandiya hökumətinə anti-Azərbaycan çağırışı ünvanlatdırmalarına maneçilik törətmir.

Sonda qeyd edək ki, hollandiyalı keçmiş deputatlar yerli hökumətin Qarabağa BMT-nin və ya ATƏT-in müşahidəçi missiyasını, yaxud beynəlxalq sülhməramlı missiyanı göndərmək istiqamətində təşəbbüs göstərməli olduğunu vurğulayarkən, bunun üçün rəsmi Bakıya təzyiqi də vacib sayırlar. "O zaman bəlli olacaq ki, Əliyev sülh istəyir, yoxsa yalnız müharibə məqsədi güdür" kimi yaramaz fikirlərin əksini tapdığı bəyanatda Azərbaycanın sülh istəyinin şübhələndirilməsi isə onu göstərir ki, dünya erməniliyi Ermənistan hakimiyyəti ilə birləşərək, Cənubi Qafqazda normal mühitin formalaşmasına əngəl yaratmaq niyyəti güdür. Bu məqam birincinin və ikincinin Rusiyadakı anti-Azərbaycançı avantürist siyasi kəsimlə müəyyən ortaq nöqtəsi sayıla bilər. Nəzərə alaq ki, tərəflərin heç biri ölkəmizin Qarabağda tam yurisdiksiyasının bərpa olunmasını arzulamır və mövcud istiqamətdə müxtəlif qeyri-real və qəbuledilməz məsələləri gündəmə gətirməklə, necə deyərlər, Bakının əsəbini tarıma, səbr kasasını sınağa çəkirlər. Ancaq unudurlar ki, səbr və təmkin bir yerə qədərdir. "Dəmir yumruq" hər zaman yerindədir. Moşunun təbirincə dedikdə isə, üstümüzə İrasimin gəlməsindən qorxmuruq.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Dehlinin axına qarşı üzməsinin səbəbləri

## Deyəsən, Hindistan dünya güclərinin sırasına Qafqazdan keçməklə qoşulmaq istəyir

**Xeyirin Şərə qalib gəldiyi hind filmlərinə baxdığımız, qutusu fil şəkilli, dadlı və keyfiyyətli Seylon çayından içdiyimiz dövr SSRİ-nin süqutu ilə eyni vaxtda başa çatdı. Ardınca dünyada yeni münasibətlər sisteminin gətirdiyi fərqli düzən və qlobal güclərin mövqe və maraqlarında korrektələr mərhələsi başladı. Postsovet məkanı geosiyasi və hərbi-iqtisadi baxımdan ən cəlbedici coğrafiyaya çevrildi. Qarabağ münaqişəsi sözügedən yeni mərhələnin əsas start nöqtəsi oldu, – desək, yəqin səhvə yol vermiş olmarıq. Beləliklə, keçmiş “böyük güclərin” SSRİ məkanına axınına şahidlik etdik. Sovet xalqı üçün ədalət və keyfiyyət kateqoriyalarının sinonimi sayılan Hindistan uzun müddət bu marafondan kənarda qaldı. Fəqət son iki-üç ildə Dehli də Cənubi Qafqaza, belə demək mümkünsə, qayıtmağa çalışır.**



Qətiyyətlə söyləyə bilərik ki, bu qayıdış kino, incəsənət, mədəniyyət niyyəti daşımır. Yəni düşüncələrimizdəki təsəvvürlərdən uzaqdır.

Hindistanın Cənubi Qafqazda özünə tərəfdaş olaraq kimləri seçdikləri də məlumdur: Rusiya və Fransa. Bölgəmizdə aparıcı “oyunçular” sayılan bu iki dövlətlə əməkdaşlığı şübhə doğurmayan rəsmi Dehli üçün Ermənistanın sadəcə vasitə olduğunu söyləmək mümkündür. Özünün hərbi-sənaye kompleksini inkişaf etdirməyi hədəfləyən Hindistan İrəvanı silahını satdığı yeni bazar kimi görür. İlk baxışda elə görünə bilər ki, ölkənin Cənubi Qafqaz siyasətinin mərkəzində Ermənistanla hərbi-texniki əməkdaşlığı dayanır. Düzdür, bu müstəvidə Dehli və İrəvan arasında əlaqələr xüsusilə 44 günlük müharibədən sonra yüksələn xətt üzrə inkişaf etməkdədir. Amma bu, aysberqin yalnız görünən tərəfidir.

### Boşluqdan yararlanmaq cəhdi

Məhz 44 günlük müharibə, Rusiyanın Ukraynada başladığı xüsusi hərbi əməliyyatlar Cənubi Qafqazda müəyyən mənada potensial “güc boşluğunun” əmələ gəlməsi Hindistana da fürsətlər yaratmış oldu. Qlobal oyunçuların arasında yer almayan, orta çaplı aktor sayılan bu ölkənin fürsəti dəyərləndirməsi həm siyasi marafonda geosiyasi rəqibləri ilə ayaqlaşmaq, həm də gəlirli layihələrdə iştirak etmək baxımından vacibdir. Bəli, Dehlinin bölgədə strateji maraqları var.

Zəfərimizlə başa çatmış müharibədə, ümumiyyətlə, Qarabağ münaqişəsində Türkiyə və Pakistanın daim Azərbaycana dəstək verməsi, Ermənistanın nəhəng logistika və infrastruktur layihələrindən kənarda qalması kimi faktlar Hindistanı Cənubi Qafqazda siyasi, iqtisadi və hərbi rolunu gücləndirməyə sövq edirdi. Ermənistanla münasibətləri inkişaf etdirmək bunun üçün lazımdır. Bu iki ölkə arasında hərbi-texniki əməkdaşlıq hələ 44 günlük müharibədən əvvəl, 2020-ci ildə 4 ədəd “Svati” radar sisteminin İrəvana satışı ilə bağlı sazişlə başlayıb. Ardınca rəsmilərin görüşləri intensivləşdi, 2021-ci ildə Hindistanın Xarici İşlər naziri Subrahmanyam Cayşankar Ermənistana səfər etdi, ölkələrarası diplomatik təmaslar yeni mərhələyə qədəm qoydu. 2022-ci ildə isə İrəvan və Dehli arasında 250 milyon dollarlıq silah müqaviləsi imzalandı. Həmin müqavilə Hindistan tərəfindən istehsal edilən “Pinaka” reaktiv yaylım atəş sistemi, tank əleyhinə raketlər və müxtəlif tipli kiçik ölçülü sursatların Ermənistana satılmasını nəzərdə tutur. Bundan sonra isə qarşılıqlı hərbi-texniki tərəfdaşlığın daha da dərinləşdirilməsi, Ermənistan ordusunun arsenalının modernləşdirilməsi, hərbçilərin təlimi prosesində Hindistanın daha aktiv işitrak edəcəyi planlaşdırılır. Yəni, Dehli üçün İrəvanla yaxın təmaslara bölgədə yaranan və yaranacaq transmilli layihələrə qoşulmaq üçün tramplin rolunu oynadığı aşkar sezilir. Ondan ötrü Ermənistanla silah ticarətinin özü də deyilən məqsədə çatmağın bir yoludur. Amma Hindistan rəhbərliyinin dediyimiz strateji məqsədinə çatmaq üçün seçdiyi yol nə dərəcədə məqbul sayıla bilər? Dehli nəyə görə Fransanın Ermənistanı silahlanmdırmaq səylərində tərəfdaşa çevrilib? Axı niyə bu xarakterli əməkdaşlıq Bakı və İrəvan arasında sülhə və qarşılıqlı normal münasibətlərə nail olmaq üçün dialoqun intensivləşdirməsi ilə paralel aparılır? Burada hansısa diplomatik ziddiyyət nəzərə çarpmırmı? Parisi başa düşdük, bəs Dehlinin hərəkətlərini nə ilə izah etmək olar?

Bu suallara Caliber.Az saytına müsahibəsində ukraynalı hərbi ekspert, “İnformasiya müqaviməti” qrupunun koordinatoru Konstantin Maşoves aydınlıq gətirməyə çalışır. Onun fikrincə, hazırda Dehlinin Cənubi Qafqazda iki marağı var – kommersiya və hərbi-siyasi. Bu prizmadan yanaşanda Hindistanın diplomatik məntiqini anlamağın mümkünlüyünü deyən ekspert belə siyasi taktikanı uzaq perspektiv üçün xarisi siyasətdə buraxılan ciddi səhv hesab edir: “Bölgədə özünün geosiyasi rolunu artıqmaqdan ötrü orada təmsil olunan bütün güclərin arasından yalnız birini seçmək doğru deyil. Planetin hər hansı potensial münaqişə regionunda maraqlı tərəflərin hamısına hərbi-texniki yardım göstərən üçüncü tərəfin səviyyə və dərəcəsinə diqqət yetirin. Məgər o, seçmə üsulu ilə tərəflərdən yalnız birinə kömək edə bilərmi? Bu, beynəlxalq diplomatiya ilə bir araya sığmayan məsələdir”.

Ölkəsində erməni diasporun rolunu nəzərə alan Parisin Cənubi Qafqazda seçimini başa düşmək olar. Onun hətta kollektiv Qərbdəki həmkarlarının iradəsinə zidd çıxış etməsi də təəccüblü deyil. Bu konteksdə yanaşanda Dehlinin də bölgə siyasətində strateji müttəfiqi Moskva qarşısında müəyyən öhdəlik götürdüyünü ehtimal etmək mümkündür. Bəli, Rusiya Hindistanın Cənubi Qafqazda güclənməsindən narahat olmayacaq.

*Ekspert rəyi*



**Yeganə HACIYEVA, politoloq**

– Hindistan yeni ictimai-siyasi düzəndə, qlobal informasiya cəbhəsində mövqelərini xeyli gücləndirib. Siyasi, iqtisad, mədəni proseslərdə artıq Hindistan elementi var. Düzdür, onun beynəlxalq miqyasda, siyasi arenada böyük uğurlar qazanması mümkün deyil. Ona görə ki, birinci növbədə, Hindistandakı mövcud idarəetmə üsulu müasir tələblərə cavab vermir. Sadəcə texnoloji menecmentlik nöqteyi-nəzərdən hindlilər dünyanın aparıcı şirkətlərində, sosial şəbəkəyə bağlı xidmətlərdə önəmli rola malikdirlər. Amma bütün bunlara baxmayaraq, Dehlinin böyük siyasi səhnədə söz sahibi olmaq şansı yoxdur.

Əslində Hindistan hazırda nüfuz etməyə çalışdığı Cənubi Qafqazın hər üç ölkəsindən az inkişaf etmiş bir dövlətdir. Əgər XXI əsrdə insanın küçədə ölüb qalması normal qəbul olunursa, bu cəmiyyətdə hansı həyat səviyyəsindən danışa bilərik? Orta ömür yaşı 40-45 arasındadırsa, ölkə əhalisinin cəmi 15 faizi ali təhsil alıbsa, ümumiyyətlə, təhsilə yiyələnənlərin əhalinin ümumi sayına nisbəti 20 faizdirsə, onun qlobal gücə çevrilməsindən danışmaq çox tezdir.

Çinlə Amerika arasındakı qlobal konfrantasiyadan heç nə qazanmayacağını anlayan Dehli bölgədə özünün ənənəvi, milli və tarixi bənzəri olan Ermənistanı seçib. Əsas məqsəd isə transmilli nəqliyyat dəhlizlərindən istifadə etməkdir.

### Əməkdaşlıq zəncirinin İran halqası

Bəli, yuxarıda deyilənləri nəzərə aldıqda Dehlinin yaxın gələcəkdə Cənubi Qafqazda daha aktiv rol oynamağa baş vuracağını ehtimal etmək mümkündür. Hindistan Türkiyə–Pakistan münasibətlərdən, xüsusən də iki ölkənin Qarabağ məsələsində olduğu kimi, Kəşmir düyünündə də bir mövqedən çıxış etməsindən narahatdır. İndi o, Ermənistanı siyasi, iqtisadi, hərbi cəhətdən dəstəkləyən Rusiya və Fransaya Qafqaz üzərindən yeni körpülər salmağa çalışır. Hindistan mediasının Azərbaycan–Ermənistan münaqişəsinə yanaşması rəsmi dairələrin ölkəmizə qarşı mənfi münasibətinin göstəricisidir. Buna misal olaraq nüfuzlu “Economic Times” jurnalında ekspert Pranab Dal Samantanın qələmə aldığı məqaləni göstərmək olar. Müəllif Rusiyanın zəifləməsindən istifadə edən Türkiyə–Azərbaycan–Pakistan alyansı tərəfindən Ermənistanın sıxışdırılmasının Hindistan üçün qəbuledilməz olduğunu və bu “üçlüyün” qarşısı alınmazsa, onun cənuba irəliləyərək Kəşmir məsələsində Dehliyə qarşı birləşəcəyini yazır.

Hindistan–Ermənistan münasibətlər zəncirində İran halqasının əhəmiyyətli rol oynadığını da unutmaq olmaz. Fakt ondan ibarətdir ki, Tehran Dehli və İrəvan arasında coğrafi bağlılığı təmin edir və bu iki ölkənin ticarət yolları da məhz İran ərazisindən keçir. Ermənistan və Hindistanla yaxın əlaqələrə malik İranın hakim dairələrinin, o cümlədən, təhlükəsizlik orqanlarının bu prosesdə hansısa formada iştirakını təxmin etmək elə də çətin deyil. İntəhası, Türkiyə–Azərbaycan–Pakistan sarsılmaz alyansı qarşısında Ermənistan–İran–Hindistan ittifaqının formalaşması ehtimalını nəzərdən qaçırmamalıyıq. Hər halda, rəsmi Bakı bu kimi məqamları nəzərə alır və zəruri tədbirlər görür.

***İmran BƏDİRXANLI, “Xalq qəzeti”***

# Ermənilərin Qarabağdan axını, saxta sorğular və “blef” imzatoplama kampaniyası

## *“Gallup International Association” siyasi sifarişlər üzrə “ixtisaslaşmış” qurumdur*

**Vaşinqtonda yerləşən “Gallup İnternational Association” Amerika analitik və məsləhət şirkəti bu yaxınlarda (mayın 27-dən 31-dək) Ermənistanda sosioloji sorğu keçirib. İyunun 9-da nəticələri açıqlanmış sorğu nəticəsində müəyyənləşdirilib ki, Ermənistan vətəndaşlarının, təxminən, 82 faizi baş nazir Nikol Paşinyanın Qarabağın Azərbaycanın tərkib hissəsi kimi tanınması ilə bağlı bəyanatını mənfi qiymətləndirir. 86 faizi isə Qarabağdakı ermənilərinin gələcəyini Azərbaycan daxilində təsəvvür etmir.**

Təşkilatın Ermənistan nümayəndəliyinin rəhbəri Aram Navasardyan keçirdiyi mətbuat konfransı zamanı bildirib ki, sorğuda iştirak edənlərin yalnız 3,8 faizi Paşinyanın sözügedən bəyanatını tam müsbət qiymətləndirib. Respondentlərin 5,4 faizi bu bəyanatı kifayət qədər müsbət, 18,5 faizi kifayət qədər mənfi qiymətləndirib, 8,9 faizi cavab verməkdə çətinlik çəkib. Rəyi soruşulanların 63,4 faizi bəyanatın qəti əleyhinə çıxıb. A.Navasardyan qeyd edib ki, sorğu telefon vasitəsilə 1100 vətəndaş arasında keçirilib.

### Aşotyan: Ermənistanda dərin böhran mövcuddur

Rəy sorğusunun nəticələri Hayastanda qızğın müzakirələrə yol açıb. Müxalifət ondan Paşinyan əleyhinə istifadə etməyə başlayıb. Qarabağ klanına bağlı olan Respublika Partiyasının sədr müavini Armen Aşotyan öz “Telegram” kanalında sorğunun nəticələrinə münasibət bildirib. O qeyd edib ki, nəticələr laboratoriya diaqnozu kimi, Ermənistanda müxtəlif sahələrdə, xüsusən də siyasi sahədə dərin böhranın mövcudluğunu bir daha sübut edir: “Ermənistan əhalisinin təxminən 82 faizinin Nikol Paşinyanın Qarabağın Azərbaycan ərazisi kimi tanınması ilə bağlı bəyanatını rədd etməsi dövlətin təbliğat maşınının böyük səylərinə baxmayaraq, Nikolun qeyri-legitimliyinin növbəti sübutudur. Respondentlərin 86 faizi “Artsax” ermənilərinin Azərbaycan daxilində gələcəyini təsəvvür etmir, bu da erməni xalqının problemin həllinin Paşinyan variantını rədd etdiyinə sübutdur”.

Qeyd edək ki, sorğu, həmçinin Avropa İttifaqının (Aİ) mülki müşahidə missiyasından gözləntilərin kəskin şəkildə aşağı düşdüyünü göstərib. Əgər yanvar ayında respondentlərin 68 faizdən çoxunun missiyadan müsbət gözləntiləri olmuşdusa, ötən 4 ayda bu baxışı bölüşənlərin sayı 44 faizə qədər azalıb. Aşotyan bununla bağlı deyib ki, belə kəskin azalma Aİ missiyasının effektivliyinə dair sübutların olmaması, yüksək vəzifəli məmurların açıqlamalarında və qiymətləndirmələrində görünən açıq-aşkar siyasiləşmə və Ermənistanın təhlükəsizliyinin təmin edilməsində effektiv nəticələrin yoxluğu ilə bağlıdır.

Respondentlərin təxminən 90 faizi hesab edir ki, hakimiyyət Türkiyənin təzyiqinə (?) məhəl qoymamalı, eyni zamanda “Nemeziada” əməliyyatının iştirakçılarının abidəsinə hörmətlə yanaşmalıdır: “Nikol Paşinyanın bu abidəni mənfi qiymətləndirməsinə baxmayaraq, sorğuda belə bir nəticə əldə olunub”.

Sorğu həmçinin sübut edir ki, Ermənistan cəmiyyəti 2018-ci il “inqilabından” dərin məyusdur. Əgər həmin ildə respondentlərin 91 faizi “inqilabda” iştirakçı olduğunu bəyan etmişdisə, indi bunu dilə gətirənlərin sayı 34,7 faizə qədər azalıb.

“Məxməri inqilab” insanların ümidlərini nə dərəcədə doğrultdu?” sualına cavab olaraq 2018-ci ilin sentyabrında respondentlərin 78 faizi artıq gözləntilərin doğrulduğuna inanırdısa, indi yalnız 25 faz “gözləntilər doğruldu” ifadəsini işlədib.

Sorğu N.Paşinyanın iş tərzinin qiymətləndirilməsi ilə yekunlaşır. Əgər 2018-ci ilin sentyabrında respondentlərin 91,5 faizdən çoxu Paşinyan haqqında müsbət fikir bildiribsə, hazırda bu rəqəm 18,8-dir.

### Sülh əleyhinə imzatoplama

Bu arada iyunun 9-dan etibarən Ermənistanda Qarabağla bağlı referendum keçirilməsi tələbi ilə ictimai təşəbbüs irəli sürülüb və artıq imzatoplama başlayıb. “Azad Artsax – referendum” qanunvericilik təşəbbüsünün üzvləri Ermənistan Respublikası adından Qarabağın “öz müqəddəratını təyinetmə hüququ”ndan imtinaya cəhd edən istənilən hökumətin Ermənistanın konstitusiya quruluşuna qarşı çıxdığını vurğulayıblar. Təşəbbüsün müəllifləri Qarabağdan imtinanın kriminallaşdırılması prosesini başlatdıqlarını və vətəndaşların dəstəyinə ehtiyac duyduqlarını bildiriblər. Başqa sözlə desək, “Hayakve” qanunvericilik təşəbbüsü Ermənistan Respublikası adından Qarabağın başqa dövlətin bir hissəsi kimi tanınmasına (?) yönəlmiş istənilən hərəkəti cinayət saymağı təklif edir.



“Hayakve” sadəcə imza toplanması deyil, Ermənistan konstitusiyasına görə xalq öz hakimiyyətini referendum yolu ilə həyata keçirmək hüququna malikdir”. Bunu konstitusiya hüququ üzrə mütəxəssis Aram Orbelyan iyunun 11-də vətəndaşlarla görüşü zamanı qanunvericilik təşəbbüsünün təfərrüatlarını təqdim edərkən bildirib. O qeyd edib ki, Ermənistan konstitusiyasında səsvermə hüququna malik ən azı əlli min vətəndaşın vətəndaş təşəbbüsü kimi parlamentə qanun layihəsi təklif etmək hüququ təsbit olunub.

“Söhbət qanunvericilik prosesinin öhdəlik hissəsi kimi vətəndaş təşəbbüsündən gedir. Yəni, 50 min imza toplanması təsdiqlənən kimi o, rəsmi qanun layihəsinə çevriləcək”, – deyən Aram Orbelyan əlavə edib ki, Ermənistan vətəndaşları Hayastan tarixində ilk dəfə qanun layihəsinin müəllifi olacaqlar.

“Prosesdə bütün arzu edənlər iştirak edə bilər: biz heç kimə deyə bilmərik ki, bu təşəbbüsü dəstəkləməyin və ya bu barədə danışmayın. Vətəndaş təşəbbüsü olmaqla, o, tamamilə əhatəlidir və hər hansı bir qrupa aid olmaqla məhdudlaşmır. Bu, Ermənistan vətəndaşlarının hakimiyyətini həyata keçirmək üçün bir vasitədir”, – Aram Orbelyan bildirib.

Qeyd olunub ki, təşəbbüs qrupu Mərkəzi Seçki Komissiyasına müraciət etdikdən sonrakı 10 gün ərzində prosesə start verilir. Qanunda imzaların yerində və ya elektron formada qoyulması müəyyən edilib.

### Təşəbbüsün uğursuz olacağını özləri də dərk edirlər

“Azad Artsax – referendum” qanunvericilik təşəbbüsünün üzvləri dünən MSK-ya imzalanmış və notarial qaydada təsdiq edilmiş sənədlər paketini təqdim ediblər. “Mərkəzi Seçki Komissiyası 10 gün ərzində müsbət cavab versə, təxminən 10 gün sonra imzaların toplanmasına başlanacaq”, – deyə təşəbbüs qrupunun üzvü Avetik Çələbyan jurnalistlərə müsahibəsində bildirib.

“Bu proses Ermənistanın hazırkı hakimiyyətinin apardığı danışıqların məntiqini dəyişə bilərmi?” sualına Çələbyan belə cavab verib: “Düşünmürük ki, hər hansı əlahiddə hərəkət tariximizin gedişatını dəyişdirə bilər. Əminik ki, həm hərbi, siyasi sahədə, həm də vətəndaş itaətsizliyi sferasında kompleks tədbirlərə ehtiyac var. Bütün bunlara birlikdə baxılmalıdır. Bu gün MSK-ya bəyanat təqdim edərək, biz heç bir halda inanmırıq ki, bu, erməni xalqının “Artsax”ın düşmənə təslim olmasının qarşısını ala biləcəyi yeganə hərəkətidir. Amma bu, əsas tədbirlərdən biridir”.

O qeyd edib ki, bu, Ermənistanda heç vaxt istifadə olunmayan birbaşa demokratiya nümunəsidir. “Biz əhalimizə, hakimiyyətə və onların xarici sponsorlarına sübut etmək istəyirik ki, Ermənistan xalqı mövcud siyasəti dəstəkləmir”, – Çələbyan bildirib.

Göründüyü kimi, Qarabağın erməni azlığın yaşadığı hissəsində Azərbaycanın dövlət suverenliyinin tam bərqərar olmasının qarşısını almaq üçün Ermənistanda müxtəlif oyunlardan çıxırlar. Ancaq onların istəkləri elə oyun olaraq da qalacaq. Xüsusilə aprelin 23-də Laçında sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasından sonra proseslər elə inkişaf mərhələsinə gəlib çatıb ki, artıq onun istiqamətini dəyişdirmək mümkün deyil. Bu istiqaməti dəyişmək tarixin axarını dəyişdirmək demək olardı. Ermənistanda Qarabağın öz əzəli, hüquqi sahibinə qayıtmasını qəbul etməli və revanşist iddialardan əl çəkərək 29,8 min kvadrat kilometrdə rahat yaşaya bilmək haqqında düşünməlidirlər.

*Ekspert rəyi*



**İlyas HÜSEYNOV, politoloq**

– Ermənistanda vətəndaş təşəbbüsü ilə bağlı çıxışlar və guya demokratiyanın olmasına dair proseslər 2018-ci ildən sonra daim müşahidə edilir. Son vaxtlar sülh müqaviləsinə əks qüvvələrin fəaliyyətini görürük. Ermənistanla Azərbaycan sazişin imzalanmasının astanasında olsalar da, sülhə təhdidlər nəzərə çarpır. Müxtəlif mərkəzlər revanşizmi gücləndirmək, silah tədarükü həyata keçirmək yolu ilə siyasi xallar toplayırlar.

“Hayakve” təşəbbüsü ilə bağlı prosedurların özü göstərir ki, sülhə qarşı kənardan müdaxilələr var. Ancaq bu təşəbbüslərin uğur qazanacağını düşünmürəm. Çünki Ermənistan ötən 30 il ərzində qondarma rejimi tanımadı. Yalnız bir subyekt kimi danışıqlar prosesində iştirakına nail olmağa çalışırdı. Bütün bu xəyallar puç oldu getdi. Miflərə inanırlar, amma indi status, müstəqillik haqda fikirlər də yersizdir.

Burada Rusiya faktoru önəmlidir. Sanki bu gün separatçıların və Ermənistanın yox, Rusiyanın vəziyyətə nəzarət etməsi ilə bağlı İrəvanda təəssüratlar güclənməkdədir. Ancaq bu fondakı təşəbbüslər uğursuzluğa məhkumdur. Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Zəfəri regionda yeni reallıqlar yaradıb. Hayların hansısa təşəbbüsü onu dəyişmək gücünə malik deyil.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***



# Heydər Əliyev – Süleyman Dəmirəl dostluğunun Naxçıvan dövrü

**Ümummilli lider Heydər Əliyevin 1990-cı il iyulun 22-də Moskvdan Vətənə dönüşündən sonra doğulub-böyüdüyü Naxçıvana qayıdışı ilə blokada və işğal təhlükəsi altında yaşayan muxtar respublikada yeni bir siyasi dövr başladı. Ulu öndərin xalq hərəkatına rəhbərlik edərək gerçəkləşdirdiyi zəruri tədbirlər bu qədim diyara nicat gətirdi. Naxçıvanlılar dünya şöhrətli siyasətçi və dövlət xadiminin dərin zəka, zəngin təcrübə və yurd sevgisinin timsalında misilsiz xilaskarlarını tapdılar.**

Ümumiyyətlə böyük siyasət ustası Heydər Əliyevin həyat və mübarizəsində 1990–1993-cü illərdə Naxçıvanda yaşaması və fəaliyyət göstərməsi seçilən bir yer tutur. Çağdaş tarixçilər bu üçillik dövrü qısaca belə səciyyələndirirlər: Ulu öndərin Naxçıvana rəhbərliyi dövründə gerçəkləşdirdiyi qətiyyətli siyasət bu qədim diyarı erməni işğalından xilas etdi, əhalini ehtiyac və fəlakətdən qurtardı. Elə buna görə də Heydər Əliyev haqqında yazılan çoxsaylı məqalə və kitablarda, tədqiqat işlərində bu dövr yeni tariximizdə həlledici bir mərhələ kimi təqdim olunur.

Ulu öndər Heydər Əliyevin Naxçıvan dövrü siyasi fəaliyyətində Azərbaycanın müstəqilliyini hərtərəfli dəstəkləyən qardaş Türkiyə Cümhuriyyəti və müxtəlif səbəblərdən ölkəmizlə münasibətləri gərginləşmiş qonşu İran İslam Respublikasının xalq diplomatiyası çevrəsində muxtar respublikaya dəstəyinə nail olunması önəmli bir istiqamət olmuşdu. Dünya şöhrətli siyasətçinin doğulduğu torpağa gəlişi ilə əvvəlki illərdə hər hansı bir xarici liderin, diplomatın və mətbuat nümayəndəsinin yolunu-səmtini belə tanımadığı Naxçıvan artıq dünya informasiya məkanında diqqətçəkən ünvanlardan biri olmuşdu.

Blokada şəraitində yaşayan Naxçıvanı problemlər məngənəsindən xilas etmək, muxtar respublikanın həyati tələbatlarını ödəmək, hər şeydən əvvəl, nəqliyyat və kommunikasiya sisteminin qurulmasından asılı idi. Bu məsələ, birmənalı olaraq, qonşu Türkiyə və İran ilə işgüzar münasibətlər yaradılmasını tələb edirdi. Digər tərəfdən, istər kommunist, istərsə də cəbhə hakimiyyəti dönəmində Azərbaycan iqtidarı muxtar respublikaya kömək etmək əvəzinə, yerli rəhbərliyə təzyiq göstərməyə çalışır, onun konstitusiya hüquqlarını pozan tədbirlərə əl atırdılar.

Muxtar respublikaya rəhbərlik etdiyi 1 il 9 ay ərzində Heydər Əliyevin qonşularla əsasını qoyduğu xarici əlaqələr bölgəni fəlakətdən xilas edən amillərdən oldu. 1991-ci il sentyabrın 3-də ulu öndərin Naxçıvan Ali Məclisinin Sədri seçilməsi qonşularla, o cümlədən, Türkiyə ilə əlaqələrin qurulmasına meydan açdı. Naxçıvanla Türkiyə arasında həmin ilin oktyabrında müvəqqəti körpü salındı və bu, qardaş ölkə ilə əlaqələrin genişlənməsində önəmli rol oynadı.

Müvəqqəti körpü istifadəyə verildikdən sonra Türkiyə hökumət nümayəndələrinin, iş adamlarının, qonşu vilayətlərin nümayəndələrinin Naxçıvana səfərlərinin sayı çoxalmış, muxtar respublikaya edilən ərzaq və digər yardımların həcmində artımlar olmuşdu. 1991-ci ilin 9 noyabrında Türkiyə “Qızıl Ay”ının xətti ilə Naxçıvana bu körpü vasitəsi ilə 126 ton ərzaq gətirilmişdi. Noyabrın sonunda İqdır şəhərinin əhalisinin və valiliyinin təşkil etdiyi 19 yük maşınından ibarət humanitar yardım muxtar respublikaya bu körpü vasitəsi ilə çatdırılmışdı. Təbii ki, tam blokadaya alınmış Naxçıvanın iqtisadi həyatında bunların nə qədər ciddi bir önəm daşıdığını görməmək mümkün deyil.

Naxçıvan–Türkiyə əlaqələrinin inkişafında digər təkanverici amil Heydər Əliyevin Türkiyənin o dövrkü baş naziri Süleyman Dəmirəl ilə çox sıx əlaqələrinin və dostluq münasibətlərinin olmasındadır. O dövrdə Türkiyə ilə münasibətlərdən danışanda ilk olaraq Heydər Əliyevin Naxçıvanda Türkiyə lideri Süleyman Dəmirəllə yaratdığı sıx əlaqə yada düşür. Türkiyənin doqquzuncu Prezidenti Süleyman Dəmrəlin blokada şəraitində yaşayan Naxçıvana göstərdiyi diqqət Azərbaycan–Türkiyə münasibətlərinin önəmli səhifələrindəndir.

“Naxçıvan türk-islam dünyasına bir qapıdır” söyləyən Naxçıvan Ali Məclisinin o zamankı Sədri Heydər Əliyevin Türkiyə Respublikasına ilk rəsmi səfəri 1992-ci ilin martında həyata keçirilmişdir. Onda Heydər Əliyevin qardaş ölkəyə işgüzar səfəri çərçivəsində Türkiyə Prezidenti Turqut Özal, baş nazir Süleyman Dəmirəllə keçirilən görüşlərin böyük siyasi əhəmiyyəti var idi. Görüşlərdə unudulmaqda olan Qars müqaviləsini yenidən gündəmə gətirilmiş, müzakirə edilən əsas məsələ Ermənistanın Azərbaycana təcavüzü və Naxçıvanın düşdüyü ağır vəziyyət olmuşdu.

Nəticədə, Türkiyənin Baş naziri ilə Naxçıvan Ali Məclisinin Sədri arasında birgə protokol imzalanaraq, bütün sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi nəzərdə tutulmuşdu. Bu sənəddə muxtar respublikaya maliyyə, iqtisadi, texniki dəstək verilməsi, Naxçıvana zəruri ehtiyaclarının ödənilməsi üçün 100 milyon ABŞ dolları həcmində kreditin ayrılması, tərəflər arasında enerji layihələrinin qurulması, nəqliyyat strukturunun yaradılması nəzərdə tutulmuşdu. Eyni zamanda, bank işi, turizm və informasiya mübadiləsi sahəsində əməkdaşlığın qurulması, 100 nəfər tələbənin Türkiyəyə təhsil almağa göndərilməsi də protokolda əksini tapmışdı.

Ulu öndərin Naxçıvan üçün gördüyü böyük işlərdən danışan Süleyman Dəmirəl demişdi: “Biz görürük ki, Naxçıvanda sabitlik var. Hörmətli Heydər Əliyev bu sabitliyi yaradandır, onun sahibidir. Naxçıvan bu sabitliyə görə ona borcludur. Naxçıvan xalqı hörmətli Heydər Əliyevi baş tacı etmişdir. Şəxsən mən bunu təqdirəlayiq böyük bir iş kimi qiymətləndirirəm”.

Azərbaycanın, o cümlədən Naxçıvanın ağır günündə Türkiyənin dəstəyini yüksək qiymətləndirən Heydər Əliyev ağır blokada şəraitində olan muxtar respublikanın xilası məsələsində Türkiyə ilə əlaqələrin genişləndirilməsinə xüsusi önəm verirdi. Hətta Türkiyəyə səfərində bu əlaqələrin genişlənməsini daha böyük siyasi mənada dəyərləndirərək bildirmişdi: “Azərbaycan türk diyarıdır, azərbaycanlılar türklərdir. İndi 100 ildən sonra türklərin qalxması üçün, türklərin bir-birinə yaxınlaşması üçün, türklərin birləşməsi üçün böyük bir fürsət yaranıb. Bu fürsətdən hər bir türk respublikası yaxşı istifadə etməlidir”.

1992-ci ilin 28 mayında Türkiyə və Naxçıvan arasında Sədərək–Dilucu körpüsünün açılması muxtar respublikanın həyatında yeni böyük bir hadisə olmaqla yanaşı, iqtisadi blokadanın yarılmasında mühüm addım oldu. Hec də təsadüfi deyil ki, körpünün rəsmi açılış mərasimində Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəlin başçılığı ilə 150-dən artıq nazirlərdən, yüksək çinli məmurlardan və ziyalılardan ibarət nümayəndə heyəti iştirak etmişdi. Bu körpü iki qardaş xalqın uzun illər qovuşmaq arzusunu yerinə yetirdiyindən xalq arasında “Ümid körpüsü”, “Həsrət körpüsü” adlandırılmışdı.

Heydər Əliyev körpünün açılış mərasimində həm bir siyasətçi, həm də xalqın blokada şəraitində yaşanan illərdəki əzablı həyatına şahidlik edən bir insan kimi demişdi: “Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 ildir ki, bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu günü böyük həsrətlə gözləmişik. İndi isə bizim bu arzularımız, bizim bu diləklərimiz həyata keçibdir”.

Türk dünyasının coğrafi bütünlüyünü təmin edən körpü Süleyman Dəmirəl böyük uzaqgörənliklə belə qiymətləndirmişdi: “Bu körpü, sadəcə, Türkiyə ilə Azərbaycanı deyil, dünyanı, iki ayrı dünyanı, Avropayla Asiyanı, Avropayla Qafqazları bir-birinə bağlayacaqdır”. Muxtar respublikanın Ali Məclisi Rəyasət Heyətinin iclasında körpünün açılışı tarixi hadisə kimi dəyərləndirilmiş, Sədərək–Dilicu körpüsü Türkiyə Respublikası və Naxçıvan MR arasında rəsmi keçid qapısı elan edilmişdi. İndi Zəngəzur dəhlizinin gündəmə gəlməsi ilə bu hadisələrin nə qədər böyük bir tarixi əhəmiyyətinin olması yenidən təsdiqini tapır.

Bu gün də Türkiyə–Azərbaycan, Naxçıvan əlaqələrinin səviyyəsi, türk dünyasının birlik və bütövlük ideyalarının gerçəkləşdirilməsi istiqamətində görülən işlərdən danışanlar Sədərək–Dilucu körpüsünün əhəmiyyətinə xüsusi önəm verirlər. Çünki bu körpü Azərbaycan–Türkiyə əlaqələrinin hərtərəfli inkişafında olduqca mühüm hadisə olmuşdu. Bundan sonra da Türkiyə–Azərbaycan əlaqələrində, türk dünyasının birlik və həmrəyliyində Naxçıvanın xüsusi yerinin olması ən yeni tariximizin önəmli gerçəklərindəndir.

2008-ci ildə Türkiyə baş nazirinin, 2009-cu ildə isə Türkiyə Prezidentinin Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşündə iştirak etmək üçün Naxçıvana səfəri, 2010-cu ilin oktyabr ayında Azərbaycan–Türkiyə biznes forumunun Naxçıvanda keçirilməsi qardaş ölkənin Azərbaycanın bu qədim diyarına verdiyi önəmin ifadəsidir.

Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi dövrdə Türkiyə ilə əlaqələrin qurulmasında və inkişafında iki böyük şəxsiyyətin – Süleyman Dəmirəl və Heydər Əliyev münasibətlərinin dostluq və qardaşlıq səviyyəsində olması da mühüm rol oynamışdır. Uzun illərdir ki, Heydər Əliyevin çox şirin bir tərzdə dediyi “Dostum, qardaşım Süleyman Dəmirəl” müraciəti hər iki ölkədə adamların dilində əzbər olmaqla, həm də sevgi və güvənc duyğusu kimi səslənir. Heç şübhəsiz ki, 1992-ci ilin mayında Ermənistanın təcavüzü ilə əlaqədar ciddi narahatlıq hissləri keçirən Türkiyə rəhbərliyinin təcavüzün dayandırılmasına verdiyi dəstək həm də bu şəxsi münasibətlərdən də qaynaqlanırdı.

Yaxın keçmişimizin unudulmayan 1992-ci ilin may ayı Azərbaycanın, eləcə də Naxçıvanın müasir tarixinin ən mürəkkəb və gərgin dövrünü əhatə edirdi. Bakıda siyasi qüvvələr arasında hakimiyyət davası qızışdığından və siyasi oyunlarının qurbanı olan Qarabağın yenə də yaddan çıxarılması ermənilərin təcavüzkar hərbi fəallığını artırmış, ölkəmizə qarşı hücumlarını genişləndirmişdi. Şuşa və Laçının işğalından sonra Dağlıq Qarabağın işğalını başa çatdıran məkrli düşmən yaranmış şəraitdən istifadə edərək Naxçıvana qarşı hərbi təcavüzlərini xeyli gücləndirmişdi.

Ulu öndər Heydər Əliyevin gərgin siyasi, diplomatik səyləri nəticəsində onların məkrli planlarının qarşısı alınmışdı: mayın 18-də Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyev Ermənistanın Naxçıvana təcavüzünün dayandırılması üçün Türkiyədən kömək göstərilməsini xahiş etmişdi. Qardaş Türkiyə dövləti bu dəfə siyasi və hərbi mövqeyini birmənalı açıqlmışdı və elə həmin gecə Türkiyə hökuməti xüsusi bəyanatla çıxış etmiş, Qars müqaviləsinin şərtlərini əsas götürərək Naxçıvan muxtariyyətinin qarantı olmaq haqqında öhdəliyini bütün dünyaya elan etmişdi.

O günlərdə Naxçıvanın Sədərək rayonuna ermənilərin böyük qüvvə ilə hücumu ilə əlaqədar Türkiyə hökuməti xüsusi bəyanat vermiş, əks hücum edəcəyini bildirməklə, həm də 1921-ci il Qars müqaviləsinin şərtlərinə əsasən Naxçıvan MR-nın muxtariyyətinin qarantı olduğunu dünyaya bəyan etmişdi. Məhz bu tarixi bəyanatın dünyada yayılan əks-sədasının nəticəsi idi ki, dünyanın 57 dövləti Ermənistanın təcavüzkar hərəkətlərini pisləmişdi.

Göründüyü kimi, Azərbaycan–Türkiyə münasibətlərinin daha dərinə gedən kökləri xeyli dərəcədə Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü ilə bağlıdır. O dövrün mətbuat orqanlarını, eləcə də tarixi sənədləri vərəqlədikcə bir daha aydın olur ki, Heydər Əliyev və Süleyman Dəmirəl dostluğu xalqlarımızın yeni şəraitdə dostluq və birliyinin rəmzi olmuşdur. İki böyük siyasətçinin və iki böyük türkün yeni nəsillərə örnək olan bu dostluğu Naxçıvan–Türkiyə münasibətlərinin, eləcə də Azərbaycan–Türkiyə münasibətlərinin inkişafına ciddi təkan vermiş, eyni zamanda böyük türk dünyasının problemlərinin həllində xüsusi önəm daşımışdır.

**Namiq ƏHMƏDOV, “Xalq qəzeti”**

# Ulu öndərin 100 illik yubileyinə həsr olunmuş tədbir




**Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş toplantı keçirildi.**

Ulu öndərin həyat və fəaliyyətinə həsr edilmiş video-çarxın nümayişindən sonra YAP Nəsimi rayon təşkilatınn sədri Azər Süleymanov çıxış etdi. O dedi ki, müdrik şəxsiyyət Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə müstəqillik, azərbaycançılıq, demokratiya, milli tərəqqi və dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni ideologiyanın əsası qoyuldu. Ümummilli liderin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirliməsi nəticəsində bu gün Azərbaycan dünyanın inkişaf etmiş dövlətləri ilə bir sırada addımlayır.

Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov Qarabağ Zəfərinə aparan ordu quruculuğundan tutmuş Azərbaycanın sürətlə inkişaf edən ölkələr sırasına yüksəldən iqtisadi gücümüzən, Avropanın etibarlı enerji tərəfdaşına çevrilməsindən söhbət açaraq bütün bunların əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu bildirdi.

YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və uşaq Problemləri üzrə Dövlət

Komitəsinin sədri Bahar Muradova ulu öndərin 1993-cü ildə xalqın təkidi ilə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanın ictimai-siyasi həyatında yeni mərhələnin başlandığını diqqətə çatdırdı. Bildirdi ki, Heydər Əliyevin ideyaları bugünkü güclü, zəngin, inkişaf edən Azərbaycanın, eləcə də ölkəmizin dünyada layiqli yer tutmasının əsasını qoydu.

Sonda partiya sıralarına yeni daxil olmuş Vətən müharibəsi iştirakçılarına üzvlük vəsiqələri təqdim olundu.

**“Xalq qəzeti”**

# Şəhid övladları Heydər Əliyev Mərkəzində

**Heydər Əliyev Fondu ilə Çinin ölkəmizdəki səfirliyinin əməkdaşlığı çərçivəsində Xəzər rayonundan olan Vətən müharibəsi şəhidləri övladlarının Heydər Əliyev Mərkəzinə ziyarəti təşkil edilib.**




Tədbir çərçivəsində Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov və Çinin Azərbaycandakı səfiri Qo Min şəhid övladları ilə görüşüblər. Heydər Əliyev Fondu ilə səfirliyin hədiyyəsi olan noutbuklar uşaqlara təqdim edilib.

Sonra şəhid övladları Mərkəzlə tanış olublar.

Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəhbəri Soltan Məmmədov Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın şəhid ailələrinə və qazilərə hər zaman xüsusi həssaslıqla yanaşdığını vurğulayıb.

Çin Xalq Respublikasının Azərbaycandakı səfiri Qo Min səfirliyin Heydər Əliyev Fondu ilə əməkdaşlığı çərçivəsində bir sıra sosial layihələr həyata keçirildiyini bildirdi.

Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov təşəbbüsə görə Heydər Əliyev Fondunun rəhbərliyinə və Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinə minnətdarlığını ifadə edib.

# Misirdə yubiley yarışması

**Misir Ərəb Respublikasının paytaxtında ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan və Misir idmançıları arasında kikboksinq yarışı keçirilib.**



Ölkəmizin Misirdəki səfirliyinin və Azərbaycan Kikboksinq Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən yarışın açılışında Azərbaycan parlamentinin sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev çıxış edib.

Adil Əliyev ümummilli liderin əsasını qoyduğu bədən tərbiyəsi və idman siyasətinin bu gün öz uğurlu nəticələrini verdiyini, Azərbaycanın artıq dünyada idman ölkəsi kimi tanındığını da diqqətə çatdırıb.

“Heydər Əliyev kuboku” uğrunda keçirilən yarışda Azərbaycan idmançıları 5:4 hesabı ilə qalib gələrək kubokun sahibi olublar.

**“Xalq qəzeti”**

*Şəhidlərimiz*

# 16 yaşında döyüşlərə atılan igid

**…Sumqayıtdakı 14 nömrəli məktəbin 9-cu sinif şagirdi Nazifin birdən-birə yoxa çıxamasının ilk narahatlığını parta yoldaşı keçirdi. Səhər dərslər başlanmazdan əvvəl "Birazdan gələcəyəm", – deyə çantasını ona tapşırıb, sinifdən çıxmışdı. Ancaq o, gəlib çıxmadığı üçün yoldaşları da, müəllimləri də narahat oldular.**

Nazif isə Şuşaya yol almışdı. Könüllülərə qoşularaq, təxminən 20 gün əvvəl Xocalıda soyqırımı törətmiş düşməndən qisas almaq istəyirdi. Bu barədə nə evdə, nə də məktəbdə kimsəyə bir kəlmə də deməmişdi ki, planı pozulmasın. Axı, yaşı çatmırdı.

Heç vaxt görmədiyi, son zamanlar daha çox həsrətində olduğu Şuşaya müxtəlif yol maşınları ilə gedərək, ora axşama yaxın çatmışdı. Milli Qəhrəman Ramiz Qəmbərovun könüllülər batalyonunu tapmış, döyüşlərə qatılmaq istədiyini bildirmişdi. Ramiz Qəmbərov Nazifin cəsur, vətənpərvər oğullar şəhəri olan Sumqayıtdan gəldiyini bilib, sifətindəki qisas, döyüş əzmkar ruhlu, boy-buxunlu bu oğlanı özünün döyüşçülər sırasına qəbul etmişdi. Və heç kəs fərqinə də varmadı ki, özünü 22 yaşındakı oğlan kimi təqdim edən Nazifin cəmi 16 yaşı var. Sənədlərini soruşduqda demişdi ki, evdə onun niyyətindən xəbər tutaraq, pasportunu gizlədiblər.

…Həmin gün anası Nargilə xanımın doğum günü idi. Nazifin dərsdən evə gəlməməsi onu bərk narahat etmişdi. Axı, Nazif anasının hər ad günündə evə tez gələr, onun boynunu qucaqlayıb təbrik edərdi. Amma indi... Axşama yaxın gümanı gəldiyi yeganə yerə – doğma Quba rayonunun Küsnət Qazma kəndindəki qohumlarına zəng vurdu. Onlar da təşvişlə bildirdilər ki, yox, bura gəlməyib.

Atası Nizaməddin kişi istər-istəməz, bu haqda milis şöbəsinə məlumat verdi. Səhərisi günü artıq məktəbli Nazif Mədinov barəsində respublika üzrə axtarış elan edildi. Sumqayıtın təhsil şöbəsi də şəhər qəzetində şəklini verərək Nazifin axtarıldığını bildirdi.

…O isə ilk gündən Şuşanın müdafiəsində dayanan mərd oğullara uyuşması, vətən sevgisindən doğan çılğın xarakteri, gözündəki qisas qığılcımları ilə həm batalyon komandirinin, həm də döyüşçülərin qəlbinə yatmışdı. Özünü elə aparırdı ki, sanki çoxdan onlarla bir yerdə idi. Təcrübəli döyüşçülər ona həvəslə silahlardan istifadə etməyi, onlarla davranış vərdişlərini öyrədir, hiyləgər və məkrli düşmənlə çox ehtiyatlı olmağı təmkinlə başa salırdılar. Ramiz Qəmbərov onu rabitəçi təyin etdi. Lakin boyca uca olsa da, batalyona yeni gəldiyi üçün onu "malış" deyə çağırırdılar.

Bir gün Nazif odun gətirmək üçün Topxana meşəsinə yollanarkən gözlənilmədən üç nəfər düşmən kəşfiyyatçısı ilə üz-üzə gəlir. Onlar silahsız olan Nazifə təslim olmağı əmr edərək, rusca kimliyini soruşanda Nazif özünü soyuqqanlı apararaq, qəsdən onlara başa düşmədikləri ləzgi dilində cavab verir. Hansı dildə danışdığını, nə dediyini başa düşməyən ermənilər Nazifi özlərinin "nayomniki" – xarici muzdlu döyüşçü hesab edirlər. Ona görə də sorğu-suala tutmaqda davam edərək, yaxına buraxırlar. Vəziyyətdən çıxmağın heç də asan olmayacağını başa düşən, lakin zərrəcə də qorxmayan Nazif qəfildən virtuoz cəldliklə lap yaxınındakı düşmənin avtomatını əlindən qoparıb, digər iki erməniyə göz açmağa imkan vermədən sərrast atəşlə onları yerə sərir, avtomatını aldığı erməni isə əsir götürür. Ramiz Qəmbərov əli yalın halda üç ermənini ram edən, düşmən əsirini qərargaha gətirən Nazifə hamının qarşısında təşəkkür edir və həmin gündən ona həm də kəşfiyyatçı işini tapşırır. Əsir düşməndən əldə edilən hərbi sirrlər, erməni birləşmələrinin dislokasiyası haqqında məlumatlar əsasında könüllülər batalyonu elə həmin gün gecə yarısı düşmən arxasına keçərək, onun xeyli sayda döyüşçüsünü məhv edib, çoxlu silah-sursatlarını ələ keçirir...

Azərbaycanın hər yerindən Qarabağın, Şuşanın müdafiəsinə könüllülərlə yanaşı, növbə üzrə milis dəstələri də gəlirdi. Aprelin ortalarında döyüş növbəsinə gəlmiş milis işçilərindən biri "respublika axtarışında" olan Nazifin könüllülər batalyonunda olduğunu təsadüfən görüb, onun şəkli olan "Sumqayıt" qəzetini komandirə göstərmiş, yeniyetmənin 9-cu sinif şagirdi oduğunu, bura evdən xəbərsiz qaçıb gəldiyini bildirərək, onun təcili geri qaytarılmalı olduğunu demişdi. Ramiz Qəmbərov özünün cəsur döyüşçüsünün məktəbli olduğuna inanmamış, lakin elə olsa da belə, onu geri qaytarmayacağını, Nazifin batalyona hələ çox lazım olduğunu bildirərək, "onu heç kəsə verməm" demişdi. Kombatı dilə tutaraq, "yumşaltmağa" çalışan sumqayıtlı milis nəfəri deyəndə ki,



"heç bilirsən, onun anası bu bir ayda nələr çəkib?", Ramiz qayıtmışdı ki, "bilirəm, ancaq Nazif kimi igid oğul indi anasından daha çox Şuşaya, Vətənə lazımdır!".

Nazifin "yoxa çıxmadığını", Şuşanın müdafiəsində dayandığını, ermənilərə qarşı igidliklə vuruşduğunu eşidən ata-anası, bacısı və qardaşları, məktəb yoldaşları, onun axtarışına cəlb edilmiş hüquq-mühafizə orqanlarının nümayəndələri bu xəbəri müjdə kimi qarşılayırlar. Elə səhərisi gün Nazifin ata-anası Şuşaya, onu görməyə yollanırlar. Onu əsgər paltarında, əsl döyüşçü kimi ciddi və vüqarlı görən, haqqında komandirin və yoldaşlarının necə qürurla, fəxrlə danışdıqlarını eşidən valideynləri onu bağırlarına basaraq, gözlərindən öpürlər. Ondan Sumqayıta, evə qayıtmağı, əsgərlik yaşı çatdıqdan sonra hərbi xidmətə getməsini xahiş etsələr də, Nazif israrla bildirir ki, döyüşlər bitməyincə geri qayıdan deyil...

Bu vaqiələr hamısı 1992-ci ilin yazında baş verib. O zamankı ölkə rəhbərliyinin hərbi-siyasi naşılığı, iradəsizliyi, xalq qarşısında məsuliyyətsizliyi üzündən bağışlanılmaz, üzücü hadisələrə rəvac verilirdi. Elə Şuşanın ermənilər tərəfindən işğal edilməsi bütün xalqımız kimi, Nazifi də məyus etmişdi. O arada düz 10 gün ondan xəbər-ətər olmamışdı...

Ancaq sən demə, o, öz döyüş yoldaşları ilə birgə Laçının eniş-yoxuşlu yollarını keçərək, sərhəd istiqamətində düşmən həmlələrinin qarşısını almağa gedibmiş. Bir-neçə gün orada şiddətli döyüşlər olur və Nazifgil qəfil mühasirəyə düşürlər. 16 nəfərdən ibarət dəstə günlərlə ac-susuz qalaraq, mühasirədən çıxmağa çalışsa da, heç nə alınmır. Bir gün isə sübh tezdən döyüş dostları Nazifin onlara baxaraq, xoş əhvalla güldüyünü görürlər. Nazif deyir ki, heç kəs narahat olmasın, bir kəşfiyyatçı kimi o, gecə ikən mühasirədən çıxış yolunu tapıb. Və bilavasitə onun bacarığı sayəsində həmin 16 nəfər döyüşçü sağ-salamat mühasirədən çıxaraq, əsas heyətə qoşulurlar.

Sonra Nazif bir neçə günlüyə Sumqayıta gəlib. O, ilk növbədə doğma məktəbə gedib, sinif yoldaşları və müəllimləri ilə görüşüb. Ona təhsilini davam etdirməli olduğu deyiləndə cavab verib ki, mənim məktəbim indi Qarabağdır, imtahanlarımı da daha orda verəcəyəm.

Nazif Sumqayıtda 10 gün də qərar tuta bilməyərək, yenidən Qarabağa yollanıb. Səsi-sorağı Ağdamdan, Qubadlıdan, Zəngilandan, Laçından gəlib, düşmənə qarşı ağır döyüşlərdə hünər göstərib. Ağdam uğrunda gedən ağır döyüşlərin birində iki yaralı yoldaşını döyüş meydanından çıxararkən düşmən gülləsinə rast gəlib, ağır yaralansa da, sürünə-sürünə üçüncü yoldaşını da çıxartmağa çalışıb. Ermənilər onu gicgahından və ürəyindən nişan alaraq ölümcül yaralayıblar. Son nəfəsində yalnız "oy, Ana... Şuşa" deyərək, başını Vətən torpağına qoyub və 18 yaşında gözlərini əbədi yumub...

Ölümündən sonra komandanlıq igid rabitəçi və kəşfiyyatçı Nazif Mədinovu yüksək döyüş təltiflərinə təqdim etsə də, o zaman Müdafiə Nazirliyindəki hərc-mərcliklər səbəbindən bu, baş tutmayıb. Layiq olduğu qiyməti rəsmən ala bilməsə də, yaxınlarının, dostlarının, el-obanın qəlbində özünə möhtəşəm abidə ucaldıb Nazif.

Düz 30 ildir ki, Nargilə xanımın gözləri hər yerdə igid oğlu Nazifi axtarır. Ana qəhərlənərək deyir ki, balamın bənzərini tapa bilmirəm. Nazif ayrı oğul idi – vətənpərvər, mərd, döyüşkən!..

***Rəhman ORXAN,***
***Əməkdar jurnalist***

## Ermənistan hərbçiləri mövqelərimizi atəşə tutub

**İyunun 12-də saat 13:35-dən saat 14:35-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Dəmirçidam yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atəşə tutub.**

Bölmələrimiz düşmənin atəş nöqtələrini susdurub.

Bundan başqa, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri saat 11:15-dən 16:50-dək kənd təsərrüfatı işləri adı altında ordumuzun Füzuli və Laçın rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Azərbaycan Ordusunun bölmələrinin gördüyü təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

*Vətəndaş cəmiyyəti*

**Qeyri-hökumət təşkilatları (QHT) vətəndaş cəmiyyətinin önəmli qurumlarındandır. Azərbaycan dövləti ümumən üçüncü sektorun inkişafına ciddi önəm verməkdədir. Hazırda Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin fəaliyyəti götürülmüş xəttə adekvat yanaşmanın nəticəsi kimi meydandadır. Qurumun səmərəli fəaliyyətindən geniş söz açmaq niyyətində deyilik. Məlumdur ki, Agentlik QHT fəaliyyətinin institusionallıq qazanması üçün kifayət qədər işlər görür və heç şübhəsiz, qarşıda daha fundamental təşəbbüslərə də imza atacaqdır. Bu öz yerində.**

# QHT layihələri: məqsəd bəlli, vəzifə bəlli, bəs işin həlli?



Ancaq cəmiyyətdə belə bir fikir də var ki, dövlətin məqsədyönlü vəsaiti hədəfinə çatmır, ayrılan pullar daha çox şəxsi məqsədlərə xərclənir. Nəticədə QHT-lərin fəaliyyətini zəruri və faydalı sayanlarla yanaşı, mövcud istiqamətdə nöqsan və çatışmazlıqların olduğunu bildirənlərin də sırasının genişliyini görürük. Bəs reallıq nədən ibarətdir? Yazımızda bu barədə söz açacağıq. Əlbəttə, QHT müstəvisindəki digər məqamlara da toxunacağıq.

Bəli, reallıq budur ki, dövlət qurumu kimi QHT Agentliyi layihələrin icrasına kifayət qədər ciddi nəzarət edir. Lakin mövcud sahədəki hazırkı durum bəzən elə təəssürat yaradır ki, dövlətin QHT sektoruna müəyyən anlayışlı yanaşmasından sui-istifadə yolu tutanlar var. Əlbəttə, Azərbaycan kiçik ölkədir və bu hallar gizli qalmır. Beləliklə, ümumən bütün dünyada QHT fəlsəfəsi üçün xarakterik olan loyal yanaşma prioriteti, Azərbaycan nümunəsinin timsalında, yumşaq desək, intizamsızlıq, laqeydlik təzahürü kimi özünü göstərir.

Yəni, dövlət öz işini görür, vəsaitini ayırır, bacardığı qədər sərbəst mühit formalaşdırır, nəticədə görürsən ki, kimlərsə bu mühitə, belə demək mümkünsə, zor tətbiq etməyə başlayırlar. Beləleri, spekulyasiyalara yol verir – özlərinə yaxın şəxslər vasitəsilə QHT şəbəkəsi formalaşdırırlar. Bəzən şəbəkəyə daxil olan qurumlar mahiyyətcə bir adama məxsus olur. Bu yolu tutanlar nəzərə almırlar ki, bunu ictimai mühitdə çoxları bildiyi kimi, dövlətin də onların hərəkət və davranışlarından xəbəri var...

Nədir QHT müstəvisindəki spekulyasiyalar? Başlayaq layihələrin təyinat xərclərinin demək olar, eyni olmasından. Kitab, broşür, jurnal və s. əyani vəsaitlərin çapı və ya tədbirlərin təşkili. Nəşrlərin qiymətinin dəfələrlə şişirdilməsi, keçirilən tədbirlərin isə şəkil çəkdirməkdən, xəbər yaymaqdan o yana keçməməsi. Bəzən elə də olur ki, hansısa QHT rəhbəri başqa bir tədbirdə iştirak edir, orada öz layihəsinin bannerini quraşdırır, tribunaya çıxıb müxtəlif pozalarda şəkil çəkdirir, təsəvvür yaradır ki, sanki böyük iş görüb. Bəzən bu QHT şəbəkələri eyni hərəkəti öz aralarında da gerçəkləşdirirlər. Tutalım, onlardan birinin tədbiri olur, digərləri gəlib həmin tədbirdə şəkil çəkdirməklə, öz işini bitmiş sayır. Nəticədə ayrılan qrantların heç 20 faizi layihədə qoyulan məqsədin reallaşmasına xidmət etmir. Məsələn, 10 min manatlıq qrant layihəsinə reallıqda 2–3 min manat sərf olunur. Bəs qalanı? Bəs dövlətin vəsaitinin səmərəlilik göstəricisi?

Son beş ildə elan edilmiş qrant layihələrində diqqəti çəkən mövzu xarici ölkələrdə milli məsələlərlə bağlı konfransların təşkilidir. Göründüyü kimi, mövzu kifayət qədər həssasdır. Ancaq təəssüf ki, mövcud sahədə də manipulyasiyalara yol verənlər tapılır. Sosial şəbəkələrdə həmin tədbirlərdən çəkilən müxtəlif fotoşəkillər yayılır, bir-iki saytda da ümumi məlumat verilir, vəssalam. Yəni, söhbət Azərbaycan həqiqətlərinin təbliğindən gedirsə, məsələyə əhatəli və fundamental şəkildə yanaşılması lazım olduğu halda, əksər layihələrdə biz bunu görmürük. Nəticədə belə də təəssürat yaranır ki, layihə hansısa təşkilat rəhbərinin gedib xaricdə gəzmək arzusunun vasitəsindən başqa bir şey deyil. Əlbəttə, bu yerdə öz işinə kifayət qədər məsuliyyətli yanaşan QHT-lərin olduğunu da vurğulamalıyıq. Ancaq belələrinin azlığı bildirilməlidir. Onlar ümumi müsbət mənzərənin formalaşmasına töhfə verə bilmirlər. Necə deyərlər, qurunun oduna yaş da yanır. Biz işinə məsuliyyətlə yanaşanların mövcudluğunu da bildirdik ki, yandırmayaq. Onlara qəzetimizdə tribuna verməyə də hazırıq. Buyursunlar, real işlərlə bağlı daha çox təbliğat aparsınlar ki, işbazların qopardıqları, belə demək mümkünsə, iş-güc toz-dumanı səngisin, ətraf aydınlansın.

Ekspertlər müxtəlif dövlət qurumlarının öz funksionallıqlarının genişləndirilməsi məqsədilə QHT-lərə ayırdıqları qrantların da əhəmiyyətli hissəsinin icrasının səmərəli olmadığına dair fikirlər səsləndirirlər. Ancaq indi bu mövzuya toxunmaq istəməzdik. Hələlik onu deyək ki, son vaxtlar QHT Agentliyinə qarşı çıxanların, qurumun fəaliyyəti fonunda, ümumən dövlətin üçüncü sektorla bağlı siyasətinə xələl gətirmək istəyənlərin əksər hissəsi məhz yuxarıda qeyd etdiyimiz möhtəkir fəaliyyətə üstünlük verənlərdir. Belələrinin içərisində ötən ilin dekabrın 12-dən Laçın–Xankəndi yolunda başlamış və aylarla davam etmiş aksiyaya gedib orada da şəkil çəkdirib bunu sosial şəbəkələrdə pafoslu təqdim edənlər yetərincədir. Bu təşkilat rəhbərləri aksiyada iştiraklarının QHT Agentliyi tərəfindən onlara ayrılmış vəsaitin azlığından şikayətlənmək üçün əsas yaratdığını bildirirlər. Nəinki şikayətlənirlər, hətta ittihamlar da səsləndirirlər.

Əlbəttə, müraciət etdiyimiz ekspertlər bizimlə söhbətlərində başqa məqamlara da toxundular ki, bu şəxslərin fikirlərinə nəzərən, ümumən QHT sektorundakı durumun ayrı-ayrı cəhətləri barədə təsəvvür formalaşdırmaq mümkündür. Elə isə onların nə dediklərinə nəzər salaq:



**"Vətəndaş Tədqiqat və inkişaf" İctimai Birliyinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Günel Səfərova bildirdi:**

– QHT-lər Azərbaycanda 90-cı illərdə yarananda ilkin dövrlərdə şəraitə uyğun olaraq humanitar və xeyriyyə cəmiyyətləri kimi fəaliyyətə başladılar. Hazırda Azərbaycanda qeydiyyatdan keçmiş 4 minə yaxın vətəndaş cəmiyyəti qurumu var, amma bunların yarıdan çoxu fəaliyyətsizdir. Gerçək QHT-lərin sayı isə 400–500 ola, ya olmaya. Onların əsas maliyyə mənbəyi milli və beynəlxalq donorları əhatə edən layihələrdir. QHT-lərə Dövlət Dəstəyi Agentliyi həm struktur, həm də idarəçilik forması ilə fərqli qurum olsa da, əsas fəaliyyət istiqamətlərindən biri milli donorluq fəaliyyətini davam etdirmək və müxtəlif mövzularda layihələri maliyyələşdirməkdir.

Agentlik, əsasən, hər il yeddi istiqaməti əhatə edən kiçik qrant müsabiqəsi keçirir, eyni zamanda da tematik qrant müsabiqələri də təşkil edir. Qurum "Heydər Əliyev İli" və "Qərbi Azərbaycanlıların Qayıdış Konsepsiyası"nın icrasına ictimai dəstəklə bağlı tematik qrant müsabiqəsi də keçirdi. Agentliyin Müşahidə Şurası 416 kiçik və 32 xüsusi mövzu üzrə layihənin maliyyələşməsinə qərar verdi.

Ümumən, bəzi layihələrin keyfiyyətinin aşağılığı narahatlıq yaradır. Postmüharibə dövründə həm beynəlxalq təmsilçilik baxımından, həm də əhali ilə sıx işləyən çevik QHT-lərə ehtiyac var. Bu problemləri aradan qaldırmaq üçün QHT-lərin bilik və bacarıqları artırılmalı, data bazası yaradılmalıdır.

**Vətəndaşların Əmək Hüquqları Liqasının sədri, hüquq müdafiəçisi Sahib MƏMMƏDOV dedi:**



– Azərbaycanda 2013-cü ilə qədər nağd ödəmə var idi. Qrantların verilməsində qeydiyyat məsələləri sərtləşdiriləndən sonra ölkəmizdə anti-Azərbaycan xarakterli layihələri maliyyələşdirən donorlar üçüncü ölkələr vasitəsilə, yaxud gizli maliyyələşdirilmə sxemi ilə pul keçirirlər. Bu halda qrant alan QHT-lər təbii ki, heç kimə maliyyə məlumatı vermədən donorun tələblərini yerinə yetirirlər. ABŞ-ın NED fondu hər il konkret adı göstərməməklə, yalnız istiqamətləri qeyd etməklə, Azərbaycan QHT-lərinə 1–1,2 milyon dollardan çox qrant ayırır. Amma layihəni icra edən QHT-lər bu barədə və verilən məbləğlə bağlı məlumat açıqlamırlar.

Həmin vəsaitlər, adətən, ölkəyə üçüncü ölkələrdən daxil olur, yaxud Azərbaycanda olan qərb ölkələrinin səfirlikləri vasitəsilə nağd şəklində ödənir. Digər xarici ölkələrdən də qrantlar bu yolla daxil olur. ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin Azərbaycan ofisi vasitəsilə də bəzi qrantlar verilir.

Dövlət Agentliyinin QHT-lərə ayırdığı maliyə vəsaiti gizlədilə bilməz və şəffaf şəkildə verilir. Qrantlar ictimaiyyətə açıqlanır. Amma bəzi QHT-lər var ki, aldığı vəsaitdən səmərəli istifadə edə bilmir. QHT-ləri maliyyələşdirən daxili donorların sayı artmalı, biznes qurumları da bu sıraya qatılmalıdır.

**Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli mövzuya öz yanaşması ilə toxundu:**



– Donor təşkilatlardan başqa, nazirliklərin özləri də yüksək məbləğli maliyyələr ayırır. Bu istiqamətdə də şəffaflığa ciddi nəzarət olmalıdır.

QHT və donor təşkilatları arasında səmərəli işbirliyi qurulsa, şəffaflıq da yaranar. Təhsillə, media ilə bağlı QHT-lərin fəaliyyəti daha peşəkar qurulmalıdır. Uzun müddət özünü təsdiq edən QHT-lərlə əməkdaşlıq yüksək səviyyədə olmalıdır. Onlara daha böyük məbləğdə maliyə vəsaiti ayrılmalıdır ki, işləri davamlı görə bilsinlər. Cəmiyyətdə formalaşan "qrant alınır, o pul yeyilir," qənaətini peşəkarlığın səviyyəsini qaldırmaqla, aradan götürüləcək.

**Jurnalistlərin Həmkarlar İttifaqının sədri, media eksperti Müşfiq Ələsgərli QHT sektorunda islahatların vacibliyindən, cəmiyyəti maraqlandıran sualların həlli yollarından söz açdı:**



– Azərbaycanda QHT-lər institutlaşır, peşəkarlaşır, həm də, milli təəssübkeşlik nümayiş etdirirlər. Zərurət yarananda milli maraqların müdafiəsinə qalxırlar. 2022-ci ilin dekabr ayında milli QHT-lərin ekofəllarla birgə Laçın–Xankəndi yolunda keçirdikləri uğurlu aksiya bunun bariz nümunələrindən biridir. Amma təəssüf hissi ilə qeyd edilməlidir ki, "işbazlar", çirkli fəaliyyətə meyil edənlər QHT sektoru üçün də istisna deyil. Qrant humanitar, sosial və ekoloji inkişaf proqramlarını maliyələşdirmək üçün əvəzsiz verilən maddi vəsaitdir. O, siyasi hakimiyyət uğrunda mübarizə məqsədləri üçün istifadə edilə bilməz. Amma problem ondadır ki, bəzi xarici "donor təşkilatlar" və onlarla əməkdaşlıq edən yerli QHT-lər məhz bu tələbi intensiv şəkildə pozurlar. Siyasi proseslərə təsir göstərmək, onu öz maraqları istiqamətinə yönəltmək üçün "qrantlardan" istifadə edirlər. Bəzən, təlimatlandırılan, maliyyələşdirilən QHT və KİV təmsilçiləri bir sifarişlə küçələrə tökülüb xaos yarada bilirlər.

Azərbaycanda milli QHT-ləri xarici təsirlərdən yayındırmaq üçün atılan addımlar təsirli olsa da, QHT sektorundakı "işbazları" zərərsizləşdirmək baxımından görülən tədbirlər tamamlanmayıb. "Ailə KİV-ləri", "ailə partiyaları", "ailə şirkətləri" olduğu kimi, bir ailəyə məxsus çoxsaylı QHT-lərinin mövcudluğu da ciddi narahatlıq doğurur. QHT-ni məhz gəlir mənbəyinə çevirən şəbəkələr var ki, onlar da ümumi işə ciddi şəkildə zərbə vururlar. QHT sektoru üzrə başladılmış islahatların davam etdirilməsinə zərurət var.

**Zərifə BƏŞİRQIZI,**
**R.AMİN,**
**"Xalq qəzeti"**

# Azərbaycan–Türkiyə: ortaq hədəflərin yüksəliş yolu

**Azərbaycan–Türkiyə arasında hazırda tranzit-logistika, gömrük, İKT, ticarət və s. sahələrdə əlaqələrin genişləndirilməsi, ərazilərimizin işğaldan azad edilməsi ilə əlaqədar yaranmış yeni reallıqlara uyğun olaraq iqtisadi əlaqələrin daha da inkişafı yönündə layihələrin reallaşdırılması diqqət mərkəzində saxlanılır. Bunlarla bərabər, iki dövlət arasında Preferensial Ticarət Sazişinə əsasən, qarşılıqlı ticarət həcminin və məhsul çeşidinin artırılmasına xüsusi önəm verilir.**



Bu gün Türkiyə Azərbaycanın ikinci ən böyük ticarət tərəfdaşıdır. Belə ki, Dövlət Gömrük Komitəsinin məlumatına görə, iki ölkənin birgə ticarət dövriyyəsi getdikcə yüksəlir. Təkcə ötən il qardaş ölkələr arasında ticarət dövriyyəsinin 5 milyard 842 milyon dollar təşkil etməsi bunun bariz ifadəsidir. Bu göstərici respublikamızın ticarət dövriyyəsinin 11,1 faizi deməkdir. Həmin rəqəm isə Türkiyənin İtaliyadan sonra Azərbaycanın ən böyük ticarət partnyoru olmasını deməyə əsas verir.

Azərbaycanın ixrac–idxal proseslərində də qardaş ölkə xüsusi rol oynayır. Respublikamızın keçənilki ixracının 9 faizinin, idxalın isə 16 faizinin Türkiyə ilə bağlı olması məhz bunun bariz ifadəsidir. Türkiyə ilə ticarətdə Azərbaycan müsbət saldo əldə edir. Belə ki, hazırda Azərbaycanın Türkiyə ilə ixracı 3,5 milyard dollara, idxalı isə 2,3 milyard dollara çatır. Beləliklə 1,2 milyard dollarlıq müsbət saldo yaranır.

Türkiyə son illərdə Azərbaycana yatırılan investisiyaların və Azərbaycanın yatırdığı sərmayələrin həcminə görə də önəmli yer tutub. Mərkəzi Bankın məlumatına görə, 2022-ci ildə qardaş ölkədən Azərbaycan iqtisadiyyatına 1 milyard 187 milyon dollar dəyərində birbaşa investisiya cəlb edilib. Bu göstərici ilə Türkiyə Böyük Britaniyadan sonra Azərbaycana ən çox yatırım edən ölkə adını qazanıb.

Azərbaycanın xarici ölkələrə yatırdığı investisiyalara görə, Türkiyə birinci yeri tutur. Ötən il Azərbaycandan Türkiyə iqtisadiyyatına 247 milyon dollar sərmayə qoyulub. Türkiyənin ən böyük xarici yatırımçısı Azərbaycandır. Dövlət Neft Şirkəti (SOCAR) indiyədək Türkiyənin neft-kimya sənayesinə 18 milyard dollar yatırıb. Təkcə ötən il Türkiyədə Azərbaycan sərmayəli 56 şirkət qurulub.

*Ekspert rəyi*

**Hüseynqulu QULİYEV, iqtisadçı-ekspert**



Türkiyədən Azərbaycana investisiya qoyuluşu hazırda 12 milyard dollar, Azərbaycandan Türkiyəyə sərmaye yatırımı 19,5 milyard dollar təşkil edir. Bu gün qardaş ölkədə 2 minə yaxın Azərbaycan, respublikamızda isə 4 mindən artıq Türkiyə şirkəti fəaliyyət göstərir.

Türkiyə Azərbaycanın xarici ticarət tərəfdaşı olaraq ilk üçlükdə qərarlaşmış dövlətdir. Bu ölkələr arasında birinin digərinə yatırdığı investisiyanın həcminə nəzər saldıqda Azərbaycanın kiçik dövlət olmasına baxmayaraq, Türkiyə iqtisadiyyatına daha çox–20 milyard dollara yaxın investisiya qoyduğu aydın nəzərə çarpar.

Azərbaycan qardaş ölkəyə neft-qaz məhsullarının ixracında da fərqlənir. Bu ilin yanvar-aprel aylarında respublikamız Türkiyəyə təqribən 590 min ton xam neft və neft məhsulları ixrac edib ki, bu da Azərbaycanın ümumi xammal ixracının 6,38 faizini təşkil edir.

Hesabat dövründə Azərbaycandan Türkiyəyə ixrac edilən neft və neft məhsullarının dəyəri 349,379 milyard dollar olub ki, bu da 2022-ci ilin analoji dövrü ilə müqayisədə beş dəfə və ya 279,767 milyon dollar çoxdur.

Bütünlükdə 2023-cü ilin yanvar-aprel aylarında Azərbaycan 9,236 milyon tona yaxın neft və neft məhsulları ixrac edib ki, bu da ötən ilin analoji dövrünün göstəricisi (9,5 milyon ton) ilə 2,6 faiz azdır. Dəyər ifadəsində neft ixracı 5,715 milyard dolları ötüb ki, bu da 2022-ci ilin yanvar-aprel aylarının göstəricisindən 12,7 faiz və ya 829,564 min dollar azdır.

Türkiyə ilə Azərbaycan arasında enerji sahəsində uğurlu əməkdaşlığın ən mühüm addımlarından biri olan TANAP təbii qaz resurslarının müxtəlifliyini artırmaq üçün indiyədək həyata keçirilən ən strateji layihələrdən biridir. Bu layihə sayəsində ümummilli lider Heydər Əliyevin dövründə başlayan Türkiyə və Azərbaycan arasında enerji sahəsindəki əməkdaşlıq yeni müstəviyə keçib.

Azərbaycan və Türkiyə arasındakı iqtisadi əlaqələr həm də çoxtərəfli strateji əhəmiyyətli əməkdaşlığı əhatə edir. Bu, özünü daha çox enerji-nəqliyyat qovşaqlarını nəzərdə tutan layihələrlə büruzə verir. Bu layihələr 1994-cü ildə "Əsrin müqaviləsi" ilə qəbul edilən neft axtarış-kəşfiyyat işləri ilə başlayıb, sonrakı illərdə isə genişlənib.

Azərbaycan və Türkiyənin də tərəfdaş olduğu nəhəng regional layihələrə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP və TAP misal göstərilə bilər. Bu layihələr regionda iqtisadi inteqrasiyanın gücləndirilməsində, enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Bu beynəlxalq nəqliyyat və enerji layihələri Azərbaycan ilə Türkiyənin regionda mövqeyinin gücləndirilməsində, beynəlxalq daşımalarda məsafə və daşıma müddətinin qısaldılmasında, strateji əhəmiyyətinin artmasında, regional enerji təhlükəsizliyinin təminatında, bu ölkələrin tranzit və ticarət əməliyyatları ilə yanaşı, digər sahələrdə gəlirlərin artımında, məşğulluğun həllində və əhalinin rifahının yüksəldilməsində əhəmiyyətlidir.

Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi münasibətlər tarixi-mədəni yaxınlığa və qarşılıqlı strateji tərəfdaşlığa əsaslanır. İkitərəfli iqtisadi əlaqələrdə çoxşaxəlilik və intensivlik müşahidə edilir. Bu əlaqələr ticarət, investisiya qoyuluşları və çoxtərəfli münasibətləri əhatə edən regional layihələrdə özünü daha qabarıq göstərir.

Hazırkı iqtisadi tərəfdaşlıq həm Türkiyə və Azərbaycanın ölkə, həm də region miqyasında nüfuzunun və iqtisadi gücünün artımında əhəmiyyətli rol oynayır. Türkiyə ilə sıx iqtisadi münasibətimizin böyük inkişaf potensialı var. Hər iki ölkə liderləri tərəfindən mövcud iqtisadi əlaqələrin inkişafı üçün böyük səy göstərilir.

Sonda tarixi önəm daşıyan bir məsələyə də toxunmaq istərdik. Prezident İlham Əliyev ayrı-ayrı çıxışlarında azad edilən ərazilərin bərpası prosesindən danışarkən bu məsələdə dost ölkələrin fəaliyyətinə daha çox diqqət yetirilməyini xüsusi vurğulayıb. Ölkə rəhbəri bu zaman qardaş Türkiyənin Azərbaycana münasibəti barədə xüsusi danışıb, bu dövlətin Vətən müharibəsinin ilk günlərindən haqq işimizə böyük dəstək verdiyini xatırladıb. Bütün bunlardan sonra təbii ki, qardaş ölkə Qarabağın bərpasında da köməyini əsirgəməyib.

Türkiyə şirkətlərinin Qarabağın yenidənqurma işlərində də səmərəli iştirakından bəhs edən Prezident İlham Əliyev deyib: "Ümumilikdə, Türkiyə şirkətləri Azərbaycanda təqribən 10 milyard dollardan çox dəyəri olan layihələrdə, müxtəlif inşaat layihələrində iştirak ediblər. Əlbəttə ki, işğaldan azad edilmiş torpaqlarda da bir çox sahələrdə Türkiyə şirkətləri uğurlu fəaliyyət göstərəcəklər".

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

# Ölkəmizin enerji layihələri Astana Beynəlxalq Forumunda böyük maraq doğurub




**Xəbər verildiyi kimi, ötən həftə Astana şəhərində Beynəlxalq Forum keçirilib. Forumun məqsədi hökumətləri, beynəlxalq təşkilatları, biznes və akademik dairələrin nümayəndələrini konstruktiv dialoqa cəlb etmək və mövcud qlobal çağırışların həllində strategiyaları araşdırmaq üçün platforma təqdim etməkdən ibarət olub.**

Dünyanın ayrı-ayrı ölkələrinin və mötəbər beynəlxalq təşkilatların təmsilçiləri olan min nəfərdən çox qonağın iştirak etdiyi beynəlxalq tədbirdə, həmçinin iqlim dəyişikliyi, ərzaq qıtlığı və enerji təhlükəsizliyi ilə bağlı məsələlər ətrafında geniş müzakirələr aparılıb. Forum çərçivəsində, həmçinin Qazaxıstan Prezidenti Qasım-Jomart Tokayevin himayəsi altında "Problemlərin dialoq yolu ilə həlli: əməkdaşlığa, inkişafa və tərəqqiyə doğru" mövzusuna həsr olunan yüksək səviyyəli tədbir keçirilib.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov forum çərçivəsində keçirilən "Bərpaolunan enerji sahəsində regional inkişaf: enerji təhlükəsizliyinin təmin olunmasının alternativ yolları" mövzusuna həsr olunmuş sessiyada çıxış edib. "Yaşıl enerji"nin inkişafını enerji keçidi, ətraf mühitin mühafizəsi siyasəti ilə yanaşı, enerji təhlükəsizliyi ilə bağlı narahatlıqların təşviq etdiyini vurğulayan nazir deyib ki, bərpa olunan enerji mənbələri dayanıqlı enerji təchizatı üçün diversifikasiyanı təmin edən alternativlərdəndir.

Qeyd olunub ki, Azərbaycan "yaşıl enerji"ni özünün deyil, tərəfdaşlarının enerji təhlükəsizliyini təmin etmək və 2030-cu ilədək təmiz ətraf mühitə malik yaşıl artım ölkəsinə çevrilmək üçün inkişaf etdirir. Avropa İttifaqı ilə yenilənmiş strateji enerji tərəfdaşlığımıza uyğun olaraq ölkəmizdən Avropa dövlətlərinə əlavə qaz tədarükünün mənbələrindən birinin məhz "yaşıl enerji" olduğunu vurğulayan P. Şahbazov deyib ki, bərpaolunan enerji mənbələrindən geniş istifadə imkan verir ki, Azərbaycan həm "yaşıl enerji"nin ixracatçısı olsun, həm də böyük həcmlərdə qənaət edilmiş qaz hesabına ixrac imkanlarını artırsın.

Nazir, həmçinin beynəlxalq enerji şirkətləri ilə 28 qiqavatdan çox "yaşıl enerji" layihələri üzrə əməkdaşlıqdan, Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə həyata keçirilən "yaşıl hidrogen"in istehsalı və ixracının kommersiya məqsədəuyğunluğunu təsdiqləyən bazar araşdırmasından, 2030-cu ilə qədər 7 qiqavat həcmində istehsal güclərinin istismara verilməsi və "yaşıl enerji"nin ixracı ilə bağlı planlardan bəhs edib. Qeyd olunub ki, "yaşıl enerji"nin 4 qiqavatının "Xəzər-Avropa Yaşıl Enerji Dəhlizi" ilə Avropaya, 1 qiqavatının isə "yaşıl enerji zonası" elan edilmiş Naxçıvan üzərindən Türkiyə və Avropa istiqamətində ixracı nəzərdə tutulur.

Energetika naziri bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin iradəsi və qətiyyəti sayəsində ölkəmiz neft-qaz resursları, onların dünya bazarlarına şaxələndirilmiş infrastrukturlara çıxarılması ilə bağlı strateji inkişaf təcrübəsini hazırda "yaşıl enerji" üzərinə transfer edir. P. Şahbazov Qazaxıstanın, həmçinin tədbirdə təmsil olunan ölkələrin şirkətlərini Azərbaycanda "yaşıl enerji", enerji keçidi üzrə layihələrdə iştiraka dəvət edib.

Astana Beynəlxalq Forumu çərçivəsində energetika naziri Pərviz Şahbazov bir sıra səmərəli görüşlər də keçirib. Bu baxımdan Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) baş direktoru Francesco La Camera arasında görüşü xüsusi qeyd etmək olar. Görüşdə bərpaolunan enerjinin istehsalı, ixracı ilə bağlı həyata keçirilən və planlaşdırılan layihələr, eləcə də "yaşıl enerji" texnologiyalarının inkişafına dair fikir mübadiləsi aparılıb. Söhbət zamanı Azərbaycanın 2023-2024-cü illər üzrə IRENA Şurasına üzvlüyü çərçivəsində əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Baş direktor Azərbaycanda bərpaolunan enerji sahəsində imkanların dəyərləndirilməsinə IRENA-nın dəstəyini ifadə edib.

Bundan əlavə, Pərviz Şahbazov Qazaxıstan Baş nazirinin müavini–ticarət və inteqrasiya naziri, Birgə Hökumətlərarası Komissiyanın həmsədri Serik Jumanqarin ilə görüşüb. Söhbət zamanı bu ilin aprel ayında Azərbaycan Prezidentinin Qazaxıstana səfəri və imzalanmış sənədlərin ikitərəfli münasibətlərin kompleks şəkildə inkişafı və çoxşaxəli tərəfdaşlıq əlaqələrinin möhkəmlənməsi üçün geniş imkanlar yaratdığı qeyd olunub. İki ölkə arasında ticarət dövriyyəsində hazırda müşahidə olunan artım dinamikası ticari-iqtisadi əlaqələrin inkişaf göstəricisi kimi dəyərləndirilib.

Söhbət zamanı ixrac-idxal potensialından geniş istifadə, nəqliyyat-logistika imkanlarının artırılması, kənd təsərrüfatı sahələrində əməkdaşlıq, həmçinin birgə investisiya perspektivləri ilə bağlı məsələlər müzakirə edilib. Qazaxıstan neftinin Azərbaycan ərazisindən ixracı ilə əlaqədar imkanlar nəzərdən keçirilib. Bildirilib ki, Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan neft kəməri ilə nəqli enerji təchizatının şaxələndirilməsini təmin edir. Qeyd olunub ki, 2023-cü il aprelindən ilin sonuna kimi BTC boru kəməri ilə təxminən 1,125 milyon ton Qazaxıstan neftinin nəqli planlaşdırılır.

Görüşdə, həmçinin əməkdaşlığın prioritetləri üzrə qarşılıqlı fəaliyyətdən irəli gələn məsələlərin birgə dəyərləndirilməsi və növbəti addımların müəyyənləşdirilməsi məqsədilə Hökumətlərarası Komissiya çərçivəsində bu ilin sentyabr-oktyabr aylarında onlayn formatda görüşün keçirilməsi razılaşdırılıb.

Bütövlükdə isə, beynəlxalq əməkdaşlığı inkişaf etdirmək və yeni qlobal tərəfdaşlıq əlaqələri qurmağa yönəldilmiş Astana forumunun iştirakçıları iki gün ərzində dörd istiqamət–xarici siyasət və beynəlxalq təhlükəsizlik, beynəlxalq inkişaf və davamlı inkişaf, enerji və iqlim dəyişikliyi, iqtisadiyyat və maliyyə istiqamətləri ətrafında geniş fikir mübadiləsi aparıblar. Təsadüfi deyil ki, ekspertlər Astana Beynəlxalq Forumunu qlobal ictimaiyyəti bir araya gətirmək, fikir mübadiləsi aparmaq və hazırda qlobal birliyin üzləşdiyi aktual çağırışların aradan qaldırılması üçün innovativ yanaşmaları araşdırmaq baxımından mühüm fürsət kimi dəyərləndirirlər.

***Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"***

## Zəmilərin 13,2 faizində biçin yekunlaşıb

**Respublikanın bölgələrində taxıl biçini davam edir. Bu günədək sahələrdən 370 min 541 ton arpa və 24 min 237 ton buğda yığılıb. Arpa sahələrinin təxminən 33 faizində biçin başa çatıb, buğda sahələrində isə biçinə yeni start verilib. Arpa üzrə orta məhsuldarlıq 28,3 sentner təşkil edir.**



Biçin prosesinin ilk başladığı rayonlardan olan Sabirabadda payızlıq əkinlər dövründə 25 min 975 hektar sahədə taxıl əkilib. Əkin sahələrinin 13 min 313 hektarı buğda, 12 min 662 hektarı arpa sahələridir. Bu günədək Sabirabadda 7 min 222 hektar sahədə biçin aparılıb, sahələrdən 28 min 205 ton məhsul yığılıb.

Hazırda rayonda taxıl üzrə orta məhsuldarlıq 39,1 sent/hektar təşkil edir. Sabirabad üzrə arpa sahələrinin 60 faizində biçin yekunlaşıb. Biçinin vaxtında və itkisiz başa çatdırılması üçün "Aqroservis" ASC tərəfindən Sabirabada digər bölgələrdən əlavə kombaynlar dislokasiya edilib.

Artıq rayonda gedən biçin prosesinə 78 kombayn cəlb olunub. Bunlardan 34-ü "Aqroservis" ASC-nin yerli rayon bölməsinin balansında olan kombaynlardır. "Aqroservis" tərəfindən digər rayon bölmələrindən Sabirabada 5 əlavə kombayn dislokasiya edilib. Biçinə, həmçinin fiziki və hüquqi şəxslərə məxsus 39 özəl kombayn da cəlb olunub.

Qeyd edək ki, hazırda respublikanın 42 rayonunda biçin davam edir. İndiyədək 130 min 960 hektar sahədə, yaxud payızlıq əkin sahələrinin 13,2 faizində biçin başa çatıb. Sahələrin 44 min 331 hektarı "Aqroservis" ASC-nin kombaynları, qalan hissəsi isə özəl kombaynlar vasitəsilə biçilib.

Bu il ölkə ərazisində 1 milyon 58 min 398,9 hektar sahədə taxıl əkilib ki, bunun da 658 min 383,7 hektarı buğda, 400 min 15,2 hektarı isə arpa sahəsidir.

## Pərakəndə satış dövriyyəsi genişlənib

**2023-cü ilin yanvar-may aylarında ölkənin pərakəndə ticarət şəbəkəsində istehlakçılara 20,8 milyard manatlıq, o cümlədən 12 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 8,8 milyard manatlıq qeyri-ərzaq malları satılıb.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin yanvar-may ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 2,9 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 2 faiz, qeyri-ərzaq malları üzrə isə 4,1 faiz artıb.

## Qeyri-sənaye məhsullarının ixracı artıb

**Azərbaycanda son 5 il ərzində sənaye məhsullarının qeyri neft-qaz ixracında payı 62,6 faizə çatıb.**



Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov özünün "Tvitter" hesabında yazıb. "Ölkəmizdə ixracın şaxələndirilməsi və sənaye məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması istiqamətində reallaşdırılan tədbirlər nəticəsində 2018-2022-ci illərdə sənaye məhsulları ixracının qeyri neft-qaz ixracda payı 51,8 faizdən 62,6 faizə çatıb",–deyə nazir bildirib.

***"Xalq qəzeti"***



# Arazqırağının “Qayıdış” təməlləri

## “Vəhşi qəbilə”nin cəhənnəmə çevirdiyi yerlər cənnətə dönür

**Qarabağ və Şərqi Zəngəzur işğal dövründə Xirosimaya çevrilib, əzəli-əbədi yurd yerlərimizin, necə deyərlər, izi-tozu belə qalmayıb. Vətən müharibəsindən dərhal sonra isə şəhər və kəndlərimizin sürətli bərpasına başlanılıb.**

Xatırladaq ki, hazırda işğaldan azad olunan ərazilərdə bərpa-quruculuq layihələri Böyük Qayıdış üzrə strateji çərçivədə həyata keçirilir. Başqa sözlə, keçmiş məcburi köçkünlərin dayanıqlı məskunlaşdırılması ərazilərdə planlaşdırılan zəruri ilkin şərtlərin yaradılması ilə dəstəklənir, yeni yaşayış sahələrinin təhlükəsizlik sistemi və infrastrukturla tam şəkildə əhatələnməsi qarşıya mühüm vəzifə kimi qoyulur. Bu, Füzuli rayonunun timsalında aydın nəzərə çarpır.

Rayonda müasir şəhərsalma prinsipləri nəzərə alınmaqla yaşayış və qeyri-yaşayış komplekslərinin inşası sürətlə davam etdirilir. Bu prosesdə isə əsasən “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarının gerçəkləşdirilməsi önə çəkilir. Belə bir əsasda Füzulinin müasir standartlara uyğun sosial-iqtisadi və mədəni infrastrukturla tam təmin edilməsi diqqət mərkəzində saxlanılır.

Füzuli Hava Limanı kimi meqalayihənin uğurla yerinə yetirilməsi, içməli su və suvarma sistemlərinin yenidən qurulması, şəhərdə yaşayış kompleksinin inşasının sürətlə davam etdirilməsi ölkəmizin həm sülh niyyətini, həm də potensialını göstərir.

### Qaraxanbəylidə “Zəfər qapısı”

**…Yolumuz Füzuli şəhərinədir. Alxanlı kəndində yerləşən nəzarət-buraxılış postundan keçəndən sonra bizi Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Eldar Seyidov qarşılayır.** Baş məsləhətçi Füzuli rayonunun düşməndən təmizlənən ərazilərində ermənilərin işğal dövründə törətdikləri dağıntılar və hazırda həyata keçirilən quruculuq, tikinti-bərpa işləri barədə məlumat verir.

...Qaraxanbəyli kəndindən keçən yolun kənarında üzərində “Vətən uğrunda canlarından keçən qəhrəmanların şəhid olduğu ilk yerlərdən biri” yazılan qaya-abidənin yaxınlığında maşından düşüb döyüşlərin ilk günlərində igidlik, şücaət nümayiş etdirərək şəhadətə ucalan oğullarımızı ziyarət edirik... Uzun illik qəsbkarlıq zamanı bu daş salnamənin lap yaxınlığında yerləşən düşmən səngəri, işğalçının qurduğu müdafiə xətlərinə baxır və Azərbaycan Ordusunun Vətən savaşında bu maneəni, qəsbkarın keçilməz saydığı bu istehkamı ölüm-itimdən qorxmayaraq qəhrəmanlıqla necə yardığını təsəvvür edirik, öz canını fəda edərək üçrəngli bayrağımızın Şuşada və işğal altında olan digər bütün torpaqlarda necə dalğalandırdığını, ləyaqətimizin, ədalətin bərpası, həmçinin xalqımızın dogma od-ocaqlarına qayıtması üçün yol açdığını gözlərimiz önündə canlandırırıq. Zirvədə qərarlaşan bu qaya-abidənin yanında dayanıb Şuşaya doğru uzanan Zəfər yolunun sağ-soluna tamaşa etdikcə erməni faşizminin ağrılı izlərini görür, şəhidlərimizin Qarabağ çöllərində qalib əsgər, qalib zabit kimi ruhunun azad, bəxtiyar dolaşdığını duyuruq, bu yolun başdan-başa şəhidlərimizin daş kitabəsinə çevrildiyini hiss edirik, onların bu torpaqlara azadlıq gətirmələri, bizi dogma Yurdun – Azərbaycanın bu əsrarəngiz guşəsinin hər daş-qayası ilə yenidən qovuşdurmaları ilə özləri də Vətən daşına döndüklərini, ölkəmizin əbədiləşən, ölməzləşən vətəndaşı adını qazandıqlarını bir daha yəqinləşdiririk.

BMT Təhlükəsizlik Şurasının qəsb edilən torpaqların qaytarılmasını nəzərdə tutan qətnamələrinin icrası üçün “çalışan” erməni havadarları, Minsk Qrupunun həmsədr “turistləri”, “sülh yaradıcıları” işğal illərində indiki yuxarıda haqqında bəhs etdiyimiz abidənin yanından keçib Xankəndini, İrəvanı su yoluna döndərəndə düşmənin barbarlığını, dəhşətli dağıntılarını sanki görmürdülər. Dövlətimizin başçısının vurğuladığı kimi, bu yoldan “vəhşi qəbilənin ötdüyünün” fərqinə varmır, işğalçını öz adı ilə çağırmır, əsl həqiqətləri dilə gətirmək istəmir, qəsbkarla aparılan danışıqlarda ədalətli mövqe ortaya qoymurdular.

Amma onlar nəyin, nə vaxt, necə gerçəkləşdiriləcəyini yaxşı bilən ölkə rəhbərinin bir gün Azərbaycan Ordusuna ermənilərin saysız-hesabsız təxribatlarının birində ədalət savaşına başlamaq əmri verəcəyini, indi bu qaya abidə ilə xatirələri əbədiləşdirilən şəhid igid oğullarımızın şücaəti, qəhrəmanlığı ilə şəhər və kəndlərimizi yerlə bir edən, yurdu xarabalığa çevirən caniləri cəzalandıracaqlarını ağıllarına belə, gətirmirdilər.

Dünyanın ən böyük haqsızlığı, ədalətsizliyi həm də o idi ki, Minsk Qrupunun sülhdən, əmin-amanlıqdan dəm vuran həmsədr “turistləri” erməni faşizminin törətdiyi barbarlığı, vəhşiliyi dilə gətirib etiraz səslərini ucaltmırdılar. Onlar neçə həftədən, aydan bir yanından ötdükləri Merdinli məscidindən də yəqin ki, xəbərsiz deyildilər.

### İnsanlığı alçaldan erməni cinayətləri

...Füzuliyə səfərimizdə ilk ziyarət etdiyimiz yerlərdən biri olan Merdinli məscidi Zəfər yolunun sağ tərəfində yerləşir. Məscid adi binanı xatırladır, ancaq ona yaxınlaşdıqca ilk təəssüratlarımız tamamilə dəyişir. Məscidin şimal, qərb və cənub tərəflərində çoxlu həndəsi bəzək və yazılar var. Onun şimal tərəfində mərmərlə əhatə olunmuş pəncərələr diqqət çəkir. Girişin yuxarı hissəsində isə, “Allahdan başqa Tanrı yoxdur, Məhəmməd Allahın elçisidir” sözləri oxunur.

Məscidin mehrabının yuxarı tərəfləri də bir sıra dini yazılarla haşiyələnib. Kitabələrin birində onun tikildiyi tarix (XIX əsr) qeyd olunub. Bu məscid uzun illər dindarlara xidmət edib, işğal dövründə isə erməni vandalizminin qurbanına çevrilib.

**Eldar Seyidov deyir ki, digər tarixi abidələrimiz kimi Merdinli məscidi də dağıntıya məruz qalıb:** “Qarabağda erməni faşizminin xaraba qoyduğu yüzlərlə yaşayış məntəqələrindən biri olan Merdinli kəndi 1993-cü ildə işğal edilib. Yaşayış sahəsi 27 il ərzində tamamilə talanıb, yer üzündən silinib. Bütün evlər, təsərrüfatlar, sosial obyektlər dağıdılıb. Merdinli məscidi də erməni vandalizmindən kənarda qalmayıb. Ondan tövlə kimi istifadə edilib, burada mal-qara, donuz saxlanılıb”.

Məscidə daxil olanda döşəmədəki saman qırıntıları, peyin qalıqları bunu daha aydın hiss etdirir. Bundan başqa, işğal dövründə məscidin mehrabına karikatura çəkilib, fasadında yerləşən kitabə güllələnib, dam örtüyü uçurulub. Merdinli məscidinin timsalında bir daha xatırladaq ki, insanlıqdan uzaq olan erməni faşizmi torpaqlarımızı işğal altında saxladığı 30 ilə yaxın bir müddət ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında vandalizm aktı törədib, bütün maddi, mədəni, tarixi və dini abidələri məhv edib. Təkcə onu demək kifayətdir ki, düşmən bu dövrdə 70-ə yaxın məscidi dağıdıb. Bütövlükdə isə, işğal olunmuş ərazilərimizi tamamilə viran qoyub.







... Məscidin sol tərəfində Merdinli qəbiristanlığı yerləşir. Bu qədim məzarlıq da erməni vandalizminə məruz qalıb, qəbirlər dağıdılıb, baş daşları uçurulub.

**Həmin gün qəbiristanlıqda yaxınlarının məzarlarını ziyarətə gələn kənd sakini Əhməd Məmmədov jurnalist olduğumuzu bilib bizə yaxınlaşır. Kövrək, titrək səslə həmsöhbət olur:**

– Neçə il yurd həsrətini içimizdə çəkdik, od-ocaq göynərtisini qəlbimizdə yaşatdıq. Amma sınmadıq, bir an da olsun, nə vaxtsa kəndə dönəcəyimizə inamımızı itirmədik. Hərəmiz bir şəhərdə-kənddə, dağda-aranda məskunlaşsaq da, ağrılara, çətinliklərə dözdük, ağlayıb-sızlamadıq.

Niyyət eləmişdim ki, bura–kəndə ilk qədəm basanda qəbiristanlığa gedib tez-tez yuxularda görüşdüyüm əzizlərimin məzarlarını ziyarət edəcəm. Gündə neçə kərə keçdiyim küçəylə uşaqlıq illərimin, yeniyetməlik çağlarımın izi qalan, xatirələrini yaşadan məktəbə gedəcəyəm... İndi siz də görürsünüz ki, düşmən məzarlığı necə dağıdıb, kənddən isə əsər-əlamət belə qalmayıb... Bir vaxt Allaha əmanət qoyub getdiyimiz ev-eşiyimizin, həyət-bacamızın külünü göyə sovurub.

...Bu da çoxillik əsirlikdən xilas edilən doğma yurd yeri. Əhməd kişi gözlərinə inana bilmir. Kənddən əsər-əlamət yoxdur. Min bir həvəslə tikib-qurduğu, dar məqamda qoyub getməyə məcbur olduğu evinin kalafaları ürək dağlayır. Dağ basılmış yurdun ağrı-acısını canında, iliyində hiss edir.

Soyunun, nəslinin beşiyi olmuş doğma kənd indi tanınmaz haldadır. Bütöv bir xarabalığa çevrilmiş kənd bu miskin halı ilə uşaqlığının, yeniyetməliyinin, gəncliyinin keçdiyi yerlərlə bağlı xatirələrini şüşə kimi çilik-çilik edir. O unudulmaz, əziz günlərə şahid olmuş heç nə gözə dəymir. Yol-cığırlar kol-kos içində itib-batıb, salamat bircə ev saxlanmayıb, oxuduğu məktəbin isə heç izi-tozu belə qalmayıb...

Əhməd kişi sonda dualarının, diləklərinin, axır ki, eşidildiyini, möhtərəm Prezidentimiz İlham Əliyevin komandanlığı ilə qəhrəman Ordumuzun Vətəni yağı caynağından xilas etdiyini, dövlətimizin başçısının yurdun yaşı min illərlə hesablanan tarixini düşmənin pozmasına imkan vermədiyini söyləyərək düşmənin viran qoyduğu Qarabağın tezliklə gülüstana çevriləcəyinə əminliyini də dilə gətirdi.

Daha sonra Qarğabazardakı karvansaraya baş çəkirik. İlk nəzərimizi cəlb edən karvansaranın həyətinin girişində iki şəhidin fotosu asılan lövhə olur. Hər iki şəhid – Cəmil Mirzəyev və Cəmaləddin Ağayev Birinci Qarabağ müharibəsi zamanı canlarından çox sevdikləri dogma torpaq uğrunda şəhadətə yüksəliblər…

Kəndin mərkəzində çox da hündür olmayan təpənin döşündə inşa olunan bu karvansara daha çox istehkamı, qalanı xatırladır. Görünür, bu, tacirlərin təhlükəsizliyi ilə bağlı olub. Abidənin qədim karvan yolu üzərində yerləşməsi onu göstərir ki, Qarğabazar tarixən geniş ticarət əlaqələrinə malik olub. Əlverişli coğrafi mövqeyi və iqlimi ərazidə ticarətin geniş səviyyədə təşəkkülünə təkan verib. Tacirlər burada dincəlməklə yanaşı, gətirdiklərini satıb, mal alıblar. Deyilənlərə görə, yaxınlıqda bazar da olub…

Onu da qeyd edək ki, 1861-ci ildə tikilmiş bu karvansara həm də “Şah Abbas karvansarası” kimi tanınıb. Onun partalının birinci yarımdairə tağbənd ilə ondan nisbətən böyük olan ikinci oxvari tağbəndləri arasında xüsusi şəkildə yerləşdirilmiş üç ədəd kvadrat formalı daş var. Kənardakıların üzərində zoomorf və həndəsi ornamentlər işlənilib. Həmin daşların arasındakı nisbətən böyük daşın üzərində isə karvansara memarının adı və tikilmə tarixi həkk olunduğu güman edilir. Lakin orada tədqiqat işləri aparanda heç bir yazı nümunəsi qalmayıb. Bu məsələ ilə əlaqədar kəndin yaşlı sakinlərin dediyinə görə, burada, doğrudan da, əski əlifba ilə yazılmış yazı nümunəsi olub.

Karvansarada yaşayış otaqları girişlə üzbəüz, uzun həyətin ensiz şimal tərəfindədir. Bu otaqların əhəmiyyəti onların relyefin hündür yerində tikilməsində də özünü göstərir. Heyvanları saxlamaq üçün də xüsusi yer olub. Onun yanındakı təpənin üstündə məscid yerləşir. Məscidin qapı çatı üzərindəki yazıdan Qarğabazar kəndinin kəndxudası Hacı Qiyasəddin tərəfindən inşa etdirildiyi aydınlaşır. Həmin məscidin qapı çatı üzərindəki kitabədə yazılıb: “Bu məscidi Böyük Allahın mərhəmətli bəndəsi Hacı Qiyasəddin tikdirib. h. t. 1095”. Bu da miladi tarixi ilə 1683-84-cü illərə təsadüf edir.

Hacı Qiyasəddin məscidi eyvansızdır. Tamamilə yerli daş materialları ilə tikilmiş bir zaldan ibarətdir. Dam örtüyü tağtavan şəkilindədir. Giriş qapısı nəzərə alınmasa, burada ağac materialından istifadə olunmayıb. Məscid kəndin mərkəzindəki sal qayalı təpənin üstündə inşa edilib və tarixi abidə kimi qorunur. Vətən müharibəsində parlaq qələbə nəticəsində azad edilən bu tarixi-memarlıq abidəsi işğal dövründə düşmən tərəfindən mal tövləsi kimi istifadə olunub.

Bu abidələrdən təqribən 100 metr aralıda, təpə üzərində qədim qəbiristanlıq var. Dağıdılmış evlərin divarlarından aydın olur ki, kənd sakinləri sovet dövründə də yaxşı yaşayıblar.

### Qazax və özbəklərin qardaşlıq məramı

Füzulidə bərpa və yenidənqurma işləri sürətlə davam edir. Aparılan irimiqyaslı tikinti- quruculuq işlərinin tarixi-strateji önəmi burada həyat üçün zəruri olan bütün şəraitin yaradılmasına, sistemli, ardıcıl proqlamların həyata keçirilməsinə imkan verir. Bu baxımdan cari il istifadəyə veriləcəyi planlaşdırılan Özbəkistan və Qazaxıstan tərəfindən inşa edilən tam orta məktəbin, Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin tikintisi mühüm önəm daşıyır.





**Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Eldar Seyidov bildirir ki,** Kurmanqazi adına Yaradıcılığın İnkişafı Mərkəzinin tikintisi Qazaxıstan Respublikasının ianəsi əsasında həyata keçirilir və layihəni dost ölkənin “Bİ-Group” şirkəti həyata keçirir. Azərbaycan tərəfdən isə NİCO şirkəti burada subpodratçı kimi fəaliyyət göstərir.

**Layihəyə əsasən, Yaradıcılığın İnkişafı Mərkəzi Füzuli şəhərində ümumi sahəsi 1,5 hektar olan ərazidə inşa olunur. Tikintinin sahə rəisi Pavel Qraçov deyir:**

– Mərkəzin layihəsi Qazaxıstanda hazırlanıb, sonradan Azərbaycan şəraitinə uyğunlaşdırılıb. Biz üzərimizə düşən işləri keyfiyyətlə yerinə yetiririk. Tikinti materialları ilə təchizat yüksək səviyyədədir. Mərkəzi vaxtında təhvil verəcəyik.

**Mühəndis Sungat Turekulov isə tikinti meydanında görülən işlər barədə məlumat verir:**

– Bu layihə Azərbaycan ilə Qazaxıstan arasındakı ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə incəsənət sahəsi üzrə təhsilin genişlənməsinə və yaxın bölgələrdən olan istedadlı gənclərin bir araya toplanmasına öz töhfəsini verəcək.

Füzulidə qardaş Özbəkistan tərəfindən isə 960 şagird yerlik tam orta məktəb binasının inşası uğurla reallaşdırılır. Məktəb binasının tikintisinin bu ilin sentyabrınadək yekunlaşması nəzərdə tutulur. Şəhərə qayıdan ilk şagirdlər məhz bu məktəbdə təhsil alacaqlar. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu təhsil müəssisəsi Azərbaycan və Özbəkistan xalqlarının qardaşlığının rəmzi olacaq.

Yeri gəlmişkən, məktəbin tikintisini Prezident İlham Əliyev yüksək qiymətləndirib. Dövlətimizin başçısı Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşdə deyib: “Biz Qarabağı hələlik öz gücümüzlə bərpa edirik. Əlbəttə, qardaşlıq münasibəti bizim üçün çox qiymətlidir. Ona görə ki, İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra biz Şavkat Miromonoviçlə görüşəndə o belə bir təşəbbüs irəli sürdü və bu təklif minnətdarlıqla qəbul edildi. Bu məktəb praktiki baxımdan həm də bizim qardaşlığımızın rəmzi olacaq, yüzilliklər boyu Azərbaycan xalqının xatirində qalacaq”.

### Qədim Qarabağın yeni şəhəri

Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən Füzuli şəhərində inşa edilən yaşayış kompleksi ümumi sahəsi 8,9 hektardır. Bu yaşayış kompleksi 38 binadan ibarətdir. Hazırda kompleksin inşası sürətlə davam etdirilir. Artıq 6 binada dəmir-beton konstruksiyalarının quraşdırılması işləri başa çatdırılıb, digər 6 binada isə bu cür tikinti əməliyyatları yekunlaşmaq üzrədir. Xarici və daxili divarların hörgüsü və suvaq işləri də tamamlanma mərhələsindədir. Tikinti işlərinin 2023-cü ilin sonunadək başa çatdırılması planlaşdırılır.

Kompleksdə bütün mənzillər tam təmirli olacaq, mətbəx mebeli və qaz sobası, su, qaz və elektrik sayğacları ilə təchiz ediləcək. Bütün binalar liftlə və mərkəzləşdirilmiş qazanxana vasitəsilə istiliklə təmin ediləcək.

Yaşayış binaları ilə yanaşı, ərazidə park, sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək.

### Su gələn arxa bir də gəlir

Füzuli rayonu Azərbaycanın ən iri kənd təsərrüfatı rayonlarından biridir. İşğal altında olan torpaqlarımızın azad edilməsi bölgədə kənd təsərrüfatının bərpası və yenidən inkişaf etdirilməsi üçün geniş imkanlar yaradıb. Yeni ərazilərin əkin dövriyyəsinə daxil edilməsi məhsul istehsalını artıracaq. Buna paralrel olaraq suvarma sistemləri də yenidən qurulur. Hazırda rayonun düşməndən təmizlənən ərazisində Köndələnçay-1, Köndələnçay-2 və Aşağı Köndələnçay su anbarları mövcuddur. 1-ci və 2-ci Köndələnçay su anbarları Aşağı Köndələnçay su anbarının qidalandırılması rolunu oynayır. Otuz il baxımsız qaldığı üçün hər 3 anbar qəzalı vəziyyətə düşüb. Buna görə də anbarların suyu boşaldılıb, bəndlərdə, suburaxıcı qurğularda, selötürücü kanallarda təmir işləri həyata keçirilir. İşlər paralel olaraq hər 3 anbarda aparılır. Anbarların bərpası başa çatdıqdan sonra sudan rayonunun həm işğaldan azad edilmiş, həm də işğal olunmamış kəndlərinin sakinləri yararlanacaqlar.

*Vaqif BAYRAMOV,*
*Səbuhi MƏMMƏDOV,*
*Pünhan ƏFƏNDİYEV,*
*“Xalq qəzeti”,*

*Əbülfəz BABAZADƏ,*
*“Bakinski raboçi”*

**Bakı–Füzuli–Bakı**

# Rusiya-Ukrayna müharibəsi: mümkün ssenarilər və gözləntilər

**Bir neçə gündür ki, qlobal mediada Ukraynanın genişmiqyaslı əks-hücuma keçdiyi barədə xəbərlər dolaşırdı. Bu məlumatlar rəsmi Kiyev tərəfindən nə təsdiq, nə də təkzib olunurdu. Nəhayət, dünən Prezident Volodimir Zelenski ölkəsinin Rusiyaya qarşı əks-hücuma keçdiyini təsdiqləyib. Məlumatı UNİAN agentliyi yayıb.**



Dövlət başçısı deyib: "Kiyevin uzun müddətdir ki, Ukraynanın Rusiyanın işğal etdiyi əraziləri geri almaq üçün əks-hücuma hazırlaşdığı ehtimal olunurdu. Bəli, hazırda əks-hücum və müdafiə tədbirləri həyata keçirilir". Lakin Prezident hərbi əməliyyatların hazırda hansı mərhələdə olduğunu açıqlamayıb.

Qərb analitikləri Ukrayna Silahlı Qüvvələrinin hücum əməliyyatından sonra üç mümkün ssenaridən söz açırlar. Böyük Britaniyanın "Ekonomist" nəşri yazır ki, birinci ssenari üzrə Ukrayna ciddi irəliləyişə nail olacaq və ölkənin şərqindəki ərazilərinin böyük bir hissəsini azad edəcək, üstəlik Krımı geri qaytarmaq üçün hücuma hazırlaşacaq.

Belə bir ciddi itkilərdən sonra Rusiyada hakimiyyət dəyişikliyinin baş verəcəyi qaçılmaz olacaq. Qərb üçün bu ssenari çox arzuolunandır. Lakin hadisələrin belə gedişi Rusiyada xaos yarada və nüvə arsenalına nəzarət itirilə bilər.

İkinci variant isə budur ki, Ukraynanın əks-hücumu nəticəsində Rusiya az itki verir və Kremldəki hazırkı iqtidarın mövqeləri yalnız müəyyən qədər zəifləmiş olur.

Ukrayna və Qərb üçün ən ağır hesab olunan ssenari isə budur ki, əks-hücum uğurlu alınmır, hərbi əməliyyatlar dalana dirənir və Rusiya zəbt etdiyi torpaqları özündə saxlayır. Bu, variant Qərbin Ukraynanın uğuruna olan inamını sarsıda və Putinin hakimiyyətini gücləndirə bilər.

Siyasi təhlilçilər vurğulayırlar ki, Rusiya hakimiyyəti hələ də Ukraynanı özünə tabe etmək, Kiyevdə əldəqayırma rejim qurmaq planlarından əl çəkməyib. Bunun üçün Kreml münaqişənin uzun aylar və hətta illər boyu uzanmasında maraqlıdır.

"Ekonomist" nəşri həmçinin yazır ki, müharibənin uzanmasının qarşısını almaq üçün Ukrayna ordusu cəbhədə mütləq nəzərəçarpan uğurlar əldə etməli, eyni zamanda Qərb Ukraynaya hərtərəfli yardımları artırmalıdır: "Əgər Qərb Ukraynanın müdafiəsinə və bu ölkənin dağıdılmış infrastrukturunun bərpasına uzunmüddətli və hüquqi əsaslandırılmış zəmanətlər verərsə, Kremlin Qərbin "bezməsi" ilə bağlı ümidləri yoxa çıxa bilər.

Hazırda oxucuları ən çox cəbhədə yaranmış real vəziyyət maraqlandırır. Son məlumatlara əsasən, Ukrayna qoşunları şərqdə Baxmut, cənubda isə Zaporojye yaxınlığında az da olsa irəliləyirlər və Rusiyanın müdafiə istehkamlarına uzaq məsafədən hücumlar təşkil edirlər.

Ukrayna iddia edir ki, bu ölkənin hərbi birləşmələri uğurlu əks-hücum əməliyyatları zamanı Donetsk vilayətinin Neskuçne, Blaqodatnı və Makarovka yaşayış məntəqələrini Rusiya hərbçilərindən azad edib.

Ukraynanın müdafiə nazirinin müavini Anna Malyar "Teleqram" kanalında hücumun həyata keçirildiyi əsas istiqamətlər barədə danışaraq, Ukrayna qoşunlarının Baxmut bölgəsində hücum əməliyyatlarını davam etdirdiyini qeyd edib. "Berxovsk su anbarı ərazisində uğur var. Biz 250 metr irəliləmişik" – deyə o bildirib. Bundan əlavə, Malyarın sözlərinə görə, "iki istiqamətdə 300 metrdən 1 500 metrə qədər irəliləyiş var".

Təzad bundadır ki, Ukrayna irəlilədiyini, Rusiya isə hücumları dəf etdiyini iddia edir. Belə bir şəraitdə isə cəbhədəki real vəziyyəti dəyərləndirmək çətindir.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

## *Ekspert rəyi*



**Aydın İBRAHİMOV,**
**BDU-nun xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor**

Rusiya-Ukrayna müharibəsi geriyə dönüşün mümkün olmadığı bir mərhələyə qədəm qoyub. Kaxovka SES-in dağıdılması hər iki tərəf üçün qırmızı xəttin keçilməsi demək idi.

Ukrayna müharibəsi son 100 ildə baş vermiş digər müharibələrdən fərqlənir. Məsələnin mürəkkəbliyi bundadır ki, burada təkcə keçmiş SSRİ-nin iki aparıcı respublikası deyi, həm də dil, mədəniyyət, tarix, coğrafiya və mentalitet baxımından bir-birlərinə çox yaxın olan xalqlar qarşı-qarşıya gəliblər.

Fikrimcə, bu münaqişə XVIII-XIX əsrlərdə dövlətlər arasında torpaq üstündə aparılan amansız müharibələrə bənzəyir.

Faciə həm də bundadır ki, hazırda istifadə olunan silahlar həmin dönəmdəki silahlardan onqat-yüzqat güclüdür.

Təəssüf ki, tərəflərin döyüşkən ritorikası yaxın gələcəkdə sülh danışıqlarına başlamaq imkanlarını heçə endirir. Qərb bəyan edir ki, nə qədər ki, Ukrayna döyüş meydanında qələbə qazanmayıb, sülh mümkünsüzdür. Ukraynanın cəbhədə nəzərəçarpan uğuru olacaqmı, bunu demək çətindir.

Rusiyanın ağır məğlubiyyəti nəyə gətirib çıxara bilər? Bunu da heç kim bilmir. Bu, ölkənin dağılmasına, orada yaşayan xalqların yeni faciələrinə yol açarmı? Suala birmənalı cavab vermək çətindir.

Başqa bir problem isə budur ki. Rusiyanı qlobal geosiyasətdə kim əvəz edə bilər? Bundan başqa, Rusiya ilə Çinin yaxınlaşması baş verə bilərmi? Bu zaman Çin geniş Asiya coğrafiyasında tam dominantlıq əldə edəcəkmi?

Göründüyü kimi, suallar çoxdur, konkret cavablar isə hələlik yoxdur.

Bu müharibənin sonu görünmür, Ukrayna Qərbdən yeni silahlar alacağına, Rusiya isə yeni silahlar istehsal edəcəyinə ümid bəsləyir.

# Türkiyə Prezidenti: Konstruktiv siyasətimizə davam edəcəyik



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan yenidən dövlət başçısı seçildikdən sonra Şimali Kipr Türk Respublikasına (ŞKTR) səfər edib.**

Türkiyənin dövlət başçısı ŞKTR-in Prezidenti Ersin Tatar ilə keçirdiyi birgə mətbuat konfransında Ankaranın Kiprin iki hissəsi ilə bağlı konstruktiv siyasətinin davam edəcəyini deyib. Onun sözlərinə görə, adanın türk və yunan hissəsi arasında nizamlanma prosesi 50 ildir ki, davam edir. "Biz daha 50 il də gözləyə bilmərik", – deyən Rəcəb Tayyib Ərdoğan əlavə edib ki, Ankara, həmçinin ŞKTR-in Aralıq dənizində ona aid olan karbohidrogen ehtiyatları ilə bağlı hüquqlarını müdafiə edəcək.

Yunanıstanla əlaqələrin yaxşılaşmasına toxunan Türkiyə Prezidenti bildirib ki, iki ölkə arasında problemin yeganə həlli sülh yoludur. "Biz Egey dənizinin sülh dənizi kimi dünyaya mesaj verməsini istəyirik", – deyə o vurğulayıb.

# "Berluskonizm"in sonu

## İtaliya siyasətinin fenomenal adamının həyat yolu ilə bağlı qeydlər

**İtaliyalı populyar siyasətçi və iş adamı, 1994, 2001-2006 və 2008-2011-ci illərdə ölkənin baş naziri postunu tutmuş, dünya siyasətinin ambisioz füquru kimi tanınmış Silviya Berluskoni dünən vəfat etdi. Bununla da İtaliyada Berluskoni erasının başa çatdı.**

S.Berluskoni "Milan" futbol klubu da daxil olmaqla, ölkə həyatının demək olar, bütün sahələrində fəaliyyət göstərən və tərkibində 150-yə yaxın şirkəti birləşdirən "Fininvest" Holdinqin sahibi idi. İtaliyanın ən zəngin sakini olan media maqnatı dəfələrlə gəlirləri gizlətmək və rüşvət ittihamı ilə məhkəmə qarşısına çıxarılmışdı. Ümumən, onun hadisələrlə, qalmaqallarla dolu həyat yaşadığını söyləyə bilərik. Gecə-gündüz işləmək bacarığına görə isə yerliləri Berluskonini kavalyer (italyancadan "cavaliere del lavoro" əmək centlmeni deməkdir – red.) adlandırdılar. Maraqlıdır ki, Silviya özünü hər şeyi satmağa qadir adam kimi görür və bunu deyirdi. Siyasətə gəldikdə, bu meydandakı təmsilçiliyini İsa Məsihə layiq qurban olaraq qələmə verirdi.

Silvio Berluskoni 29 sentyabr 1936-cı ildə Milanda anadan olub. 1961-ci ildə Milan Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirib. Ali təhsil aldıqdan sonra Milanda tikinti biznesində çalışıb. 1970-ci illərdə telekommunikasiya ilə məşğul olub və on il yarımdan sonra özəl televiziya yayımı bazarında mütləq liderlik qazanıb. Nəzərə alaq ki, 1990-cı illərin əvvəllərində İtaliyanın RAI dövlət televiziyası ilə Berluskoninin sahibi olduğu "Fininvest" arasında ikili monopoliya yaranmışdı. Onu da nəzərə alaq ki, "Fininvest"in ölkə həyatının bütün sahələrində fəaliyyət göstərməsi ("Milan" futbol klubu da daxil olmaqla – red.) ictimai həyatda "Berluskonizm" ifadəsini doğurmuşdu.



Nəhayət, 1993-cü ildə Berluskoni özünü siyasətdə sınamaq qərarına gəlir. Qərara gəlir və dünyanın siyasi tarixində fenomenal rekorda sahib olur. Belə ki, 1994-cü ilin yanvarında özünün ilk partiyasını "Forza İtaliya"nı ("İrəli İtaliya") yaradaraq, cəmi 60 gün sonra parlament seçkilərində qalib gəlir və koalisiyon hökumətdə baş nazir vəzifəsini icra edir. Berluskoniyə ünvanlanmış kəskin tənqidlər və koalisiya müttəfiqləri arasında fikir ayrılıqları səbəbindən, hökumət cəmi 7 ay ömür sürür. Bundan sonra o, 1996-cı ildə keçirilmiş ümumi seçkilərdə də məğlubiyyətə uğrayır, prosesi Romano Prodinin mərkəz sol blokuna uduzur.

2001-ci il mayın 15-də keçirilmiş seçkilərdə yeni sağ mərkəzçi bloku - "Azadlıq evi" qalib gəldikdən sonra, Berluskoni yenidən hökumətə rəhbərlik etməyə başlayır. O, seçkiqabağı vədlərinə vergilərin və bürokratiyanın azaldılmasını, pensiyaların və iş yerlərinin artırılmasını, qeyri-qanuni immiqrasiya ilə mübarizəni daxil edərək, qələbə qazanmışdı. Bu platformaya təhsil, səhiyyə və məhkəmə sistemlərində də islahatların aparılması daxil idi. Beləcə Silviya 2003-cü ilin sentyabrında baş nazir kimi İtaliyanın dövlət sistemində genişmiqyaslı islahatın başlandığını elan edir. Amma bunadək, yəni 2002-ci ildə ölkənin Avrozonaya daxil olması ilə qiymətlərin artması, əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi və sosial durumun kəskinləşməsi müşahidə edilmişdi. Ümumən, 2002 və 2003-cü illərdə İtaliyanı kütləvi etirazlar dalğası bürümüşdü. Qeyd edək ki, həmin illərdə əhali Berluskoninin xarici siyasətindən də narazı idi. Belə ki, 2001-ci il "11 sentyabr" terrorundan sonra İtaliya ABŞ-ın Əfqanıstandakı və İraqdakı hərbi kampaniyalarını fəal şəkildə dəstəkləmişdi. Xalq isə bu xətti bəyənməmişdi.

2005-ci ilin aprelində "Azadlıq evi" koalisiyası regional seçkilərdə sarsıdıcı məğlubiyyətə uğradı və Berluskoni konstitusiyaya uyğun olaraq, rəsmi qaydada istefa verməyə məcbur oldu. Həmin ilin aprelində keçirilmiş ümumi seçkilərdə də onun tərəfdarları uğursuzluqla üzləşdilər. Sol-mərkəzçilərin qələbəsi Konstitusiya Məhkəməsi tərəfindən təsdiqlənsə də, siyasətçi və media maqnatı öz postunu çox könülsüz tərk etdi. O, yalnız 2006-cı il mayın 2-də rəsmi istefa verdi.

2008-ci il aprelin 13-14-də keçirilmiş seçkilərdə Berluskoninin yeni partiyası "Azadlıq xalqı" və onun sağ mərkəzçi koalisiyadakı müttəfiqləri qalib gələrək, İtaliya parlamentinin hər iki palatasında səsçoxluğu əldə etdilər. Lakin 2011-ci ilin payızında üzvlərinin əksər hissəsinin ayrılması səbəbindən, "Azadlıq xalqı" parlamentdəki çoxluğunu itirdi və 2011-ci il noyabrın 12-də Berluskoni baş nazirlikdən istefa vermək məcburiyyətində qaldı.

Əvvəldə də vurğuladığımız kimi, Berluskoni karyerası boyu dəfələrlə gəlirləri gizlətmək və rüşvət vermək, həmçinin mafiya ilə əlaqədə olmaq və qeyri-qanuni maliyyələşdirmələrdə ittiham olunaraq, məhkəmə qarşısına çıxarılıb. Uzun müddət vəkilləri apellyasiya məhkəmələrinə müraciət etməklə, onu məsuliyyətdən xilas edə biliblər. Yalnız 2012-ci ildə Berluskoni "Mediaset" media şirkətində maliyyə fırıldaqçılığı işində təqsirli sayılaraq, bir il müddətinə azadlıqdan məhrum edilib.

Berluskoninin "xalqın adamı" obrazından sui-istifadəyə yol verərək, ölkənin ən zəngin adamına çevrildiyi bildirilir. 2005-ci ildə nüfuzlu "Forbes" jurnalı onun sərvətini 12 milyard dollar qiymətləndirmişdi və planetin ən varlı adamları reytinqində 25-ci olmuşdu. Lakin 2008-ci ilin payızında qlobal maliyyə böhranı nəticəsində, bir milyard yarımdan çox pul itirərək, reytinqdə yenidən 90-cı yerə yuvarlanmışdı.

S.Berluskoni 86 illik həyatında iki dəfə ailə qurmuşdu. Onun birinci evliliyindən iki, ikinci evliliyindən isə üç övladı var.

***R.AMİN***

# Tramp prezidentliyə iddiasında israrlıdır



**ABŞ-ın sabiq prezidenti Donald Tramp iyunun 13-də məxfi sənədlərin icazəsiz saxlanması ilə bağlı Florida ştatında məhkəmə qarşısına çıxacaq. Həmin gün o, öz seçki kampaniyası üçün 2 milyon dollar da toplamaq niyyətindədir. Bu barədə "Politico" nəşri məlumat yayıb.**

Nəşrin məlumatına görə, ianə aksiyası məhkəmədə rəsmi ittihamlar irəli sürüldükdən bir neçə saat sonra, Nyu-Cersi ştatının Bedminster şəhərindəki qolf klubunda baş tutacaq. 100 min dollardan çox ianə verən eks-prezidentin tərəfdarları şam işığında özəl yeməkdə iştirak edəcəklər. Bu barədə dəvətnamədə də məlumat verilib. Daha az ianə verənlər isə Trampla şəkil çəkdirəcək və VIP qəbulda iştirak edəcəklər.

Qeyd edək ki, ianə ilə bağlı belə bir tədbirin keçirilməsi hələ ona yeni ittihamlar irəli sürülməzdən əvvəl planlaşdırılmışdı.

Göründüyü kimi, Tramp növbəti cinayət işinə baxmayaraq, siyasi fəaliyyətini davam etdirəcək. "Mən heç vaxt mübarizəmi tərk etməyəcəyəm. Baxın, mən getmək istəsəydim, 2016-cı ildə ilkin prezidentlik yarışından əvvəl çıxıb gedərdim. Çətin idi. Nəzəri cəhətdən mümkün deyildi", - deyə keçmiş ABŞ lideri qeyd edib.

O, hazırkı prezident Co Baydeni ən güclü siyasi rəqibini həbs etməyə çalışmaqda ittiham edib və bildirib ki, ona qarşı ittihamlar Baydenin rəhbərliyi ilə ABŞ administrasiyasının təsiri altında hazırlanıb.

Trampın tərəfdarları da onun müdafiəsinə qalxıblar. Arizonalı konqresmen Endi Biqs deyib ki, ABŞ-ın Respublikaçılar Partiyası Trampın müdafiəsinə qalxmalı və Co Baydeni, eləcə də oğlu Hunter Baydeni mühakimə etməlidir. Konqresmen həmçinin hesab edir ki, Ədliyyə Nazirliyi siyasi alətə çevrilib.

Xatırladaq ki, Florida Cənub Dairə Məhkəməsinin elektron məlumat bazasında yerləşdirilmiş ittiham aktına əsasən, ABŞ hüquq-mühafizə orqanları Tramp və onun köməkçisi Uolt Nautaya qarşı 38 maddə üzrə ittiham irəli sürüb. Sənəddə göstərilir ki, ABŞ Federal Təhqiqatlar Bürosunun əməkdaşları keçən ilin avqustunda Trampın Florida ştatındakı Mar-a-Laqo malikanəsində apardıqları axtarış zamanı ümumilikdə 102 sənəd ələ keçiriblər. On yeddi sənədin üstündə "tam məxfi" qrifi olub. Bütün ittihamlar üzrə ümumi həbs müddəti isə 400 ilə qədər ola bilər.

Nəşr qeyd edib ki, Trampa qarşı irəli sürülən ittihamlar onun Ağ ev uğrunda mübarizədə iştirakını mümkünsüz etmir.

Bu arada gələn il ABŞ-da keçiriləcək prezident seçkilərində Respublikaçılar və Demokratların vahid namizədlərini müəyyən etmək üçün partiyaların daxilində rəqabət güclənir. Hər iki partiyada Ağ evə yeni iddiaçılar meydana çıxır. ABŞ-ın 80 yaşlı hazırkı Prezidenti yenidən öz namizədliyini irəli sürür. Demokratlar partiyasından onunla rəqabət aparacaq əsas fiqurlar Robert Kennedi (kiçik) və yazıçı, siyasətçi Marianne Villyamsondur. Siyasi analitiklər bildirirlər ki, hazırda bu partiyada Baydenin vahid namizəd göstərilmə şansı daha çoxdur.

Respublikaçılardan prezidentliyə vahid namizədlər arasında Donald Trampla yanaşı, daha 10 siyasətçi prezidentliyə vahid namizəd olmağa iddialıdır. Rəqib Demokratlardan fərqli olaraq, bu partiyada rəqabətin daha gərgin olduğu bildirilir. Belə ki, namizədlər arasında ABŞ-ın keçmiş vitse-prezidenti Mayk Pens, Florida ştatının qubernatoru Ron De Santis, partiyada Trampın ən sərt tənqidçisi, senator Liz Çeyni, keçmiş milli təhlükəsizlik müşaviri Con Bolton, Birləşmiş Ştatların daha 4 ştatının qubernatorları var. Maraqlıdır ki, eyni partiyanın üzvü olsalar da, bu namizədlərin əksəriyyəti 76 yaşlı Donald Trampın siyasətini tənqid edən siyasətçilərdir.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"***

**Düz bir həftə idi ki, paytaxtımızda ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş İkinci Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı (II LitBookFest) qardaş xalqların sənətsevərlərini öz qanadları altına almışdı.**

Festivalın açılış törəni xüsusilə yaddaqalan oldu və dünyaya səs saldı. Xarici telekanallarda bu barədə reportajlar yayımlandı. Qarabağ müharibəsi qazilərinə həsr olunan “Əsgərnamə elegiyası” və “İgidlərin sözü” layihələrinin uğurlu təqdimatı ilə açılan festival daha sonra türk dünyasının ünlü sənət və söz adamlarının çıxışları ilə daha da təsirli oldu. Bayramın hər günü bir ölkəyə həsr olunurdu. Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Macarıstan günləri dost diyarlara özünəməxsus qiyabi səyahət təsiri bağışlayırdı. Eyni zamanda müxtəlif elmi konfranslar, simpoziumlar, şeir saatları, imza günləri festivalı daha da dolğunlaşdırır. Dünən qədim türk diyarı Qırğızıstanın tarixi mədəni irsi və çağdaş ədəbiyyatı ətraflı təqdim olundu.

Burada əsl bayram əhvali-ruhiyyəsi vardı. Bizə elə gəldi ki, təkcə müəlliflər və çox sayda oxucular deyil, kitabların özləri də bu canlı ünsiyyətdən çox “sevinir”. Axı, kitabın ömrü şamın ömrü kimidir. Böyük şairimiz Bəxtiyar Vahabzadə demişkən, şam yananda yaşadığı kimi, hər bir kitab da oxunanda, təqdir və təbliğ ediləndə xoşbəxt olur. Tədbirin təşkilatçıları “oxucu-kitab dialoqu”nu təşkil etməkdə bu amili də əsas götürüblər.

Azərbaycan Yazıçılar Birliyinin (AYB) mətbuat xidmətinin rəhbəri, şair Xəyal Rza bizimlə söhbətində qeyd etdi ki, festival Beynəlxalq Türk Müəllifləri Birliyinin təşkilatçılığı, AYB, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Milli Məclisin Mədəniyyət Komitəsi, AMEA, Bakı Şəhər İcra Hakimiyyəti və Türk dünyası təşkilatlarının dəstəyi ilə gerçəkləşib. Onun sözlərinə görə, festivalda 50-dən çox nəşriyyat, onlarla xarici ölkə nümayəndəsi iştirak edib, həmçinin müxtəlif sahələrə dair nəşrlər, eləcə də rəngkarlıq və qrafika sənəti üzrə əl işləri təqdim olunub. AYB-nin mətbuat katibi həmçinin bildirdi ki, festival çərçivəsində elmi konfranslar, şeir saatları, imza günləri təşkil edilib, filmlər nümayiş olunub. Tədbirlər hər gün bir ölkənin adı ilə (Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Macarıstan) adlandırılıb.

İnamla deyək ki, festivalın hər gününün ayrıca xoş təəssüratları oldu. Məsələn, Özbəkistan tarixinin görkəmli şəxsiyyətlərindən olan dahi hökmdar və şair Babura həsr edilmiş “Zahirrədin Məhəmməd Babur – 540” paneli ayrıca qeyd edilə bilər. Panelə moderatorluq edən filologiya elmləri doktoru Almaz Ülvi Binnətova dedi: “Şairin yazdığı “Baburnamə” bütövlükdə bir özbək tarixidir”. Baburun Şah İsmayıl Xətai ilə dostluq əlaqəsinə toxunan alim xanım bu münasibətləri yüksək qiymətləndirdi.

Sonra çıxış edən filologiya elmləri doktoru Ramiz Əsgər qeyd etdi ki, Özbəkistan türk dünyasında ən mühüm yer tutan ölkələrdən biridir. Minillik tarixi olan şəhərləri, özünəməxsus memarlıq abidələri var. Əmir Teymur, Əlişir Nəvai, Zahirrədin Məhəmməd Babur kimi tarixi şəxiyyətləri yetişdirən bir millətin böyüklüyündən fəxrlə danışmaq olar. Natiq Baburun həyat və yaradıcılığından bəhs edərkən onu Əlişir Nəvaidən sonra özbək ədəbiyyatının ikinci zirvəsi adlandırdı.

Özbəkistanlı yazıçı Məmmədqulu Həzrətqulov, Daşkənd İncəsənət və Mədəniyyət Universitetinin professorları Marufjon Yuldaşev və Şavkat Bobomuradov çıxış edərək xoş sözlərə və gözəl təşkilatçılığa görə minnətdarlıqlarını bildirdilər. Xalq artisti Gülyanaq Məmmədovanın iştirakı ilə konsert proqramı başlandı. “Şeir Adam”, “Əlişir Nəvai inciləri” və s. kimi panellərin keçirldiyi gün “Maya” filminin nümayişi ilə tamamlandı.

Bakıya təşrif buyurmuş şair və yazıçılar, naşir və tənqidçilər tədbirə, təbii ki, əliboş gəlməmişdilər, özlərinin “övladlar”ı – mənsub olduqları toplumlarda nəşr edilmiş dəyərli əsərlərlə gəlmişdilər. Qonaqlar bakılı oxuculara böyük həvəslə milli ədəbiyyatları barədə də söz açırdılar.

# Turan birliyinin Bakı körpüsü – əbəbiyyat və kitab bayramı



Festival çərçivəsində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən "Qazax ədəbiyyatı günü” də uğurla keçdi. Kitab sərgisində qazax yazıçılarının, tarixçilərinin və akınlarının qazax və Azərbaycan dillərində əsərləri təqdim olundu. Tədbir "Qazax xalqının Türk dövlətçiliyi tarixinə töhfəsi” mövzusunda panel sessiyaları ilə davam etdi. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Yazıçılar Birliyinin, Azərbaycan Elmlər Akademiyasının, Qazax icmasının və kütləvi informasiya vasitələrinin nümayəndələri də orada idilər. Festivalın əlaqələndiricisi, şair Xəyal Rza Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun türk xalqlarının irsinin öyrənilməsi, qorunması və təbliği istiqamətində gördüyü genişmiqyaslı işləri yüksək qiymətləndirərək, Festivalda fəal iştirakına görə təşkilata təşəkkürünü bildirdi.

Mərasimdə çıxış edən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun layihə meneceri – Qazaxıstan nümayəndəsi Talqat Muxanov Fondun qurucu üzv ölkələrindən biri olan Qazaxıstanla mövcud əlaqələrindən və təşkilat tərəfindən Türk dünyasının çoxəsrlik tarixinin, zəngin mədəniyyətinin təbliği məqsədilə həyata keçirilən tədbirlərdən bəhs etdi. Tədbirdə Qazax xalq musiqisi səsləndi və Abayın şeirləri oxundu.

Fondun himayəsi altında “Məhdimqulu Fəraqi və Azərbaycan ədəbiyyatı" adlı tədbir də maraqla qarşılandı. Şair Fərid Hüseyn təşkilatın Türk dünyasının maddi – mənəvi dəyərlərinin beynəlxalq miqyasda təbliği istiqamətindəki fəaliyyətindən bəhs etdi. Növbəti il 300 illik yubileyi qeyd olunacaq Məhdimqulu Fəraqinin yaradıcılığının da Fond tərəfindən daim diqqət mərkəzində olduğunu vurğuladı.Ədəbiyyatçı alim İsmixan Osmanlı Fəraqinin əsərlərinin Azərbaycan oxucularının böyük marağına səbəb olduğunu da bildirdi.

Türkmənistan Elmlər Akademiyasının Məhdimqulu Fəraqi adına Dil, Ədəbiyyat və Milli Əlyazmalar İnsitutunun şöbə müdiri, tanınmış mətnşünas alim Rəhmanberdi Qodorov və insitutun əməkdaşı Məqsəd Meredov çıxış edərək, görkəmli şairin Azərbaycanda nəşr edilən əsərləri, eləcə də haqqında yazılan çoxsaylı elmi araşdırmaları yüksək qiymətləndiridiklərini bildirdilər. Sonra Firudin bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşları Cavidan Səfərli və Lamiya Əliyevanın ifasında Fəraqinin şeirləri səsləndirildi və tədbir iştirakçıları görkəmli şair haqqında yayımlanan kitabların sərgisi ilə tanış oldular.

Festivalın son günü Macarıstan dövlətinə həsr edildi. Rəqs qruplarının çıxışından sonra, səhnəyə Macarıstanın Azərbaycandakı səfiri Tamaş Yojef Tomar dəvət olundu. Çıxışını azərbaycanca edən səfir türk xalqalarının həm ədəbi, həm də siyasi arenada sıx əlaəqələrə sahib olmasını dilə gətirərək, bunun vacibliyindən söz açdı.

Sonra festivalda mükafatlandırma mərasimi baş tutdu. “Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu”, “Beynəlxalq Türk Akademiyası”, TÜRKSOY və İLESAM-ın medalları mükafatçılara təqdim edildi.

Ardınca “Macar Ədəbiyyatı: keçmişdən günümüzə” paneli keçirildi. Yazar Ramil Əhməd və macarıstanlı şair-tərcüməçi Balaj Söllöşi paneldə klassik macar şairləri Şandor Petöfi ilə Mikloş Radontinin həyat və yaradıcılığından bəhs etdilər. Toxunulan digər mövzu isə Azərbaycan və Macarıstan ədəbiyyatının bir dildən digərinə az sayda tərcümə edilməsi ilə bağlı oldu. Əminik ki, naşirlər bunu nəzərə alacaqlar.

Səhnənin hər gün ən azı bir saatlığına AYB-nin yerli bölmələrinə verilməsi də hamı tərəfindən maraqla qarşılanırdı. Son gündə ölkəmizin şimal bölgəsindən olan şairlərlə görüş keçirildi. AYB-nin Quba bölməsinin rəhbəri şair Ramiz Qusarçaylı çıxışında qeyd etdi ki, ölkəmizin şimal rayonlarında hazırda beş ədəbi məclis fəaliyyət göstərir. Yerli yazarların arasında çox istedadlı qələm sahibləri var. Biz çalışırıq ki, bölgələrimizdə məxsusi bir ədəbi mühit yaradaq, istedadlı insanlara meydan açaq, onları dəstəkləyək. AYB-nin rəhbərliyi bizə bu sahədə böyük dəstək verir.

Ramiz Qusarçaylı bir neçə yeni şeirini oxudu. O, sözünü bitirəndə tamaşaçıların arasından gənc bir xanım şairin məşhur “Azərbaycan bayrağı” şeirini oxumaq istədiyini bildirdi və səhnəyə qalxıb böyük həvəslə şeiri əzbərdən söylədi.

Sonra əslən Qubadan olan, beş dildə divan yaratmış, tarix elmələri doktoru, şair Şahin Fazil, istedadlı şairlər Səxavət Ənvəroğlu, II Qarabağ müharibəsi içtirakşısı, şair Ayaz Səlimxanlı, Qusarın Həsənqala kəndindən Ceyhnun Ağabəyli, Türkiyədən gəlmiş Mahmud Özqoca, gənc şair Gülayə Aydın öz şeirlərinin oxudular.

*Əli NƏCƏFXANLI,*
*Məsaim HACIXANLI,*
*“Xalq qəzeti”,*

*Rüfət MƏHƏRRƏMOV*

**Anar, Xalq yazıçısı, AYB-nin sədri:**



– Böyük uğurla keçən bu festival Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyinə təsadüf etməsi ilə əlamətdar oldu. Açılış mərasimindəki çıxışımda da qeyd etdim ki, türk dünyasından nümayəndələrin bir araya gəldiyi kitab və ədəbiyyat bayramını yüksək dəyərə malikdir. Türk xalqlarının gəncliyi gələcəyə kitabla getməlidir. Çünki kitab, ədəbiyyat, mədəniyyət nəsilləri tərbiyə edir.

Ölkəmizdə kitaba və gənclərdə mütaliə mədəniyyətinin inkişaf etdirilməsinə ciddi fikir verilməsi fərəh doğurur. Elə sözügedən festivalda Baş nazirin müavini Əli Əhmədovun, Mədəniyyət naziri Adil Kərimlinin, akademiklərin, deputatların, ünlü ziyalıların iştirakı bu barədə çox şey deyir.

Hələ bir il öncə Bakı Dövlət Universitetində təşkil olunan I Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında demişdim ki, Azərbaycan və Türkiyənin həm silahı, həm də sözü güclüdür. Biz bütün dünyaya barış, sülh arzulayırıq. Qoy, hər xalq öz doğma torpağında əkib-becərsin, mahnılar yazsın, kitablar oxusun, belə kitab bayramlarını ürək açıqlığı ilə qeyd edə bilsin.

Budəfəki festival daha möhtəşəm keçdi. Festivalda ilk tədbirlərdən biri mənim yaradıcılığıma həsr olunmuşdu. Kitab və ədəbiyyat bayramı həftə ərzində müxtəlif layihələrin təqdimatı ilə yaddaqalan oldu. Festivalda 50-dən çox nəşriyyat, 30-a yaxın xarici ölkə nümayəndəsi iştirak edirdi. Türkdilli dövlətlərin Birliyi ölkəmizin daha da inkişafı üçün son dərəcə vacibdir və bu baxımdan belə festivalların əhəmiyyəti misilsizdir.

**Abdulla Cavanşir, İsveçdəki Qarabağ Dərnəyinin rəhbəri, fəlsəfə elmləri namizədi:**



– Beynəlxalq türk müəlliflər birliyi tərəfindən ikinci Türk Dünyası Ədəbiyyatı və Kitab Festivalına dəvətim səbəbilə Bakıda bir sevincli mədəniyyət həftəsi keçirdim. Tədbirə Türksoy ölkələrinin tanınmış alimləri, qələm adamları, incəsənət nümayəndələri, bir çox ziyalıları dəvətli idilər. Mən isə İsveçdə yaşayan siyasi mühacir kimi bu tədbirə qatılmışdım. Güney Azərbaycanı təmsil edirdim.

Tədbirin proqramı məni valeh etdi: Çox zəngin və yaddaqalan idi. Beşinci gün “Azərbaycan günü” kimi milli himnimizlə başlandı. Bu himn çalınanda elə bilirdim dünya mənimdir. Hərçənd Təbrizimizdə də 1945-ci ildə bəstəkar Cahangir Cahangirov ilə şair Mir Mehdi Ehtimadın şeirinə bəstələnmiş belə bir himnin səslənməsini məndən yaşca dörd-beş yaş böyük olanlardan eşitmişdim.

İndi şükür ki, Azərbaycanımız müstəqildir və bu fakt bütün dünya azərbaycanlılarına ilham verir. Deputatlar, nazirliklərin və rəhbər orqanların nümayəndələri, Xalq yazıçıları, şairlər, fondların təmsilçiləri və bir çox say-seçmə ziyalılar törənə qatılmışdılar. Həmin gün Türkiyənin dövlət təmsilçiləri və yazıçıları, incəsənət adamları gözəl çıxışları ilə yadda qaldılar.

İkinci günün qəhrəmanı Məxtunqulu Fərağı idi. Onun yaradıcılığından danışıldı, sözlərinə yazılmış mahnılar və şeirləri səsləndi. Digər günlər də belə əlamətdar hadisələrlə yadda qaldı. Bütöv bağı bəzəyən kitab sərgiləri sanki gül-çiçək çələngi idi. Bu əsərlər türk ədəbiyyatının qədimiliyinə dəlalət edirdi. Əslində, “Manas”dan “Dədə Qorqud”a qədər... səyahət etdik. Tədbirin sonunda Macarıstan ədəbiyyatının oxunması və onların türk dilinə tərcüməsi qədim hunların nəfəsini bizə və Türk dünyasına dolanırdı.

Tədbirin bağlanışında bir sıra ziyalılar müxtəlif mükafatlarla təltif olundular. O cümlədən, publisist və tərcüməçi kimi mənə də II Türk Dünyası Ədəbiyyatı və Kitab Festivalında fəal iştiraka görə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Sertifikat təqdim etdi. Bir həftəlik böyük zövqə görə Azərbaycan dövlətinə, Yazıçılar Birliyinə, Bakı İcra Hakimiyyətinə, Elmlər Akademiyasına, Beynəlxalq Türk Müəlliflər Birliyinə minnətdaram.

**Əsəd Cahangir, ədəbi tənqidçi:**



– Hər gün buraya gələrək, dost türk ellərindən təşrif buyurmuş qonaqların Azərbaycan oxucularına təqdim etdikləri bir-birindən maraqlı kitablarla böyük həvəslə tanış oldum. Həmin kitablardan bir neçəsini alaraq şəxsi kitabxanamı daha da zənginləşdirə bildim.

Belə tədbirlərin keçirilməsinin böyük əhəmiyyəti olduğunu vurğulamaq lazımdır. Festival türkdilli xalqlar və onların ədəbiyyatını yaradan şair və yazıçılar arasında bir mənəvi körpü rolunu oynayır. Bu bayramda mən bir daha əmin oldum ki, çağdaş türk xalqları ədəbiyyatı bəşər mədəniyyətinə böyük töhfələr verir və verəcəkdir.

**Oqtay Mirqasımov – 80**

# Milli kinomuzu zənginləşdirən rejissor



**Azərbaycan kino sənətinə şərəf gətirən rejissor və ssenarist Oqtay Mirqasımovun beş il əvvəl Prezident tərəfindən “Şərəf”, dünən isə “İstiqlal” ordeninə layiq görülməsi onun halal haqqıdır. Moskvadakı Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun məzunu olan istedadlı sənətkar “Azərbaycanfilm” kinostudiyasında fəaliyyətə başladığı gündən ötən 55 il ərzində milli kino sənətimizin inkişafına və dünyada tanıdılmasına dəyərli töhfələr verib. Hazırda Xalq artisti, ARKİ İdarə Heyətinin katibidir.**

Oqtay Mirqasımov alim ailəsində doğulub. Atası – tibb elmləri doktoru Mir Əsədulla Mirqasımov AMEA-nın ilk prezidenti olub. Qardaşı Rüfət Mirqasımov ailə ənənəsi üzrə gedərək, elmə könül verib və fizika-riyaziyyat elmləri doktoru, AMEA-nını müxbir üzvlüyünə qədər yüksəlib. Amma Mirələsgər heykəltəraşlığı seçib, Xalq rəssamı olub. Oqtay Mirqasımov isə taleyini kinoya bağlayıb. Qızı Ayanı da, necə deyərlər, öz tərəfinə çəkə bilib: teatr və kino aktrisası olan Ayan xanım da atası kimi, Xalq artisti fəxri adına layiq görülüb.

Övladın ata haqqında dedikləri: “Mən atamla ilk dəfə "Ovsunçu" filmində işləmişəm. Həmin filmə çəkilən zaman özünə inamsızlıq hissi yaşayırdım. Bilmirdim çəkiliş vaxtı onunla ünsiyyətim necə alınacaq. Amma birinci gündən biz ata və qız fikrindən uzaqlaşdıq. Bundan sonra heç bir qorxu, həyəcan, kompleks yaşamadım. Onun çəkilişdəki davranışı, sözün yaxşı mənasında, məni təəccübləndirir”.

...Aprel ayında redaksiyamızda Oqtay Mirqasımovun iştirak etdiyi dəyirmi masada milli kinomuzun bu günü və sabahı ilə bağlı qayğılardan ətraflı söhbət açıldı. Görkəmli sənətkarın fikirlərində tənqidi notlar da vardı, amma nikbin bir ruh duyulurdu. Baş redaktorumuz Əflatun Amaşov illər öncə Monqolustanda keçirilmiş Azərbaycan mədəniyyəti festivalını xatırlayaraq dedi: “Oqtay Mirqasımov da orada idi, “Şeytan göz qabağında” filmini aparmışdı. Həmin film neçə dəfə nümayiş olundu. Qəzetlər yazırdı ki, nə əcəb sovet vaxtında belə film çəkilib? Aktual məsələnin qoyuluşu və filmin o cür dəyərləndirilməsi fərəhli idi. Axşam istirahəti saatlarında insanların yaxınlaşaraq Oqtay müəllimdən avtoqraf istəmələri hər birimizə xoş təsir bağışlayırdı”.

Oqtay müəllim təsdiqlədi ki, doğrudan da, o vaxt film öz sözünü dedi. Sonra da vurğuladı ki, Heydər Əliyevin kino, ümumiyyətlə, mədəniyyət, incəsənət və teatr strategiyası məhəbbət üzərində qurulmuşdu. “O bu sahəni sevdiyinə görə izləyir, diqqətində saxlayırdı. Ulu öndər senzuranın bizə olan hücumlarına beləcə sipər çəkirdi. Budur, artıq kinomuzun 125, kinostudiyamızın 100 illiyini qeyd edirik. Qazanılan bütün nailiyyətlərə görə məhz ulu öndərin ölməz ruhuna borcluyuq... Biz əxlaqi özəlliklərimizi Qərbin yeni dəblərinə qurban verməməliyik. Mentallığı qorumasaq, dağıdıcı proseslərə rəvac vermiş olarıq”.

Sonda Oqtay Mirqasımov bizə tövsiyə verdi: “Yaxşı olar ki, “Xalq qəzeti”ndə ayrıca bir rubrika yaradılsın və orada xalqın sərvəti olan kinomuz haqqında kiçik təəssüratlar yer alsın, fikirlər söylənsin. Hətta düz yoldan sapa biləcək gənc rejissorlara tövsiyələr də qəzet səhifəsinə çıxarılsın...”

Səksən yaşlı sənətkarın filmoqrafiyasında sıralama sayı 60-dan yuxarıdır. Onun rejissor, ssenarist və aktyor kimi iştirak etdiyi sevilən, yaddaqalan çox sayda bədii, sənədli filmləri var. “Cin mikrorayonda”, “Dantenin yubileyi” kimi populyar filmləri sadalamaq olar.

Oqtay müəllim daim ciddi yaraqdıcılıqla məşğul olmaqla yanaşı, milli mədəniyyətimizin saflığını qorumaq uğrunda da mübarizə aparıb. Elə aprel ayında “Azərbaycan Kinosu - 125: Reallıq, Çağırışlar və Hədəflər” mövzusunda keçirilən Kino Forumundakı çıxışı da bu baxımdan ibrətamiz idi: "Bu gün təəssüf ki, ölkədəki kinoteatrlarda millətin zövqünü xarab edən bayağı, primitiv filmlər nümayiş olunur... Azərbaycan cəmiyyətinə bəzən elə filmlər təqdim olunur ki, baxdıqca xəcalət çəkirsən. İstəmirəm belə filmlər nümayiş olunsun”.

Görkəmli rejissorun nümunə ola biləcək filmləri çoxdur. Məsələn, 2008-ci ildə onun ssenarisi və quruluşunda lentə alınmış “Günaydın, mələyim” bədii filmində Vətənimizin ağrısı, taleyi və gələcək (o zaman üçün) qələbəsi də var. O.Mirqasımov o filmdə xalqımızın 2020-ci ildə Vətən müharibəsindəki qələbəsini irəlicədən görüb və göstərib. Qəribədir ki, repertuar siyasətini müəyyənləşdirən kimlərsə düz 12 il filmin nümayişini lazım bilməyiblər. Nəhayət, 2020-ci ildə İTV “Günaydın, mələyim”i göstərib.

Qısa qeydlərimizi yubilyarın bir ibrətamiz fikri ilə tamamlamaq istəyirik: “Arzu etməyi bacarmaq, saf niyyətli olmaq lazımdır”. Biz də Oqtay müəllimə uzun və sağlam ömür arzulayırıq!

*Əli NƏCƏFXANLI,*
*“Xalq qəzeti”*

# Milli Məclisdə Qərbi Azərbaycanla bağlı ictimai dinləmə keçirilib

**Dünən Milli Məclisdə parlamentin Mədəniyyət komitəsinin təşkilatçılığı ilə “Qərbi Azərbaycan: soyqırımına məruz qalan tarixi-mədəni irsimiz. Qərbi Azərbaycanın tarixi və mədəni irsinin dirçəlişi” mövzusunda ictimai dinləmə keçirilib.**



Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva diqqətə çatdırıb ki, tarixi-mədəni hüdudlarımız respublikamızın sərhədləri ilə bitmir, Ermənistan Respublikası indi “Ermənistan” adlanan tarixi Azərbaycan ərazisindəki mədəni irsimizə qarşı törətdiyi soyqırımının bədəlini ödəyəcək, tarix, insanlıq və hüquq qarşısında cavab verəcək.

Qərbi Azərbaycan ərazisində tarixi-mədəni abidələrimizin, toponimlərimizin, coğrafi adlarımızın, xalqımızın folklor nümunələrinin öyrənilməsi və təbliğinin hər bir azərbaycanlının borcu olduğunu deyən Əziz Ələkbərov bu istiqamətdə görüləcək işlərlə bağlı fikirlərini bölüşüb, dövlət qurumlarının, yaradıcılıq təşkilatlarının üzərinə düşən vəzifələrdən danışıb.

Səhiyyə komitəsinin sədri, Qərbi Azərbaycan İcması Ağsaqqalları Şurasının sədri Əhliman Əmiraslanov, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, mədəniyyət nazirinin müavini Səadət Yusifova, deputatlar Fazil Mustafa, Sabir Rüstəmxanlı, Nizami Cəfərov, Məlahət İbrahimqızı, həmçinin AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanov, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, “Azəri-Türk Qadınlar” Birliyinin sədri Tənzilə Rüstəmxanlı və başqaları çıxış edərək Qərbi Azərbaycanda tarixi-mədəni irsimizin soyqırımına məruz qalması, Qərbi Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması, bu bölgədə Azərbaycanın tarixi və mədəni irsinin bərpası və dirçəlişi ilə bağlı fikirlərini bölüşüblər, təkliflərini səsləndiriblər.

**Ə.BƏDƏLOV, “Xalq qəzeti”**

# Zəfər Yolu ilə yeni zirvələrə!

## "Əziz Şuşa" beynəlxalq velosiped yarışı böyük uğurla keçirildi

**Vətəni və xalqı qarşısında misilsiz xidmətlər göstərən ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi çərçivəsində Azərbaycanda və ölkəmizin hüdudlarından kənarda mühüm əhəmiyyət kəsb edən tədbirlər davam edir.**



Bu günlərdə ölkəmizdə keçirilən və ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş beş mərhələli "Əziz Şuşa" beynəlxalq velosiped yarışı bir sıra məqamlarla idman tariximizin yaddaşına parlaq səhifələr yazdı. Beynəlxalq Velosipedçilər İttifaqının təqvim planına daxil edilən 2.2 kateqoriyalı yarışa ümumilikdə 14 ölkədən 16 komandanın heyətində 100-ə yaxın idmançı mübarizəyə qatılmışdı. Xatırladaq ki, "Əziz Şuşa" velosiped yarışı ötən il ölkəmizdə "Şuşa ili" çərçivəsində keçirilib və iki mərhələdən ibarət olan həmin yarışda 8 ölkədən 13 komanda iştirak etmişdi.

Onu da qeyd edək ki, bu turnir idman tariximizdə Şuşada təşkil edilən ilk beynəlxalq yarış kimi əlamətdar hadisə kimi yaddaşlarda qalıb. Elit yaş kateqoriyasında kişilərin mübarizə apardığı şose velosipedinin qrup ötüşməsi növü üzrə təşkil olunan budəfəki yarış, həm iştirakçı ölkələrin sayına, həm də beş mərhələdə təşkil edildiyinə görə daha genişmiqyaslı olub.

Turnirdə əsas məqamlardan biri də, yarışın həlledici mərhələsinin marşrutunun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə inşa edilən "Zəfər Yolu"ndan keçməsi idi. Bu mərhələdə idmançıların enişli-yoxuşlu dağ yolları ilə hərəkət etdikcə ecazkar təbiət mənzərələri ilə göz oxşayan doğma yurdumuz – Qarabağ bütün möhtəşəmliyi və əzəməti ilə diqqəti cəlb edərək yarışı daha da maraqlı və həyəcanlı edirdi.

Düzdür, yarışın ilk dörd mərhələsi də velosipedçilərin ümumilikdə gərgin və maraqlı mübarizəsi şəraitində keçdi. Belə ki, iyunun 7-də Bakı şəhərinin Səbail rayonunda yerləşən Veloparkdan startı verilən yarışın ilkin mərhələsində 150 kilometr məsafə qət edərək Şamaxı rayonunda finiş xəttini keçən idmançılar, sabahı günü Qəbələ-Şəki-Qəbələ marşrutu üzrə 176,2 kilometr məsafə keçiblər. Qəbələdən Gəncənin mərkəzinədək olan üçüncü mərhələdə velosipedçilər 170 kilometr tamamilə düz marşrut üzrə hərəkət ediblər. Dördüncü mərhələ isə Gəncədə təyin olunmuş marşrut üzrə dövrə vurduqdan sonra Göygöl Milli Parkına qədər 102,9 kilometrdən ibarət olub.

Yarışın Şuşayadək olan əsas mərhələsi idmançıların xüsusilə əzmkar mübarizəsi ilə yadda qalıb. Elə turnirin direktoru Ronald Hofer də hələ yarışın əvvəlində dağ keçid mərhələlərinin çox olduğu üçün yarışın çətin olacağını düşündüyünü demişdi. Həlledici mərhələdə yarış iştirakçıları Beyləqan Rayon İcra Hakimiyyətinin qarşısından start götürərək Şuşa şəhərinə qədər 132,2 kilometr məsafə qət ediblər. Dağ mərhələsi olan Şuşa marşrutu üzrə idmançılar əvvəlcə dağa qalxıb sonra şəhərin mərkəzinə eniblər. Yerli sakinlər, idman həvəskarları və turistlər velosipedçiləri alqışlarla qarşılayıb, onları böyük coşqu ilə dəstəkləyiblər.

Sonuncu mərhələnin qalibi olan İtaliyanın "Team Technipes İnemiliaromagna" komandasının velosipedçisi Emanuele Ansaloni yekun nəticələrə görə, "Əziz Şuşa" beynəlxalq velosiped yarışında qızıl medal qazanıb. O, sarı köynəklə yanaşı, həm də yarışın ən yaxşı sprinteri olaraq yaşıl köynəyə sahib olub.

"Almaty Astana Motors" klubunun üzvü Rudolf Remkhi gümüş, Niderlandın "Universe Cycling Team" klubunun üzvü Lars Quaedvlieg isə bürünc medala layiq görülüb.

Azərbaycan milli komandasının üzvü Samir Cəbrayılov dağ yollarında əzmkarlıqla mübarizə apararaq bütün rəqiblərini üstələyib. İdmançımız yarışın ən yaxşı dağ velosipedçisi olduğuna görə qırmızı köynəklə təltif edilib.

Qazaxıstanın "Almaty Astana Motors" klubunun üzvü Rudolf Remkhi isə ən yaxşı gənc idmançı olaraq ağ köynəyə sahib çıxıb.

Komanda hesabında isə İtaliyanın "Team Technipes İnemiliaromagna" klubu birinci yeri tutub. Azərbaycan milli komandası yarış cədvəlinin 9-cu pilləsində yer alıb. Turnirin digər önəmli məqamı isə onun "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıması idi.

Yarışlar zamanı açıqlamalar verən iştirakçılar turnirin idmançılardan xüsusi əzmkarlıq tələb edən ciddi sınaqlardan biri olduğunu, bu çətinliyin onların mübarizə ruhunu daha da artırdığını qeyd ediblər. Birinci mərhələnin qalibi bolqarıstanlı idmançı Martin Papanovun "Küləyə qarşı irəliləsəm də, ətrafa baxırdım və Azərbaycanın gözəl təbiətinə heyran olurdum", – fikirlərini xoş təəssüratla xatırlayırıq. Bəli, məhz yorulmaz mübarizə nümayiş etdirənlər sonda qalib olur, Zəfər Yolu ilə yeni zirvələrə ucalırlar.

# Türkoloq alimin yubileyi

**Azərbaycan Yazıçılar Birliyində Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) professoru, Türkoloji Mərkəzin Türk ədəbiyyatı bölməsinin müdiri Elman Quliyevin 65 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.**



Tədbiri giriş sözü ilə Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq əlaqələr və tərcümə məsələləri üzrə katibi Səlim Babullaoğlu açaraq yubilyarın həyatı, yaradıcılığı haqqında məlumat verib. Qeyd edib ki, Elman Quliyevin yaradıcılığının əsas xəttini Türk dünyası ədəbiyyatının öyrənilməsi təşkil edir.

ADPU-nun rektoru, tarix elmləri doktoru, professor Cəfər Cəfərov, prorektor Mahirə Hüseynova, Milli Məclisin deputatları Sabir Rüstəmxanlı, Jalə Əliyeva, Qəzənfər Paşayev, Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov, yazıçı-dramaturq Hüseynbala Mirələmov və başqaları çıxış edərək müəllifin Azərbaycan ədəbiyyatının çağdaş mərhələsini əhatə edən ədəbiyyatşünaslıq sahəsindəki araşdırmalarından danışıblar. Bildirilib ki, Elman Quliyev bir çox beynəlxalq elmi konfranslarda məruzə ilə çıxış etmiş, elmi əsərləri Türkiyə, İran, İraq, Türkmənistan, Şimali Kipr və s. xarici ölkələrdə çap edilmişdir. Onun çoxsaylı tədqiqat əsərlərinin elmi ictimaiyyət tərəfindən haqlı təqdir olunduğu nəzərə çatdırılmışdır. Elman Quliyevin monoqrafiya, dərslik və dərs vəsaitləri ölkəmizin universitetlərində mötəbər tədris materialı olaraq sevilə-sevilə oxunur, bəhrələnilir və təqdir olunur.

Sonda Elman Quliyev çıxış edərək ona göstərilən diqqətə görə təşəkkürünü bildirib.

***Leyla AZAD,***
***"Xalq qəzeti***

## Gimnastlarımız Misirdə 3 medal qazanıblar



***Bədii gimnastlarımız Misirin paytaxtı Qahirədə keçirilən "Pharaohs Cup" turnirində 3 medala sahib olublar.***

Gənc idmançılarımız Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova və Zəhra Cəfərovadan ibarət qrup komandası 5 ip və 5 topla hərəkətlərin icrasında ikinci yeri tutublar.

Digər gimnastımız Nuray Əhmədzadə isə lentlə fərdi hərəkətlərdə bürünc medal qazanıb.

Azərbaycan Latviyanın Kekava şəhərində keçirilən "Fairy Dust" beynəlxalq turnirində isə iki bürünc medal qazanıb.

Ləman Əhmədli böyüklər arasında, Fidan Aladinova isə gənclər arasında üçüncü yerləri tutublar.

## İrina Zaretskadan bürünc medal

***Azərbaycan karateçisi İrina Zaretska Yaponiyanın Fukuoka şəhərində keçirilən Premyer Liqa turnirinin üçüncü mərhələsində bürünc medal qazanıb.***



Turnirdə 68 kiloqram çəki dərəcəsində mübarizə aparan karateçimiz üçüncü yer uğrunda görüşdə qazaxıstanlı Venera Jahibaevanı məğlub edib.

Xatırladaq ki, "Tokio-2020"in gümüş medalçısı turnirin Mərakeşdə təşkil olunan əvvəlki mərhələsində qalib adını qazanıb.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

# Bayrağımızın yandırılması Ermənistana baha başa gəldi

**İrəvanda keçirilmiş ağır atletika üzrə Avropa çempionatının açılışında Azərbaycan bayrağının yandırılması Ermənistana baha başa gəldi. Ölkə bu idman növü üzrə 2024-cü il dünya çempionatına evsahibliyi şansından məhrum edildi.**

Qeyd edək ki, bayrağımıza qarşı həqarətli münasibəti törədən şəxs Ermənistan vətəndaşı, ölkənin tanınmış dizaynerlərindən biri Aram Nikolyan olub. Ermənistanın 2024-cü il ağırlıqqaldırma üzrə dünya çempionatına evsahibliyi şansından məhrum edilməsinə gəlincə, deməliyik ki, əslində məsələnin yalnız rəsmiləşməsi qalmışdı. Yəni, Ermənistanın adı həmin çempioanatı keçərəcək ölkə olaraq açıqlanmalı idi. Ancaq Azərbaycan Ağır Atletika Federasiyasının səyləri ilə bunun qarşısı alınıb. Beynəlxalq Ağır Atletika Federasiyasının İcraiyyə Komitəsinin Kubada keçirilmiş iclasında 2024-cü il çempionatının Ermənistanda keçirilməməsi, bu hüququn Bəhreynə verilməsi barədə qərar çıxarılıb.

**R.AMİN**

# BİLDİRİŞ

"Xalq qəzeti"nin 19 may və 1 iyun 2023-cü il tarixli nömrələrində **"Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin** "Ağdam rayonunun Xıdırlı kənd yaşayış məntəqəsinin tikintisi məqsədilə I faza üzrə şaquli planlaşdırma və söküntü işlərinin satın alınması üçün dərc edilmiş açıq tenderində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 may 2023-cü il tarixli 164 nömrəli qərarını (iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2023-cü il iyunun 27-si və 30-u iş günləri ilə müvafiq olaraq 24 və 25 iyun istirahət günlərinin yerləri dəyişdirilmişdir) nəzərə alaraq ilkin sənədlərin qəbulu vaxtı 27 iyun 2023-cü il saat 16.00 tarixi dəyişdirilərək 24 iyun 2023-cü il saat 16.00-a təyin edilmişdir.

Qeyd etmək lazımdır ki, malgöndərənlərin təkliflərinin qəbulu (təkliflərin qəbulu 7 iyul 2023-cü il və təkliflərin açılış tarixi isə 10 iyul 2023-cü il) və açılışı tarixləri dəyişilməz olaraq qalır.

***Tender komissiyası***

# "Xətai Təchizat" ASC-nin 2022-ci il dekabrın 31-nə

## *MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABATI*

**manatla**

| Aktivlər | 2022-ci il dekabrın 31-nə | 2021-ci il dekabrın 31-nə |
|---|---|---|
| Uzunmüddətli aktivlər | | |
| Əsas vəsaitlər | 35 289,00 | 38 222,00 |
| Cəmi uzunmüddətli aktivlər | 35 289,00 | 38 222,00 |
| Qısamüddətli aktivlər | | |
| Ticarət və digər debitor borcları | 147 370,00 | 140 286,91 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 25 603,00 | 41 157,00 |
| Mal-material ehtiyatları | 13 450,00 | 2 504,00 |
| Cəmi qısamüddətli aktivlər | 186 423,00 | 183 947,91 |
| Cəmi aktivlər | 221 712,00 | 222 169,91 |
| **Kapital və öhdəliklər** | | |
| **Kapital** | | |
| Nizamnamə kapitalı | 62 322,00 | 62 322,00 |
| Hesabat dövrünün xalis mənfəəti | 9 507,56 | 36 745,98 |
| Əvvəlki dövrlər üzrə bölüşdürülməmiş mənfəət | 61 022,76 | 24 276,78 |
| Cəmi kapital | 132 852,32 | 123 344,76 |
| **Öhdəliklər** | | |
| Qısamüddətli öhdəliklər | | |
| Ticarət və digər kreditor borcları | 88 859,68 | 98 825,15 |
| Cəmi qısamüddətli öhdəliklər | 88 859,68 | 98 825,15 |
| Cəmi öhdəliklər | 88 859,68 | 98 825,15 |
| Cəmi kapital və öhdəliklər | 221 712,00 | 222 169,91 |

MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT

| | | |
|---|---|---|
| Satışdan gəlirlər | 309 217,00 | 428 547,53 |
| Əməliyyat və digər inzibati xərclər | (297332,55) | (382 615,05) |
| Əməliyyat mənfəəti | 11 884,45 | 45 932,48 |
| Vergidən əvvəl mənfəət (zərər) | 11 884,45 | 45 932,48 |
| Mənfəət vergisi | (2 376,89) | (9 186,50) |
| Cəmi il üzrə mənfəət (zərər) | 9 507,56 | 36 745,98 |

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| | | |
|---|---|---|
| Əməliyyat fəaliyyəti | | |
| Vergidən əvvəl mənfəət | 11 884,45 | 45 932,48 |
| Vergidən əvvəl zərəri xalis pul vəsaitlərinin hərəkəti ilə üzləşdirmək məqsədilə aparılmış qeyri-nağd düzəlişlər | | |
| Əsas vəsaitlərin amortizasiyası | 1 877,00 | 2 004,00 |
| Digər xərclər | 1 056,00 | 0,00 |
| Dövriyyə vəsaitlərində dəyişikliklər | 14 817,45 | 47 936,48 |
| Mal-material ehtiyatlarının azalması (artması) | (10 946,00) | 101 251,50 |
| Ticarət və digər kreditor borclarının artması (azalması) | (12 342,36) | (73 000,07) |
| Ticarət və digər debitor borclarının azalması (artması) | (7 083,09) | (55 322,91) |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | (30 371,45) | (27 071,48) |
| **İnvestisiya fəaliyyəti** | | |
| İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitlərinin hərəkəti | 0,00 | 0,00 |
| Maliyyələşdirmə fəaliyyəti | | |
| Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan pul vəsaitləri | 0,00 | 0,00 |
| İlin əvvəlinə pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 41 157,00 | 20 292,00 |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis artım (azalma) | (15 554,00) | 20 865,00 |
| İlin sonuna pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 25 603,00 | 41 157,00 |

KAPİTALDA DƏYİŞİKLƏR HAQQINDA HESABAT

| | Nizamnamə Kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **2021-ci il yanvarın 1-nə** | 62 322,00 | 24 276,78 | 86 598,78 |
| Hesabat ili üzrə cəmi mənfəət | - | 36 745,98 | 36 745,98 |
| Mənfəətin istifadəsi | - | | 0,00 |
| **2021-ci il dekabrın 31-nə** | 62 322,00 | 61 022,76 | 123 344,76 |
| **2022-ci il yanvarın 1-nə** | 62 322,00 | 61 022,76 | 123 344,76 |
| Hesabat ili üzrə cəmi mənfəət | - | 9 507,56 | 9 507,56 |
| Mənfəətin istifadəsi | - | 0,00 | 0,00 |
| **2022-ci il dekabrın 31-nə** | 62 322,00 | 70 530,32 | 132 852,32 |

# "Bakı Texnika Sənaye" ASC səhmdarlarının nəzərinə!

28 iyul 2023-cü il saat 10.00-da "Bakı Texnika Sənaye" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2022-ci ilin maliyyə balansının təsdiq edilməsi.

**2.** Dividendlərin bölüşdürülməsi.

**3.** ASC-nin nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi.

**4.** Qanuni təmsilçiyə səlahiyyətlərin verilməsi.

**5.** Sair məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan 13.00-adək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonu- 050-272-60-79.

Ünvan- Bakı şəhəri, Sabunçu rayonu, B.Bünyadov küçəsi 11.

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*tabeliyindəki idarələrə elektro-mexaniki alətlərin satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il iyunun 19-u saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1053.

Ünvan- Bakı şəhəri, Neftçilər prospekti 2.

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 124 (30240) 13 iyun 2023-cü il, çərşənbə axşamı
veb-sayt: www.xalqqazeti.az

*Mədəniyyət xəbərləri*

## "Sahə" böyük ekrana qayıtdı

**"Azərbaycan" kinoteatrında milli kinomuzun 125, "Azərbaycanfilm" Kinostudiyasının 100 və Azərbaycan Kinematoqrafçılar İttifaqının 60 illiyi münasibətilə rejissor İlqar Safatın "Sahə" bədii filmi nümayiş olunub.**



Bu film hələ 2008-ci ildə Azərbaycandan "Narimanfilm", Gürcüstandan "Georgiafilm" və "Bagirafilm" kino şirkətlərinin birgə əməkdaşlığı çərçivəsində müştərək layihə üzrə istehsal olunsa da, "YouTube" platformasına qoyulmayıb. Mədəniyyət Nazirliyinin də maliyyə dəstəyi ayırdığı ekran əsərində hər iki ölkənin aktyorları iştirak ediblər.

"Sahə" filminin ideyasının necə yaranmasından danışan İlqar Safat bildirib ki, bu onun tammetrajlı bədii debütüdür və misteriya janrında arxetipik bir hekayədir. Sənət əsərində şüur axını fəndindən istifadə olunub. Rollara Xalq artisti Məmməd Səfa, Əməkdar incəsənət xadimi Vaqif İbrahimoğlu, Əməkdar artist Sonaxanım Mikayılova, aktyorlar Midhət Aydın, Timur Oduşev, Zaza Bejaşvili və Melissa Papel çəkiliblər. Filmin operatorları Konstantin Esadze, Varlam Karçxadzedir.

## "Art Studiya"da "Biganə məşuq" təqdimatı

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında fransız dramaturqu Jan Koktonun "Biganə yaraşıqlı" pyesi əsasında hazırlanan "Biganə məşuq" adlı tamaşanın premyerası olub.**

Yeni yaradılmış "ArtStudiya"da hazırlanmış səhnə əsərində ümumbəşəri duyğular fonunda qadın–kişi münasibətlərindən bəhs olunur. Tamaşanın quruluşçu rejissoru, səhnə və musiqi tərtibatçısı Aydan Həsənzadədir. Əsas rolları Aydan Həsənzadə, Məmmədağa Əlili Canzadə ifa edirlər.

Bir hissəli səhnə əsərində fransız müğənnisi Edit Piafın ağır həyatı, xəstəlik həddinə çatan sevgisi təsvir edilib. Əsərdi Lyüsi adlı müğənni sevdiyi adamı fədakarcasına yanında saxlamağa, onu qorumağa çalışır. Ancaq Lyüsinin sevgisinə qarşı laqeyd olan Emil üçün maddiyyat, pul daha önəmlidir.

Bir tərəfdən çox böyük ehtirasla sevən qadın, o biri tərəfdən biganə məşuq. Bu ciddi kontrastın arasında baş verən ziddiyyətli hadisələr bir daha sübut edir ki, hər hansı bir münasibətdə sədaqət və vicdan hissi çox önəmlidir. Əks qütblərdə dayanan bu iki insanın taleyinin necə olması tamaşada öz əksini tapıb.



## Yazıçının yubileyi

**Masallıdakı Heydər Əliyev Mərkəzində tanınmış yazıçı-publisist Nurəddin Ədiloğlunun anadan olmasının 65 illiyi qeyd olunub.**



Rayon rəsmiləri, elm, mədəniyyət xadimləri, ictimaiyyət və media nümayəndələrinin iştirak etdikləri tədbiri Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Ağacəfər Həsənli açıb. Yubilyarın həyat və yaradıcılığından bəhs edən videoçarx izlənilib.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov yubilyarı təbrik edib, yaradıcılığında yeni uğurlar arzulayıb. Azərbaycan Yazıçılar Birliyi Lənkəran bölməsinin sədri Qafar Cəfərli, Lənkəran Dövlət Universitetinin professoru Yədulla Ağazadə, yazıçının qələm dostları onun çoxşaxəli yaradıcılığından danışıblar.

Sonda Nurəddin Ədiloğlu tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

*Ə. DOSTƏLİ,*
*"Xalq qəzeti"*

*Texnologiya yenilikləri*



## "SpaceX"də 14 yaşlı mühəndis...

**İlon Maska məxsus "SpaceX" şirkəti "Starlink" bölməsi üçün 14 yaşlı Kairan Quazi adlı tələbəni işə götürüb. O, burada proqram mühəndisi kimi çalışacaq. Yeniyetmə yaşda olan mütəxəssis bu ay Kaliforniyadakı Santa Clara Universitetini bitirəcək.**

Qeyd edək ki, bu, "SpaceX"in ən son işə qəbul etdiyi "texniki cəhətdən çətin" və "əyləncəli" müsahibə prosesindən keçmiş bir proqram mühəndisidir. Kairan Quazini fərqli edən yaşının az olmasıdır.

ABŞ mətbuatında çıxan xəbərlərə görə, onun İQ səviyyəsi dünya əhalisinin 99,9 faizi ilə müqayisədə yüksəkdir, eyni zamanda EQ (emosional intellekt) baxımından da məxsusi yer tutur.

Gənc mühəndis Vaşinqtonda "SpaceX"də işə başlamaq üçün Kaliforniyanın Pleasanton şəhərindən köçməyi planlaşdırır.

*Səadət RZAYEVA,*
*"Xalq qəzeti"*

## "Meta"nın "Project-92" layihəsi

**"Meta" şirkəti "Twitter"ə bənzər "Project-92" adlı yeni tətbiq istifadəyə verəcək.**



"Instagram" a bağlı olacaq bu tətbiq mərkəzi olmayan sosial media protokolu "ActivityPub" tərəfindən dəstəklənəcək.

Qeyd edək ki, tətbiqin inkişaf layihəsinə yanvarda başlanılıb və onun ən qısa zamanda geniş ictimaiyyətə təqdim ediləcəyi gözlənilir.

*Fidan SALMANOVA, "Xalq qəzeti"*

*Maraq dünyamız*

## Dünyanın ən iri yaqutu hərracda

**Nyu-Yorkda hərraca çıxarılan ən böyük yaqut 34,8 milyon dollara (28 milyon funt sterlinq) satılıb. 55,22 karatlıq qiymətli daşı hərraca çıxaran Sotheby's onu "həyatda bir dəfə ola biləcək daş" adlandırıb.**

Qeyd edək ki, keçən il Mozambikdəki "Fura" yaqut mədənində tapılmış daş cilalanmamış halda 101 karat ağırlığında olub. Ümumiyyətlə isə, beş karatdan çox olan cilalanmış yaqutlara az hallarda rast gəlinir.



Nadir qiymətli daş portuqal dilində "Fura ulduzu" mənasını verən "Estrela de Fura" adlandırılıb.

## 12 min illik tütək

**Tədqiqatçılar İsrailin şimalındakı quş müşahidə məntəqəsində quş sümüyü tütəkləri tapıblar. Nadir tapıntının 12 min illik tarixinin olduğu müəyyən edilib. Quş səsini təqlid edən tütəklərdən su quşlarını qorxutmaq üçün istifadə edildiyi güman edilir ki, bir yerə toplaşan quşlar qorxudulub uçurulan zaman onları daha asan tuta bilsinlər.**



Başqa bir nəzəriyyəyə görə isə tütəklərdən musiqi ifaları üçün istifadə edilib.

Nümunələr Avropa, Asiya və Afrika arasında səyahət edən milyonlarla quşun illik miqrasiyalarında istifadə etdiyi bataqlıq ərazi olan Hule vadisindəki Einan/Ain Mallaha ərazisində tapılıb.

Einan/Ain Mallaha Levant bölgəsindəki ovçu-yığıcı icmaların Natufian qəsəbəsidir.

*L.QURBANOVA,*
*"Xalq qəzeti"*

## Şairin yuxusu və yox olması...

**Məşhur ingilis şairi Şelli Presli üzməyi bilməsə də, dənizi çox sevərdi. Bir gün o, gəmi almaq qərarına gəlir. Dostları satışa çıxarılmış "Ariel" gəmisini almağı məsləhət görürlər.**



Şelli də gəmini alır. Amma gəmi limana gətiriləndək bir neçə gün keçir. Bu müddət ərzində qəribə yuxular, qarabasmalar görməyə başlayır. O, gah Corc Bayronun qızı Allerqanı dənizdən çıxan vəziyyətdə görür; gah da qəribə bir fiqur onu qonaq otağına səsləyir və döşəkağını cıraraq, Şelliyə oxşarını göstərir. Lakin şair bunlara əhəmiyyət verməyərək, gəmi gələndən sonra dənizə çıxmaq qərarına gəlir. Və bir yunqanın müşayiəti ilə dənizə çıxır.

Üzərini qatı duman örtmüş dənizdə birdən qısamüddətli dəhşətli qasırğa baş verir. Elə ki, külək sakitləşir, hava açılır, hər şey aydın olur: gəmi də, heyəti də həmişəlik yoxa çıxmışdı.

## Əkiz qardaşların "əkiz" taleyi

**Əkizlərin davranışlarında, hərəkətlərində oxşarlıq adamı heyrətləndirir. Hətta bir-birindən min kilometrlərlə uzaqda yaşayan əkizlər eyni tərzdə davranırlar.**



Məsələn, əkiz Springer qardaşları (ABŞ) anadan olandan bir neçə ay sonra ayrı düşürlər. 39 ildən sonra onlar görüşdükdə məlum olur ki, hər iki qardaş Linda adlı qadınla evli olub, sonra boşanıblar. Qardaşların eyni rəngli, eyni modelli "Şevrole" maşını olub, hər ikisi polisdə işləyib, asudə vaxtlarında ağac üzərində naxışsalma ilə məşğul olublar. Onların hər ikisi bir-birindən xəbərsiz oğlanlarına Ceyms, Alan adı qoyublar. İtlərinin adı isə Toy olub.

Görəsən, bu qohum genlərin təsirindəndir, yoxsa təsadüfdür? Bəlkə də ekstrasensor qavramanın təzahürüdür?

*Pünhan ŞÖVKƏTOĞLU,*
*"Xalq qəzeti"*

## 2 böyük asteroid Yerə yaxınlaşır

**İyunun ortalarında iki böyük potensial təhlükəli asteroid - 1994 XD və 2020 DB5 Yerə yaxınlaşacaq. Bu barədə Rusiya Elmlər Akademiyasının Keldış adına Tətbiqi Riyaziyyat İnstitutunun Beynəlxalq Optik Teleskoplar Şəbəkəsinin Teleqram kanalında məlumat verilib.**

Bildirilir ki, 12 iyun 1994-cü ildə XD 1994-cü ilin dekabrında kəşf edildiyi vaxtdan bəri Yerə ən yaxın məsafədə uçacaq. Səma cismi planetdən 3,2 milyon kilometr, yəni Aya olan məsafədən 8 dəfə uzaqdan keçəcək.

İyunun 15-də üç il əvvəl kəşf edilən 2020 DB5 asteroidi ilə görüş baş tutacaq. O, Yerdən Aya olan məsafədən 11 dəfə uzaq məsafədə uçacaq.

*"Xalq qəzeti"*



**Proqnoz**




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyunun 13-də Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək. Cənub-şərq küləyi əsəcək. Gecə 19-24°, gündüz 29-34° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən gündüz saatlarında bəzi rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 31-36°, dağlarda gecə 9-14°, gündüz 15-20° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

✓ 2013-cü ildə Ukrayna Respublikası Milli Mülki Müdafiə Universiteti tərəfindən İsmayılov Tahir Yusif oğlunun adına verilmiş 036160 nömrəli diplomun qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

✓ 2013-cü ildə Ukrayna Respublikası Milli Mülki Müdafiə Universiteti tərəfindən Mahmudov Elman Şəmsəddin oğlunun adına verilmiş 036159 nömrəli diplomun qiymət cədvəli itdiyi üçün etibarsız sayılır.

✓ "Quba Konserv-2" ASC-nin emissiya prospektinin (özəlləşdirmə planının) əsli itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Bakı Dövlət Universitetinin arxeologiya və etnoqrafiya kafedrasının müdiri, tarixçi alim

**KƏRƏM MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Dövlət İmtahan Mərkəzinin rəhbərliyi və kollektivi DİM-in tarix fənni üzrə seminarının və işçi qrupunun rəhbəri, Bakı Dövlət Universitetinin arxeologiya və etnoqrafiya kafedrasının müdiri, tarixçi alim

**KƏRƏM MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5166
SİFARİŞ 1500
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00